# QƏDİM DİYAR

Beynəlxalq Onlayn Elmi Jurnal

# ANCIENT LAND

International Online Scientific Journal

aem.az

AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

AZƏRBAYCAN RESPUBLİKASI

THE REPUBLIC OF AZERBAIJAN

# QƏDİM DİYAR

**Beynəlxalq Onlayn Elmi Jurnal**
**İmpakt Faktor: 1.465**

**Cild: 6 Sayı: 7**

# ANCIENT LAND

**International Online Scientific Journal**
**Impact Factor: 1.465**

**Volume: 6 Issue: 7**

**Bakı – Baku**
**2024**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 806 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

## Təsisçi və baş redaktor

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Redaktor

**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
nigar_veliyeva@yahoo.com

## Redaktor köməkçiləri

**PhD Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
konul_salmanova@mail.ru

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

## Dillər üzrə redaktorlar

**Prof. Dr. Aynel MƏŞƏDİYEVA**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan

## Elmi sahələr üzrə redaktorlar

**Prof. Dr. Rafail ƏHMƏDLİ,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Təhminə ƏLİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

## REDAKSİYA HEYƏTİ

**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Prof. Dr. Afaq MƏMMƏDOVA**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY**, AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəzər HÜSEYNOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANLI**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA,** Naxçıvan Dövlət Univetsiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
ORCID ID 0000-0002-5274-0356

## Editor

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
nigar_veliyeva@yahoo.com

## Assistant editors

**PhD Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
konul_salmanova@mail.ru

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Language editors

**Prof. Dr. Aynel MASHADIYEVA**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Rafail AHMADLI**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tahmina ALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## EDITORIAL BOARD

**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Asmad MUKHTAROVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Yagub BABAYEV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Afag MAMMADOVA,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANLI**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinc RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

DOI: https://doi.org/10.36719/2706-6185/37/7-13

**Xəzər Hüseynov**
Naxçıvan Dövlət Universiteti
tarix elmləri doktoru
xezerhuseynov@gmail.com
**Fəxriyyə Hüseynova**
Naxçıvan şəhər 10 saylı orta məktəb
xezerhuseynov@gmail.com
https://orcid.org/0000-0002-7874-4654

# AZƏRBAYCANLILARIN QƏRBİ AZƏRBAYCANDAN DEPORTASİYASI VƏ NAXÇIVAN (1948-1953-CÜ İLLƏR)

**Xülasə**

Məqalədə 1948-1953-cü illərdə azərbaycanlıların ata-baba yurdlarından zorla köçürülməsindən və bunun ağır nəticələrindən bəhs olunur.

Azərbaycan xalqına, onun torpaqlarına edilmiş ədalətsizliklərin baş alıb getməsinin bir səbəbi də başımıza gətirilən bu bəlalara qarşı vaxtında tədbirlərin görülməməsi, bu bəlaların xalqdan, xüsusən Azərbaycanın gələcəyi olan nəsillərimizdən gizli saxlanılması, onlarda unutqanlıq, öz tarixinə biganəliyin uzun müddət kök salması olubdur. Bu kimi halların aradan qaldırılması xalqımıza edilən zülmlərin aşkarlanıb beynəlxalq aləmə çatdırılması baxımından ulu öndər Heydər Əliyev cənablarının verdiyi fərmanların böyük siyasi və tarixi əhəmiyyəti vardır. Belə fərmanlardan biri də “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında”kı sənəddir.

Bu fərmanda tarixdə ilk dəfə olaraq son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımızın ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalması kimi məsələlərə siyasi qiymət verilir, bu ədalətsizlik ilk dəfə olaraq aşkarlanıb xalqa və beynəlxalq ictimaiyyətə çatdırılır.

***Açar sözlər:*** *Azərbaycan, Qərbi-Azərbaycan, Mil-Muğan, deportasiya, köçürmə*

**Khazar Huseynov**
Nakhchivan State University
Doctor of Historical Sciences
xezerhuseynov@gmail.com
**Fakhriya Huseynova**
Nakhchivan city secondary school No. 10
xezerhuseynov@gmail.com
https://orcid.org/0000-0002-7874-4654

## Deportation of Azerbaijanis from Western Azerbaijan and Nakhchivan (1948-1953 years)

**Abstract**

The article is about the forced relocation of Azerbaijanis from their ancestral homelands in 1948-1953 and its serious consequences.

One of the reasons for the occurrence of injustices against the people of Azerbaijan and its lands is the failure to take timely measures against these disasters, keeping these disasters hidden from the people, especially the future generations of Azerbaijan, their forgetfulness and indifference to their own history taking root for a long time. The decrees issued by the Great Leader Heydar Aliyev have a great political and historical significance in terms of eliminating such cases, revealing the oppressions done to our people and bringing them to the international world. One of such decrees is

the document "On mass deportation of Azerbaijanis from their historical and ethnic lands in the territory of the Armenian SSR in 1948-1953".

In this decree, for the first time in history, a political assessment is given to issues such as the severe deprivations, national tragedies and hardships of our people as a result of the policy of ethnic cleansing and genocide carried out against Azerbaijanis in the Caucasus in the last two centuries.

***Keywords:*** *Azerbaijan, Western Azerbaijan, Mil-Mughan, deportation, resettlement*

## Giriş

Tarixi sənədlərdən və arxiv materiallarından məlumdur ki, XX əsrin əvvəllərindən ermənilər Azərbaycan torpaqlarını, o cümlədən Azərbaycanın tərkibi və ayrılmaz hissəsi olan Naxçıvan ərazisini işğal edib Ermənistana birləşdirmək üçün şərait axtarırdılar. Belə bir şərait İkinci Dünya müharibəsindən sonrakı illərdə yaranmışdı.

Hələ Tehran konfransının gedişində erməni diasporunun nümayəndəsi SSRİ xarici işlər naziri V. Molotova müraciət edib, İranda yaşayan ermənilərin SSRİ-yə köçürülməsinə icazə istəmişdi. V.Molotov məsələ ilə bağlı İ. Stalinlə danışdıqdan sonra onların Ermənistan SSR ərazisinə köçürülməsinə razılıq vermişdi (Azərbaycan tarixi, 2003: 148).

İkinci Dünya müharibəsindən sonra Ermənistan hökuməti və daşnak partiyası Qarabağın Ermənistana birləşməsi məsələsini qaldırmışdı. Lakin bu məsələ baş tutmadığından Ermənistan rəhbərləri öz taktikasını dəyişməli olur, xaricdən gətirilən erməniləri yerləşdirmək bəhanəsi ilə Ermənistandan olan azərbaycanlıların deportasiya edilməsinə nail olmağa çalışır (Hacıyev, 2001: 18). Onlar xaricdən gələn erməniləri yerləşdirmək üçün İ. Stalinə müraciət edirlər.

1945-ci ilin payızında Ermənistan KP MK-nın birinci katibi Q. Harutuniyan İ. Stalini inandırır ki, Ermənistandan köçürülən azərbaycanlıları Azərbaycanın pambıq yetişdirilən rayonlarında, Mil-Muğan düzənliyinə yerləşdirmək iqtisadi cəhətdən sərfəlidir.

Qeyd etmək olar ki, erməni millətçi dairələrinin xaricdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə qayıtması ilə bağlı sovet rəhbərliyinə etdiyi müraciətlər cavabsız qalmamışdı. 1946-cı il oktyabrın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti xarici ölkələrdə yaşayan ermənilərin Ermənistan SSR ərazisinə köçürülməsi ilə bağlı Fərman verdi (Azərbaycan tarixi, 2003: 148).

Beləliklə, azərbaycanlıların Ermənistan SSR ərazisindəki dədə-baba torpaqlarından qovulmasının növbəti mərhələsi başlandı.

1947-ci il dekabrın 23-də SSRİ Nazirlər Soveti "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" 4083 saylı qərar verdi. SSRİ Nazirlər Sovetinin 1948-ci il 10 mart tarixli "Ermənistan SSR-dən kolxozçuların və digər azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi ilə əlaqədar tədbirlər haqqında" 754 nömrəli qərar ilə bu işi həyata keçirmək üçün konkret tədbirlər planı müəyyən olundu (Azərbaycan tarixi, 2003: 148). Qərara görə, 100 min azərbaycanlı 1948-1950-ci illərdə "könüllülük prinsipinə əsasən" Azərbaycana köçürülməli idi. Sovet hökuməti azərbaycanlıların çıxarıldığı ərazidə xaricdən gələn ermənilərin-axbarların yerləşdirilməsinə icazə verdi (XX əsr Azərbaycan tarixi, 2009: 382).

1948-1953-cü illlərdə heç bir "könüllülük prinsipi" nəzərə alınmadan Ermənistan SSR-dən 100 mindən çox azərbaycanlı zorla Azərbaycan SSR-yə köçməyə məcbur oldu. Ermənistanın dağlıq bölgələrindən Azərbaycanın Kür-Araz vadisinə köçürülən on minlərlə əhalinin taleyi daha faciəli oldu. Onların hər üç nəfərindən biri yeni şəraitə, isti, quru iqlimə, məişət təminatsızlığına uyğunlaşa bilməyib aclıq və xəstəlikdən həlak oldu (XX əsr Azərbaycan tarixi, 2009: 382).

"1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarının 18 dekabr 1997-ci il tarixli Fərmanında qeyd edildiyi kimi, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar Ermənistan adlandırılan ərazidən min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından

didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir ("Azərbaycan" qəzeti, 1997).

Çox təəssüf ki, dünya ictimaiyyətinə ermənilərin insanlığa qarşı yönəldilmiş bu zidd, tarixi cinayət hərəkətləri haqqında məlumat kifayət qədər çox olsa da, "Daşnaksütun" partiyası və ermənipərəst mətbuatın səyləri nəticəsində ermənilərin "əzabkeş millət" obrazını yaratmışdılar.

Erməni millətçiləri və şovinistləri "Böyük Ermənistan" xülyalarını həyata keçirmək üçün tarixən beynəlxalq münasibətlərdə yaranmış hər hansı bir şəraiti özləri üçün əlverişli hesab edərək avantürist məqsədlərini reallaşdırmaq üçün bir sıra hərbi, siyasi və diplomatik addımlar atmağa başlayır, konkret fəaliyyətə girişirlər.

İkinci Dünya müharibəsindən sonra erməni millətçilərinin əsas tələbləri: 1) Türkiyəyə qarşı əvvəlki iddialarını davam etdirmək, onun şərq vilayətlərini ələ keçirmək; 2) Ermənistan SSR-in mövcud ərazisini Azərbaycan və Gürcüstan hesabına genişləndirmək; 3) Ermənistan SSR-də yaşayan yerli azərbaycanlıları oradan deportasiya etməklə onların yaşadıqları ərazilərdə xaricdə yaşayan erməniləri məskunlaşdırmaq (Mustafayev, 2013: 121).

Ermənilərin tələblərindən aydın görünür ki, Ermənistanın ərazilərini yalnız qonşu ölkələrin torpaqlarına yiyələnmək hesabına həyata keçirilməsini arzulayır və ümid edirdilər. Onların bu planlarında Naxçıvan xüsusi yer tuturdu. Bu məqsədlə onlar Qərb dövlətlərinə və başqalarına, öz mətbuat orqanlarında belə bir sərsəm ideyanı dünya ictimaiyyətinə sıramaq istəyirdilər ki, Naxçıvansız Ermənistan məhvə məhkumdur.

Saak Ztçyan daşnak publisistinin Tehranda çıxan "Alik" qəzetinin 25/26 avqust 1948-ci il tarixli (№190-191) sayında dərc edilmiş "Naxçıvan Ermənistan üçün əhəmiyyəti" adlı məqaləsi xarekterikdir. Məqalənin əvvəlində Ermənistan saçı dibinə qədər qırxılmış gəncə, Naxçıvanı isə həmin gənci boğmaq üçün kəsilmiş boğazına oxşadan müəllif bunun əsas günahını Türkiyə və Sovetlər olduğunu göstərir və iddia edir ki, 1921-ci ildə türklər Moskva-Qars müqaviləsinə görə, Naxçıvanın Azərbaycana məxsus olmasına nail olublar. Sonra isə məqalədə qeyd olunur ki, bu gün Sovet hökuməti 27 illik siyasi intriqadan sonra Türkiyə ilə münasibətlərini kəsib bu müqavilənin (1925-ci ildə bağlanmış sovet-türk müqaviləsi nəzərdə tutulur) qüvvədən düşdüyünü elan etdiyi bir zamanda Naxçıvanın Azərbaycana verildiyi razılaşmanı da ləğv etmək və onu Ermənistana qaytarmaq vaxtı çatmışdır. Müəllifə görə, bu, "Sovet İttifaqının və ermənilərin mənafeyinə uyğundur. Naxçıvan Ermənistanın tarixi və coğrafi hissəsini təşkil edir, ona qaytarılmalı olan torpaqların bir hissəsidir və İrandan öz vətənlərinə qayıdan ermənilərin yaşaması üçün ən yaxşı yer olacaqdır" (Mustafayev, 2013: 127).

SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarından ruhlanan daşnak partiyasının publisisti "Alik" qəzetində yazır: "Naxçıvan 3000 və daha çox il ərzində tarixi Ermənistanın hissəsini təşkil etmişdir. O, əski tarixi Ermənistanın beşiyidir". Bundan sonra kor bolşevik rəhbərliyini vicdanlı olmağa və buraxılmış səhvi düzəltməyə çağırırdı.

Müəllifin nəzərinə görə, Ermənistana yalnız Ararat vadisinin məhsuldar və münbit iqlimi İrəvan hissəsi məxsusdur. 25-30 ildən sonra İrəvan əhalisi çox böyük şəhərə çevrildikdən, Kəmərli, Vaqarşpat, Osakan, Astarak, Dvin, Artaşat şəhərlərinin əhalisi də artdıqdan sonra, hər kvadrat kilometrə 700-800 adam yerləşdirmək lazım gələcək və onda ermənilər bu vahədən və onun zəngin məhsullarından da məhrum olacaqlar. Buna görə də müəllif belə qənaətə gəlir ki, erməni xalqının mövcudluğu naminə Naxçıvan Ermənistana qaytarılmalıdır (Mustafayev, 2013: 128).

Məqalədə Sovet rəhbərliyindən tələb edilirdi ki, zülmətə məruz qalan erməni kəndlilərini gətirib Naxçıvan diyarında – Naxçıvanda, Qoxtanda, Ordubadda, Yeni Culfada, Şaxtaxtıda yerləşdirməli və Ermənistan ilə yenidən birləşdirilməlidir.

"Alik" qəzetinin 1949-cu il 25, 27 yanvar tarixli nömrələrində daşnak S. Vratsyan Ermənistan katalikosu Georqa müraciətində Sovet hakimiyyətinin erməni xalqına, onun ərazi iddialarına, xüsusən Naxçıvan və Dağlıq Qarabağ məsələlərinə münasibətini kəskin tənqid edirdi.

Öz müraciətində daşnak lideri Naxçıvanla yanaşı, Dağlıq Qarabağı, Axalkalaki və s. torpaqların da adı çəkilir və Sovet hakimiyyətindən ədalətli mühakiməni yerinə yetirmək tələb edilirdi (Mustafayev, 2013: 129).

İrəvan sakini Ervand Mesropyan: Azərbaycanlıları təkcə Ermənistandan deyil, eləcə də Naxçıvan MSSR-dən də köçürmək və onu Ermənistanın ərazisinə birləşdirmək lazımdır. Fransadan gəlmiş, keçmişdə daşnak xtbapeti olmuş Smbat adlı birisi isə bəyan edirdi ki, vaxtilə daşnaklar Naxçıvan MSSR-in Ermənistana birləşdirmə məsələsini qoymuşdular, ancaq bir şey çıxmamışdı. İndi isə bu məsələni qaldırmağın vaxtı çatıb, çünki Ermənistanda torpaq azdır. Bu faktlar sübut edir ki, erməni kommunistləri və daşnaklar azərbaycanlıların deportasiyası ilə kifayətlənməyərək eyni zamanda Naxçıvanı ələ keçirməyi, necə deyərlər, "bir güllə ilə iki dovşan vurmağı" istəyirlər (Mustafayev, 2013: 135).

Ermənilər və onların beynəlxalq havadarları bütün tarix boyu Naxçıvanı ələ keçirmək üçün nələr etmişlər, hansı fitnə-fəsadlara əl atmışlar?! Bu məqsədlə nə qədər hücumlar edilmiş, onlarla kənd və qəsəbələrimiz yandırılıb xarabazarlığa çevrilmişdir. Bircə faktı Dərələyəz mahalının timsalında xatırladaq. Hələ 1988-ci ilə qədərki dövrdə müxtəlif vaxtlarda ermənilər bu mahalın azərbaycanlılar yaşayan Cül, Məmmədrza, Arınc, Bulaqlar, Qaravəng, Ərgəz, Novlu, Kolanlı, Gendərə, Göyabbas, Qayalı, Çaykənd və s. kəndlərini dağıtmış, əhalisinə amansız divan tutmuşlar. Nə qədər vətəndaşlarımızı qırmış, öz doğma yurdlarından didərgin salmışlar. Əleyhdarlarımızın bizə bu qədər divan tutması, ərazimizi işğal etməsi, yüz minlərlə vətəndaşlarımızı öz tarixi yerlərimizdən qovmaları bəs deyilmi?! Buradan dərs alıb nəticə çıxarmalıyıq (Şahverdiyev, 2001: 39).

Dərələyəz mahalında mövcud olan acınacaqlı vəziyyət Ermənistan SSR-nin digər bölgələrində də hökm sürür, insanların mənəviyyatı alçaldılır və təhqir olunurdu. Qərbi Azərbaycanda (indiki Ermənistanda) yaşayan azərbaycanlılar əmin idilər ki, gec-tez onların hamısı öz yerlərindən deportasiya olunub qovulacaqlar. Buna görə onlar SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları gözləmədən köçmək qərarına gəlmiş, əlverişli şəraiti olan və iqlimi əvvəl yaşadıqları regiona uyğun gələn yerlərə köçməyə başladılar. Belə əlverişli region Dağlıq Qarabağ və Naxçıvan idi.

Ermənilərin müxtəlif yerlərdən Azərbaycana doğru istiqamətlənən, hər dəfə azərbaycanlıların qədim yurdlarından, dədə-baba ocaqlarından didərgin salınması ilə nəticələnən qaçqınların hamısında Naxçıvan da keçid yeri olub. Göyçə mahalından, Gümrü elindən, Vedibasardan, Dərələyəzdən, Zəngəzurdan, Mehri dərəsindən köç edənlərin böyük əksəriyyəti ilk növbədə bura üz tutublar. Naxçıvan Ermənistan yaylası ilə böyük Azərbaycan arasında körpüyə dönüb (Hacıyev, 2001: 20).

1948-1953-cü illər deportasiyasında da Naxçıvan həm keçid yeri vəzifəsini yerinə yetirmiş, həm də zorla köçürülənlərə öz qoynunda yer vermişdi. Qanunla Naxçıvana köçürülmə nəzərdə tutulmasa da, aldadılan kəndlilər Naxçıvana pənah gətirmişlər. Həmin dövrdə rəsmi cədvəl üzrə köçürülənlərdən, qeydiyyata alınan əhalidən başqa xeyli əhali də özbaşına Azərbaycanın müxtəlif rayonlarına köçmüşdür (Hacıyev, 2001: 20).

Azərbaycanlıların Ermənistandan kütləvi surətdə, plandan kənar, kortəbii şəkildə köçürülməsi barədə ilk məlumatlar 1948-ci ilin əvvəllərində daxil olmağa başladı. Onların köçdükləri bölgələr arasında Naxçıvan MSSR də var idi.

1948-1953-cü illərdə Ermənistandakı azərbaycanlılar Azərbaycan hökumətinə, Naxçıvan rəhbərliyinə müraciət edərək xahiş edirlər ki, onların Naxçıvan MSSR-da yerləşdirilməsinə köməklik göstərsinlər.

Zəngibasar rayonunun Elyas kəndinin 220 nəfər kolxoz üzvü Naxçıvan MSSR-nin indiki Şərur rayonunun Şəngiley ərazisinə və Dərəkənd kəndinə 150 təsərrüfatın köçməsini xahiş edirlər. Naxçıvan Vilayət Komitəsinin katibi Y. Yusifov AK(b)P MK qarşısında məsələ qaldırır ki, həmin təsərrüfatların və əlavə 150 təsərrüfatın da (cəmi 300 təsərrüfat) Noraşen rayonunda yerləşdirilməsinə icazə verilsin (Paşayev, 1995: 30).

1949-cu ilin sentyabrında Sisyan rayonunun Şəki kəndinin kolxozçuları da Azərbaycan SSR Nazirlər Sovetinə göndərdikləri ərizədə onlara Şahbuz rayonuna köçməyə icazə verilməsini xahiş edirlər (Paşayev, 1995: 30).

Vedi rayonunun Qaralar və Şıxlar kəndlilərinin kolxozçuları da Naxçıvan rəhbərliyinə müraciət edirlər. Noraşen rayonunda daimi yaşamağa icazə verilməsini xahiş etmişdilər.

Azərbaycan SSR Nazirlər Sovetinin sədri T. Quliyevin tapşırığı əsasında Naxçıvan rəhbərliyi Ermənistan SSR-dən köçən azərbaycanlı kolxozçuları qəbul etməyə hazır olan muxtar respublika kolxozlarının siyahısını hazırlayaraq Azərbaycanın müvafiq orqanlarına göndərmişdir. Bütövlükdə muxtar respublika 733 təsərrüfat, o cümlədən Noraşen rayonu 23, Naxçıvan rayonu 164, Ordubad rayonu 125, Əbrəqunis rayonu 175, Şahbuz rayonu 95 təsərrüfat qəbul etməyə hazır idi. Bu ailələr üçün yerlərdə yaşayış binaları da ayrılmışdır.

Lakin Azərbaycan rəhbərliyi köçürülmə nəzərdə tutulmayan bütün digər rayonlara olduğu kimi, Naxçıvana da kortəbii köçməyə icazə vermirdi. Əks halda köçürmə haqqında Moskvanın plan və qrafiklərini pozduğuna görə Mərkəzin qəzəbinə tuş gələ bilərdi (Mustafayev, 2013: 136-137).

1948-ci ilin əvvəllərindən bütün rayon partiya komitələri katiblərinə və icraiyyə komitələri sədirlərinə “tam məxfidir” qirifi ilə M. C. Bağırovun və T. Quliyevin imzası ilə direktiv məktub göndərilmişdi. Məktubda ayrı-ayrı şəxslərin və ailələrin Ermənistandan özbaşına köçərək rayonlarda yerləşdiyi, bu cür qeyri-mütəşəkkil köçürülmənin Ermənistandan köçürülən adamların Kür-Araz ovalığı rayonlarında yerləşdirilməsini nəzərdə tutan hökumət tədbirlərini pozmaq təhlükəsi yaratdığı qeyd olunur və rayon rəhbərliyindən özbaşına köçüb gəlmiş ailələr haqqında məlumat tələb olunurdu. Məktubda həmçinin Ermənistandan özbaşına gələn ailələrin köçürülməsinə yol verilməsi tapşırıldı.

Kortəbii miqrasiyanın artmasının qarşısını almaq üçün Azərbaycan hökuməti bir sra tədbirlərə əl atır, inzibati metodlardan istifadə edir. Onlar qeydiyyata alınmır, işə götürülmür, köçürülmələrə aid güzəştlərdən imtina edilirdi və s.

Azərbaycan hökumətinin rayonların icraiyyə komitələrinin sədrlərinə göndərdiyi 29 sentyabr 1948-ci il tarixli gizli məktubda qeyd olunurdu ki, Azərbaycan SSR Nazirlər Sovetinin xəbərdarlığına baxmayaraq, son zamanlar mütəşəkkil qaydada köçürülməsi nəzərdə tutulmuş kolxozçuların və digər azərbaycanlı əhalinin sizin rayonunuz üzrə özbaşına yerləşdirilməsi halları artmışdır. Bundan sonra Ermənistandan gəlmiş, köçmə bileti olmayan şəxsləri Azərbaycan SSR Nazirlər Soveti yanında köçürmə idarələrinin xəbəri olmadan sizin rayonunuzda yerləşdirilməsinə son qoyması tələb olunurdu (Mustafayev, 2013: 138).

Deportasiya olunan azərbaycanlıların məskunlaşmasına qadağa qoyulan rayonlar arasında Naxçıvan MSSR rayonları da var idi. Ona görə də onların burada yaşamaq üçün etdikləri müraciətlərə rədd cavabı verilirdi. Məsələn, Köçürmə idarələrinin rəisi Allahverdiyevin Azərbaycan SSR Nazirlər Sovetinin sədrinin müavini Y. Abdullayevə 29 aprel 1949-cu il tarixli məktubunda Vedi rayonunun yuxarıda adları çəkilən Qaralar və Şıxlar kəndlərinin 1949-cu il köçürülmə planına daxil edilmədiyi üçün onların harasa köçürülməsini qeyri-mümkün hesab edildiyini bildirirdi. Məktubda açıq-aşkar qeyd olunurdu ki, köçürülmə üçün imkanlar olsaydı da, həmin kolxozçuların Naxçıvan MSSR-ə köçürülməsi haqqında xahişlərini təmin etmək mümkün olmadı, çünki “Naxçıvan Kür-Araz ovalığına daxil deyil”.

Naxçıvana köçmə arzusu bəlli olandan sonra erməni hakimiyyət orqanları onların bu arzularının reallaşmasına imkan verməyərək, həmin rayonların hətta 1949-cu il planına daxil edilməsinə nail oldular. Bu kənd təsərrüfatı işlərində işçi qüvvələrinin çatışmazlığı ilə əsaslandırılsa da, əslində, əsas məsələ azərbaycanlı əhalinin Naxçıvanda sayının daha da artmasına imkan verməmək, bu bölgəni ilhaq etmək məqsədi güdən daşnak siyasətini gələcəkdə həyata keçirmək idi (Mustafayev, 2013: 138).

Məhz bu məqsədlə də ermənilərin səyi nəticəsində Azərbaycan hökuməti 1949-cu ilin sentyabrında yuxarıda göstərilən səbəbləri bəhanə gətirib, Sisyan rayonunun Şəki kolxozunun əhalisinin Naxçıvan MSSR Şahbuz rayonuna köçürülməsinə icazə verməmişdi (Mustafayev, 2013: 138-139).

1950-ci ilin fevralında respublika Köçürmə idarəsi Naxçıvan Vilayət komitəsi və Nazirlər Sovetinin 1950-ci ilin yazında 500 təsərrüfatın Ermənistan SSR-dən Noraşen rayonuna köçürülməsinə icazə vermək barədəki xahişinə cavab olaraq bildirilirdi ki, hazırda rəsmən yalnız Kür-Araz ovalığına köçürmədən danışılmasına baxmayaraq, Naxçıvan MSSR Ermənistan SSR-in Qarabağlar, Vedi, Artaşat rayonlarından özbaşına gələn azərbaycanlı əhalini qəbul edir. Onların arasında Kür-Araz ovalığına köçürmə bileti olanlar da vardır. Köçürmə idarəsi Naxçıvan MSSR rəhbərliyini xəbərdar edir ki, gələcəkdə bu cür hallara yol verilməsin (Hacıyev, 2001: 20). Bütün repressiya qaydalarına, göstərişlərə baxmayaraq, Ermənistandan qovulan azərbaycanlı əhalinin bir hissəsi Naxçıvanda məskunlaşmağa nail olmuşdu. Bunun başlıca səbəbləri Naxçıvanın Ermənistanın azərbaycanlılar yaşayan rayonları ilə yaxınlığı, nəqliyyat əlaqələrinin sıx olması, oxşar təbii şərait, qohumluq əlaqələrinin mövcudluğu, Naxçıvan əhalisinin və rəhbərliyinin deportasiya olunan həmvətənlərinə isti və qayğıkeş münasibəti idi. Naxçıvan MSSR-də Köçürmə idarəsi olmadığına görə, Naxçıvanda məskunlaşan köçkünlər haqqında statistik məlumatlar və sənədlər yoxdur. Buna baxmayaraq, şahid ifadələri, şifahi sorğular, bəzi yazılı mənbələr göstərir ki, hazırda Naxçıvan MR-da yaşayan əhali arasında 1948-1956-cı illərdə və sonrakı dövrdə deportasiyaya məruz qalmış insanlar və onların övladları kifayət qədərdir.

1948-1956-cı illərdə Ermənistandan Naxçıvan MSSR ərazisinə köçüb gələn əhali muxtar respublikanın Əliabad, Nəzərəbad, Didivar, Məzrə, Yuxarı Uzunoba, Zeynəddin, Şıxmahmud, Xəlilli, Qaraxanbəy, Qaraçuq, Kültəpə, Naxçıvan və onun rayonlarında, xüsusilə Şərurda məskunlaşmışdılar (“Azərbaycan” qəzeti, 11 iyul 1997).

1948-1953-cü deportasiya illərində ermənilərin zülmündən yüzlərlə azərbaycanlı ailəsi Naxçıvan MSSR ərazisinə gəlmiş və burada məskunlaşmışdılar.

Erməni millətçiləri Qərbi Azərbaycandan deportasiya olunmuş əhalinin Naxçıvana gəlməsini istəmirdilər ki, burada əhali sıxlığı yaranacaq. Azərbaycanlıların sayı Naxçıvanda çoxala bilər. Naxçıvanın Ermənistana birləşdirilməsi və erməniləşdirilməsi strateji planlarına əngəl ola bilər.

Məhz bu məqsədlə erməni daşnak rəhbərliyi Ermənistandan deportasiya olunan azərbaycanlıların Naxçıvanda yerləşdirilməsinə imkan vermirdilər. Buna baxmayaraq, 1948-1956-cı illərdə zorla deportasiya olunan azərbaycanlıların Naxçıvanda məskunlaşması prosesi davam etmişdi.

Azərbaycanlılara qarşı ermənilərin məqsədyönlü şəkildə həyata keçirdiyi etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və zorakılığa məruz qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi, “təssüf ki, 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindən deportasiya olunması faktı 50 il ərzində lazımınca araşdırılmamış, bu hadisəyə hüquqi qiymət verilməmişdir” (Əliyev, 2001: 3).

Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli fərmanı xalqımıza qarşı yönəldilmiş tarixi ədalətsizliklərin aradan qaldırılması sahəsində atılan zəruri addımlardan biridir.

Ulu öndər Heydər Əliyev bu fərmanı ilə xalqımızın öz tarixi etnik torpaqlarından deportasiyasına – soyqırımına siyasi status vermiş, bu tarixi cinayətə hüquqi-siyasi qiymət verilməsini, onun haqqında həqiqətlərin beynəlxalq miqyasda yayılmasını zəruri hesab etmişdir.

## Nəticə

Ümumiyyətlə, Qərbi Azərbaycan ərazisindən boşaldılmış torpaqların geri qaytarılması, doğma ellərdən deportasiya edilmiş azərbaycanlıların öz yerlərinə qaytarılması uğrunda mübarizə aparmaq, buna nail olmaq bizim qeyrət və vətəndaşlıq borcumuzdur. Əks təqdirdə, ulu babalarımız bizi heç vaxt bağışlamayacaqlar.

## Ədəbiyyat

1. Azərbaycan tarixi. (2003). Yeddi cilddə, VII cild. Bakı: Elm, s. 148.
2. Hacıyev, İ. (2001). 1948-1953-cü illərin deportasiyası və Naxçıvan. NDU-nun “Elmi Əsərləri” (xüsusi buraxılış), № 8. Naxçıvan: “Qeyrət” nəşriyyatı, s. 18-21.

3. XX əsr Azərbaycan tarixi. (2009). II cild. Ali məktəblər üçün dərslik. Bakı: Təhsil, 560 s.
4. "Azərbaycan" qəzeti. (19 dekabr 1997).
5. Mustafayev, A. (2013). Ermənistanın soyqırım və deportasiya siyasətində Naxçıvan. Bakı: ADPU-nun nəşriyyatı, 194 s.
6. Şahverdiyev, Z. (2001). 1948-1953-cü illər deportasiyasının əsas məqsədi və acı nəticələr. NDU-nun "Elmi Əsərləri" (xüsusi buraxılış), № 8. Naxçıvan: "Qeyrət" nəşriyyatı, s. 38-41.
7. Paşayev, A. (1995). Köçürülmə. Bakı: "Azərbaycan" nəşriyyatı.
8. "Azərbaycan" qəzeti. (11 iyul 1997).
9. Əliyev, H. (2001). 1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında Fərmanı. NDU-nun "Elmi Əsərləri" (xüsusi buraxılış), № 8. Naxçıvan: "Qeyrət" nəşriyyatı, s. 3-4.

Göndərilib: 08.05.2024 Qəbul edilib: 10.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/14-20

**Mihriban Tuztash**
Kirikkale University
master student
mihriban.tuztas@gmail.com
**Sezer Yilmaz**
Kirikkale University
Associate Professor
sezylmz@outlook.com

# PEER BULLYING AMONG SYRIAN CHILDREN UNDER TEMPORARY PROTECTION: THE LANGUAGE ELEMENT

**Abstract**

Migration has existed since ancient times and continues to this day. Since Turkey is a strategic and border country, it serves as a bridge to our country and other countries. Approximately more than one million of the Syrian refugee children under temporary protection who had to leave their home country and took refuge in our country are of school age. Starting school before learning the language of the country they immigrate to can cause various problems. It is seen that the language factor is one of the most common problems that cause peer bullying among Syrian refugee children. In this study, the language problems experienced by Syrian refugee students whose native language is Arabic during the language acquisition process were determined, the similarities and differences of the Arabic-Turkish language pair were emphasized, and opinions and solution suggestions regarding these problems were presented. For Syrian refugee students whose native language is Arabic, although there are similarities between both languages, differences in cultural and grammatical structure lead to various difficulties in learning. As a result of the research, it was determined that the main problems arising from the differences in languages stem from issues such as alphabet, pronunciation, sound and grammar rules, and various solution suggestions are offered.

***Keywords:*** *immigration, temporary protection, peer bullying, language problem, Turkish, Arabic*

**Mihriban Tuztaş**
Kırıkkale Universiteti
magistrant
mihriban.tuztas@gmail.com
**Sezer Yılmaz**
Kırıkkale Universiteti
Associate Professor
sezylmz@outlook.com

# Suriyalı uşaqların müvəqqəti qorunması altında olan həmyaşıdların zorakılığı: dil elementi

**Xülasə**

Miqrasiya qədim zamanlardan mövcud olub və bu gün də davam edir. Türkiyə strateji və sərhəd ölkəsi olduğu üçün ölkəmizə və digər ölkələrə körpü rolunu oynayır. Vətənini tərk etmək məcburiyyətində qalan və ölkəmizə sığınan müvəqqəti qoruma altında olan suriyalı qaçqın uşaqların təxminən bir milyondan çoxu məktəb yaşındadır. Mühacirət etdikləri ölkənin dilini öyrənməmiş məktəbə başlamaları müxtəlif problemlər yarada bilər. Suriyalı qaçqın uşaqlar arasında həmyaşıd zorakılığına səbəb olan ən çox rast gəlinən problemlərdən biri də dil faktoru olduğu görülür. Bu araşdırmada ana dili ərəb dili olan suriyalı qaçqın tələbələrin dil mənimsəmə prosesində yaşadıqları

dil problemləri müəyyən edilmiş, ərəb-türk dil cütlüyünün oxşar və fərqli cəhətləri vurğulanmış, bu problemlərlə bağlı fikirlər və həll təklifləri təqdim edilmişdir. Ana dili ərəb dili olan suriyalı qaçqın tələbələr üçün hər iki dil arasında oxşarlıq olsa da, mədəni və qrammatik quruluşdakı fərqlər öyrənmədə müxtəlif çətinliklərə səbəb olur. Tədqiqat nəticəsində müəyyən edilib ki, dillərdəki fərqlərdən irəli gələn əsas problemlərin əlifba, tələffüz, səs və qrammatika qaydaları kimi məsələlərdən qaynaqlanır və müxtəlif həll yolları təklif edilir.

***Açar sözlər:*** *immiqrasiya, müvəqqəti müdafiə, həmyaşıdların zorakılığı, dil problemi, türk dili, ərəb dili*

## Introduction

The phenomenon of migration, which is as old as human history, continues to be a phenomenon that still affects societies today, along with globalization. Migrations are an important phenomenon that opens an era and closes another. It plays an effective role in the establishment and destruction of civilizations. The phenomenon of migration continues to exist with changing factors from human history until today. As for the definition of the concept of migration; “Migration is the geographical displacement movement of human communities by settling from one settlement unit to another in order to spend all or part of their lives due to religious, economic, political, social and other reasons” (Akkayan, 1979: 21). According to another definition, migration; It is defined as "the act of individuals or groups moving from one country to another, from one settlement to another, for economic, social or political reasons, moving, migration, migration". From ancient times to the present day, people have left their homelands behind and migrated to other countries they have never known. The main factors that cause them to go to other countries are; There have been many reasons that harm human dignity, such as drought, war, famine, security problems, military coups, violation of human rights, and economic difficulties (Gurbuzer, 2021: 1). Based on this, it can be said that in Aghir and Sezik's statements, factors such as people living a more comfortable life, access to natural resources and climate play a role in the factors that cause migration (Aghir & Sezik, 2015: 95). As seen in the definitions of migration, the fact that many factors that have continued since human history and can cause migration still exist today indicates that they may have the potential to continue in the future.

The history of immigration in our country dates back to ancient times. Turkey has experienced centuries-long migration activity due to its geographical and strategic location. It has hosted many societies and civilizations and has been a frequent destination of these societies. Turkey internal migration and external migration; labor migrations, refugee and asylum seeker migrations, seasonal migrations and war-related migrations, etc. lived (Unal, 2008: 3). According to Altintash, Turkey is in the middle of the migration wave between countries due to its location and the political and economic problems experienced in the border regions, and plays an important role by acting as a bridge on the transition route between countries. Although Turkey, which is a logistics country for refugees, appears to be a temporary stopping place, it is also seen that there is a permanent refugee population (Altintash, 2014: 254).

As a matter of fact, as Imamoghlu and Chalıshkan stated, Turkey has been a country that has encountered waves of forced mass migration and become the target of irregular migration (Imamoghlu & Chalıshkan, 2017: 531). When we look at the mass migration wave in our country, it is seen that people migrate from neighboring countries with regular or collective asylum requests in accordance with international agreements. When the data of the United Nations High Commissioner for Refugees (UNHCR) is examined, it is seen that there has been a high increase in the number of people seeking asylum in recent years (7).

As of 2024, Syrian citizens whose number exceeds 3 million have requested asylum in our country under temporary protection. As of January 2024, of the total 3,194,185 registered Syrians, 1,667,639 are male and 1,526,546 are female. When the statistics of the General Directorate of Migration Management are examined, the approximate population rate of Syrian children between

the ages of 0-18 is 1,147,391 million. At this point, a significant portion of the population, corresponding to almost one-third, consists of school-age children (DGMM, 2024).

**Syrian Students Under Temporary Protection and Their Integration**

"Temporary protection is a form of protection developed to find urgent solutions in mass influx events. "It is a practical and complementary solution that can be applied to people who arrive at the country's borders in masses within the framework of states' non-refoulement obligations, without wasting time with individual status determination procedures" (GIGM, 2024). The legal basis for Syrian refugees to gain temporary status was created by the Law on Foreigners and International Protection (YUKK) No. 6458, which came into force in 2014.

According to the General Directorate of Migration Management; "It is a voluntary-based policy that aims to contribute to the socio-cultural and economic development of both the foreigner and the host society, is not assimilationist, aims to ensure that the host society adapts to immigrants and that foreigners realize their talents in all areas of life, including economic, social and cultural areas." (GIGM, 2024). In this context, for harmony; It can be said as individuals with different cultures and social backgrounds realizing themselves in a new environment and adapting to society and culture. When this process is viewed from the perspective of Syrian students; This can occur depending on factors such as the development of the child's language and communication skills, establishing new friendships, interacting with the local society, and understanding and accepting cultural differences.

According to the statistics given, the number of school-age Syrian children who have taken refuge in our country under temporary protection is approximately 1,147,397 million. All school-age children have the right to education, regardless of the reason. As a matter of fact, as Gurban stated, the importance of Syrian refugee children's right to education should be emphasized and they should participate in the education system of the host society (Gurban, 2021: 1085). In this context, it is seen that their quick adaptation to the host society depends on education.

Syrian refugee students, numbering in the hundreds of thousands, naturally experience the most language problems. In addition, these students also have socio-cultural and economic problems other than education (Imamoghlu & Chalıshkan 2017: 532). Educational process of Syrian refugee students; It is full of challenges such as adjusting to a new country, dealing with language barriers and understanding cultural differences. Therefore, these students are often offered language support programs and orientation programs. Although language support programs are offered for children, the alphabet, sentence structure and grammar of the Arabic and Turkish language pair, etc. The differences in the rules create difficulties in learning Turkish. It is seen that this situation negatively affects Syrian refugee children, especially in their classes. Refugee children with incomplete language acquisition experience problems such as reading, writing, not being able to understand lessons, not being able to pronounce letters and words, not being able to communicate well with their friends, and cultural differences, and these problems may cause peer bullying among students. This situation causes refugee children to adapt to society later and become reluctant to go to school.

Peer bullying is an imbalance of power between school-age children; It is a type of violence that includes repetitive behaviors such as name-calling, mocking, insulting and threatening, excluding each other and causing physical harm. It emerged in scientific sources in the 1970s with the studies of Dan Olweus. It is possible to encounter this situation in many countries today. The frequency with which a school- age child is exposed to this condition varies depending on age, gender, region and country (Sipahi & Karababa 2017: 223). This can leave various and negative traces on the future lives of children who are exposed to bullying. It is seen that peer bullying is very common in our country, both in Turkish children and Syrian refugee children. According to Tamer; Syrian refugee children in the education system in Turkey face many different problems throughout their education and training processes, starting from their enrollment in school, communication problems due to Syrian children not knowing enough Turkish, public schools other than Temporary Education Centers not having a curriculum suitable for Syrian students, local schools, etc. The main problems are that students and their parents do not want Syrian children to enroll in school and that teachers

are inadequate in the face of this bullying and negative attitudes (Tamer, 2017: 125-126). As mentioned above, the communication problem caused by not knowing Turkish is seen as one of the main problems. Language is a means of communication, and adapting quickly to a society requires learning the language of that society.

Language is one of the cornerstones of human communication. It is not just a combination of words and sentences, but also an expression of emotions, thoughts and cultural heritage. It goes beyond being a mere tool of intellectual and social explanation and opens the door to a deep philosophical field shaped and influenced by humanity (Almawas, 2022: 383). Language reflects the identity of a society and enables people to interact with each other. Thanks to language, it is possible for people to exchange feelings, thoughts and information, to understand each other and to build a common meaning. For this reason, language is one of the most important tools of humanity, and each language symbolizes the richness and diversity in the world with its own unique features. Language, consisting of letters and symbols, is seen as a means of communication. Each letter or symbol represents a sound, and these sounds come together to form meaningful words. By combining these words, meaningful sentences can be communicated. Humanity has been paying attention to the language it speaks for many years; It strives to establish healthy communication and to transmit and teach it from generation to generation. They attach importance to learning and teaching both their own language and a foreign language in order to communicate with people who speak different languages. It seems that language has a great impact on integrating into a new culture and achieving academic success. The problems that immigrant children experience in learning the language of the host society are the main reasons for educational problems. As a matter of fact, as stated by Yilmaz, it seems that the language acquisition of immigrant children in adapting to our society depends on the children's success in classes. Lack of participation in classes and lack of access to resources due to the language barrier cause them to fail in exams, but it is observed that immigrant children who have learned the language of the host society are successful in their classes and adapt to the environment more quickly (Yilmaz, 2023: 3). In this context, immigrants need to adapt to the language and culture of the host society in order to integrate more quickly into the countries they come from.

Folklor və yazılı ədəbiyyat məsələləri on doqquzuncu yüzillikdən bu yana müxtəlif səviyyələrdə elmi-nəzəri fikrin maraq dairəsində olmuşdur. Klassik ədəbiyyatın görkəmli nümayəndələrinin yaradıcılığı haqqında söylənən fikir və mülahizələr bunun göstəricisidir və həmişə də təhlillərdə artan tendensiya ilə özünü göstərmişdir. X. Şirvaninin, N. Gəncəvinin, M. Gəncəvinin, A.Ərdəbilinin, M. Əvhədinin, Ə. Təbrizinin, Q. Bürhanəddinin, Ş. İ. Xətainin, M. Füzulinin, M. V. Vidadinin, Q. Zakirin, Ə. Nəbatinin, C. Məmmədquluzadənin, M. Ə. Sabirin, S. Vurğunun, O.Sarıvəllinin, H. Arifin və onlarla digər sənətkarların yaradıcılığı folklor və yazılı ədəbiyyat kontekstində araşdırılmış və bir-birindən maraqlı mülahizələr yürüdülmüşdür. R. Əfəndizadənin uşaqlar üçün yazdığı şeirlər də bu baxımından əsaslı faktura ilə diqqət önünə gəlir və müxtəlif aspektli təhlillərin aparılmasını zəruriləşdirir.

M. F. Axundov ədəbi məktəbinin davamçısı kimi təsəvvür sərgiləyən sənətkarın ədəbi irsi və elmi-pedaqoji fəaliyyəti XIX əsrin sonu XX əsrin əvvəllərinin zənginliyinə köklənməklə etnik özünüifadənin müəyyənlik axarında əsaslı təsəvvürlərə bağlanır. Onun poetik irsi, nəsri, dramaturgiyası bütün mahiyyəti ilə dövrün problemlərinin həllinə köklənmək baxımından tərbiyəvi məzmunu ilə bir əvəzsizlik sərgiləyir.

***Açar sözlər:*** *folklor, yazılı ədəbiyyat, uşaq şeirləri, təmsil, lətifə, nağıl, məsəl, rəvayət*

**Shohrat Mammadova**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
sohret.nesirova24@gmail.com
https://orcid.org/0009-0006-6553-6385

## Rashid Bey Efendizade and folklore

**Abstract**

The issues of folklore and written literature have been in the sphere of interest of scientific-theoretical thought at various levels since the nineteenth century. The opinions and judgments expressed about the creativity of prominent representatives of classical literature are an indicator of this and have always shown themselves with an increasing trend in the analyses. H. Shirvani, N.Ganjavi, M. Ganjavi, A. Ardabili, M. Avhadi, A. Tabrizi, G. Burhaneddin, S. I. Khatai, M. Fuzuli, M. V. Vidadi, G. Zakir, A. Nabati, C. Mammadguluzade, M. A. Sabir, S. Vurgun, O. Sarivalli, H.Arif and dozens of other artists were examined in the context of folklore and written literature and interesting considerations were made. Poems written by R. Efendizadeh for children also come to the fore with their basic texture and require various aspects of analysis.

As a follower of M. F. Akhundov's literary school, the literary heritage and scientific-pedagogical activity of the artist is rooted in the riches of the late 19th and early 20th centuries and is connected to fundamental ideas in the course of ethnic self-expression. His poetic heritage, prose, and dramaturgy are irreplaceable with their educational content in terms of being rooted in solving the problems of the time.

***Keywords:*** *folklore, written literature, children's poetry, fable, anecdote, fairy tale, parable, narrative*

## Giriş

Məktəb, dərslik, tədris problemlərinin on doqquzuncu yüzillikdə dinamikası yeni tipli məktəblər səviyyəsində canlanma ilə özünü göstərir. Rus imperiyasının işğalçılıq məfkurəsi bütünlükdə ictimai-siyasi, ədəbi-mədəni mühitdə canlanmalar üçün əsas oldu. Əsrin ilk onilliklərindən başlayan mücadilə xalq nəğmələrinin, rəvayətlərin, əhvalatların geniş coğrafiyaya yayılması və bu istiqamətdə ziyalı mühitinin fəaliyyəti müstəvisində ciddi mücadilələr üçün başlanğıc funksiyasını yerinə yetirdi.

Maarifçilik hərəkatı bunun parlaq örnəyi olaraq ortaya çıxır. Gənc nəslin formalaşdırması, milli düşüncənin oyanışı aspektində hərəkətliliyə əsas olan tendensiyalı yanaşmalar uşaq ədəbiyyatının canlanmasını qaçılmaz etdi. Şuşada (1830), Şəkidə (1831), Bakıda (1832), Gəncədə (1833) yaranan yeni tipli məktəblər bir neçə il sonra Şamaxıda və Naxçıvanda təkrarlanmalarla çoxalan mənzərəni sərgiləyir (Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı, 2002).

Məsələ təkcə bununla da bitmədi, eyni zamanda dərslik məsələsi ilə əlaqədar gərəkli işlər görülməyə başladı. H. Zərdabi, C. Ünsizadə, H. Qaradaği, S. Ə. Şirvani, A. O. Çernyayevski, S.Vəlibəyov, R. Əfəndiyev, M. T. Sidqi, A. Səhhət və s. kimi ziyalılar öz fəaliyyətləri ilə problemlərin həllinə yönəlik işlərə rəvac verdilər. S. Ə. Şirvaninin “Rəbiül-ətfal” (1978), “Tacül-kütüb” (1883) dərslikləri sırf reallığın zərurəti olaraq ortaya çıxdı. Bu dərsliklər öz səhifələrində uşaq ədəbiyyatının bir-birindən maraqlı və yadda qalan nümunələrinə xüsusi həssaslıq nümayiş etdirməklə diqqət önünə gəlir.

Rəşid bəy Əfəndizadə pedaqoji fəaliyyəti və uşaqlar üçün yazdığı çeşidli örnəklərlə ədəbiyyat və mədəniyyət tarixinə öz izini qoymuşdur. “Durna”, “Gap”, “Vəsfi-bahar”, “Məktəbə dəvət”, “Vəsfi-payız”, “Ay qurd”, “Qaz və durna”, “Vəsfi-qış”, “Kirpi və dovşan”, “Xəyal”, “Bahar”, “Payız fəslində”, “Təbiət-torpaq”, “Bahariyyat” və s. nümunələr görkəmli sənətkarın bu və ya digər dərəcədə müəllimlik fəaliyyətinə və dərslik yaratmaq sahəsində ehtiyacların aradan qaldırılmasına bağlanır. “Uşaq bağçası” və “Bəsirətül-ətfal” dərsliklərində yer almış bu nümunələr on doqquzuncu əsrin sonu, iyirminci yüzilliyin əvvəllərində gedən ədəbi prosesi, uşaq ədəbiyyatı yaratmaq işinin kutsallığını sərgiləyir (Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1988). “Ümumiyyətlə, XIX əsrin sonu və XX əsrin əvvəlləri uşaq ədəbiyyatının inkişafında xüsusi mərhələdir. Bunu bir istiqamətdə cəmiyyətin ehtiyacları və tarixi şəraitin zərurəti, təhsil, məktəb, əlifba, qadın təhsili və s. problemlərin mövcudluğu və həllini zərurətə çevirən tarixi reallıqla əlaqələndirmək gərəyi ortaya çıxır. S. Ə. Şirvani, H. Zərdabi, S. M. Qənizadə, M. Mahmudbəyov, A. Səhhət, A. Şaiq, M. Hadi və s. kimi ziyalıların gördüyü gərəkli işlər bunun nümunəsidir. Məsələn, S. Ə. Şirvaninin “Rəbiül-ətfal” (1878), A. O. Çernyayevski və S. Vəlibəyovun “Vətən dili” (1882, 1888), R. Əfəndiyevin “Uşaq bağçası” (1898), “Bəsirətül-ətfal” (1901), M. Ə. Növrəsin “Pəndi-ətfal” (1900), H.Zərdabinin “Türk nəğmələrinin məcmusu” (1900), M. S. Seyidov Şirvaninin “Kitabi-xəzainül ətfal” (1902) kitabları işin dönməzliyindən xəbər verirdi” (İsmayılova, 2012: 46). Sırf reallığa bağlanan bu proses bütün məzmunu ilə uşaq ədəbiyyatı yaratmaq işində mahiyyətin açılmasına və xalq ədəbiyyatından bəhrələnmənin ümumi mənzərəsinə bağlanır. Dövrün ümumi ədəbi-mədəni aurasını təhlilə gətirən tədqiqatçılar ayrı-ayrı sənətkarlar səviyyəsində problemin mahiyyətinin açılışına həssaslıq nümayiş etdirmişlər. Ə. Mirəhmədov, M. Məmmədov, Ə. Cəfərli, A. Hacıyev, Q.Namazov, V. Vəliyev (Vəliyev, 1985), P. Əfəndiyev, M. Həkimov, Z. Xəlil, F. Əsgərli, Y.Babayev, T. Cavadov (Xəlil, Əsgərli, 2011; Əfəndiyev, 1992) və başqa tədqiqatçılar müxtəlif səviyyələrdə məsələyə münasibət bildirməyə çalışmışlar.

R. Əfəndizadənin müəllimlik fəaliyyəti və folklorşünas kimi gördüyü işlər, eləcə də bədii yaradıcılığı bütün parametrlərdə ədibin zəngin fəaliyyətini və onun polifonik axarını açıqlayır. Bu zənginliyin ümumi axarında diqqətçəkici təsəvvür formalaşdıran məqamlardan biri məktəbdarlıq fəaliyyəti və uşaqlar üçün yazdığı şeir və nəsr nümunələridir. Çünki görkəmli ədib bütün fəaliyyəti və gördüyü gərəkli işlərlə həyatı boyu uşaq dünyasını bir mütəxəssis olaraq öyrənmiş və onu yazıya gətirmək istəyində olmuşdur.

Məsələn, “Kirpi və dovşan” şeiri, bilgi vermə və uşaqların təsəvvürlərini əks etdirmək baxımından tipikdir (Babayev, 2006):

Bir günü Kirpiyə dedi Dovşan:
– Bədənin hər yerini basıbdı tikan.
Sən məgər üstü başə baxmırsan?
Tikan içrə məgər darıxmırsan?
Gey mənim eşməyim kimi kürkü,
Yumşaq, yaxşı, yox pası, çirki.
Verdi Kirpi cavab Dovşana,
Dedi eybini bu qanmaz heyvana:
– Yaxşı eşmək mənim nə hacətimə,
Batmasın canavar dişi ətimə
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998: 46).

Göründüyü kimi, uşaq maraqlarını, hiss və duyğularını, həyatı öyrənmək cəhdlərini əhatələyən bu misralar eynilə onların təsəvvürləri fonunda mükəmməl bilgi verməyə yüklənir. Ümumiyyətlə, həyat, bütün görüb müşahidə etdikləri, canlı təbiət, onun əsrarəngiz flora və faunası bütün tərəfləri ilə uşaq dünyası üçün bir əlçatmazlığa bağlanır. Yuxarıdakı poetik örnək də bu müstəvidə Kirpi və Dovşan anlamında əsaslı bir müəyyənliyə, onların bunlar haqqında təsəvvürlərinə bağlanır.

a) Dovşanın dedikləri səviyyəsində dərketmə və canlandırma,
b) Kirpinin bu deyilənlərə cavabı səviyyəsində məsələyə münasibət,
c) sənətkarın hadisəni canlandırma üsulu və obrazlı deyimin metamodel konteksti və s.

Müxtəlif yaş dövrlərində uşaqların heyvanlar aləmi haqqında təsəvvürləri və görüb müşahidə etdiyi mənzərə onların sonrakı dönəmlərdəki fəaliyyəti, qənaətləri üçün əsas olur. R. Əfəndizadə də bunlardan çıxış edərək kirpinin və dovşanın dediklərindən, məsələyə münasibətindən çıxış edərək onların başa düşəcəyi kontekstdə əks etdirməyə üstünlük verir. “A. Şaiq, S. S. Axundov, S.M.Qənizadə, H. Mahmudbəyov və başqa maarifpərvərlərlə bir cəbhədə müəllimlik fəaliyyətinə başlayır, bütün mənəvi qüdrətini, bilik və bacarığını xalq maarifinin tərəqqisi işinə sərf edir. R.Əfəndiyev Azərbaycan maarifpərvərləri arasında məktəbin, məktəblilərin ehtiyaclarını nəzərə alaraq dərsliklər yaradan, tərcümələr edən, didaktik mənzumələr yazan müəllimlərdən biridir” (Cəlal, Hüseynov, 1982: 295). R. Əfəndizadə maarifçi kimi fəaliyyəti, müəllimlik işi, dərslik problemləri, uşaq ədəbiyyatı yaratmaq məsələlərinin gərəkliyi baxımından gördüyü işlərlə diqqət önünə gəlir. Uşaq şeirləri, hekayələri, toplayıcılıq fəaliyyəti onun yaradıcılığına bütün səviyyələrdə əlavə çalar qatmışdır. “Bülbül”, “Keçi”, “Qırqovul”, “Kürt və cücəsi”, “Bənövşə”, “Payızın küləyi”, “Nəsihət”, “Tənbəl”, “Ağlağan uşaq”, “İlin dörd fəsli”, “Quş”, “Yazıq balalar”, “Çoban”, “Quraqlıq” və s. çeşidli bədii örnəkləri ilə körpələrə, cocuqlara, yeniyetmələrə nəyisə öyrətmək düşüncəsindən çıxış edir (Həsənli, 2015).

Qar gedər, yer açılar,
Göydən yağış saçılar.
Bil, bu hansı fəsildir,
Çəmən, çiçək açılar?

Quşlar bala balalar,
Maldar ot, ələf çalar.
Bil, bu hansı fəsildir?
Sünbül çıxar, dən olar?

Meyvə dəyib dərilər,
Xırman, taxıl döyülər.
Bil, bu hansı fəsildir,
Aləm behiştə dönər?
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998: 66).

R. Əfəndizadə bədii mətnin dil rəvanlığı, məzmunu canlandırma üsullarının hipertekstuallıq səviyyəsində olanlardan çıxış edərək mahiyyətə həssaslıq nümayiş etdirir. Sözün məna yükü, janr məzmunu, mətn və mühit kontekstində təqdim üsulu ilə bütünlükdə uşaqlara bilgi verməyə, alt qatda semantik işarələnməyə önəm verir. Müəllif paradiqması və janr məzmunu, üslub səviyyəsində hadisələrin polifoniyası ayrı-ayrı fəsillər timsalında mükəmməl təsəvvürü çatdırmağa yüklənir. Qış, yaz, yay, payız baxımından verilən təqdimat təfsilatlı məlumata bağlanır. Burada diqqətçəkici tərəf hər bir bənd səviyyəsində ümumiləşdirmənin aparılması və mənzərənin bütün tərəfləri ilə canlandırılmasıdır (Əsgərli, 2012). "Uşaq ədəbiyyatına xalq yaradıcılığının bu qədər güclü təsirini, bu iki ədəbi arsenalın sıx və qırılmaz əlaqəsinin səbəbini nə ilə müəyyən etmək olar? Nə üçün zaman yazılı ədəbiyyatda kiçik yaşlı nəsil üçün ədəbiyyat yaratmaq zərurətini qarşıya qoyduqda məhz folklordan başlamaq – xalqa qayıtmaq lazım gəldi və nə üçün özünün inkişafı boyunca uşaq ədəbiyyatı folklorla əlaqəsini poza bilmir?

Əlbəttə, bu suala cavabın ilk əlamətini xalq ədəbiyyatının zəngin fantaziyası ilə uşaq romantik təbiəti arasındakı qəribə müvafiqlikdə axtarmaq lazım gəlir. Əslində, uşaq üçün həyat özü elə nağıldır. Həyat harda qurtarır və nağıl harda başlanır məlum deyil. Hər cür müşküllərə, müəmmalara uşaq nağılda cavab tapır. Nağıl fantaziyasının bu hüdudsuzluğu ilə uşaq dünyasının sərhədsiz ölçüləri bir-birilə əlaqədə müvazidir" (Məmmədov, Babayev, Salamoğlu, 1992: 50-51). Uşaq ədəbiyyatının görkəmli nümayəndələri bütün zaman kəsiklərində bu zənginlikdən, xalq yaradıcılığında olan mükəmməllikdən bəhrələnməklə uşaq dünyasına sahib durmağa, müxtəlif səviyyələrdə açmağa həssaslıq nümayiş etdirmişlər. Folklordakı mifoloji qatdan gələn fantaziyanın hüdudsuzluğu ilə, nağıl düşüncəsindəki ecazkarlıq elə uşaq təsəvvüründəki zənginliyə və həyatı dərkə bağlanır (Namazov, 2007). Təbiətin əsrarəngizlikləri, elat həyat tərzinin çeşidli tərəfləri, uşaq tərbiyəsi, qabiliyyət və bacarıqların aşılanması bir məram olaraq müxtəlif yaradıcı axtarışları ilə səciyyələnir. Nəğmə, yanıltmac, tapmaca, məsəl, atalar sözü, təmsil, rəvayət və s. formalarda özünə yer alan xalq ədəbiyyatı zənginliyi eyni tərzdə, ahəng və məzmunda orijinallıqla yazılı ədəbiyyata gətirilir. R. Əfəndizadə də bunları məktəb təcrübəsindən, görüb müşahidə etdiklərindən çıxış edərək ayrı-ayrı şeirlərində, hekayələrində təqdimə köklənir. Məsələn, "Çoban" şeirində təqdim edilən məzmun sırf nağıl motivinə və ibrətamiz nəticələrə yüklənir.

Davud ismində bir nəfər aşpaz,
Olmuş idi xəyanət əhli bir az.
Ağası qovlamışdı qulluqdan,
Gedib olmuşdu sərkərə çoban.
O güdürdü özü qoyun sürüsün,
Hər gün əskik görürdü bir-ikisin
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998: 68).

Uşaq dünyası özlüyündə sirli-sehrli nağılları xatırladır. Nağıl və təmsillərlə uşaqların istək və arzuları, təsəvvürləri arasında bir müvazilik və düşüncə yaxınlığı var. R. Əfəndiyev də məhz burada Davud çobanın həyatını və xarakterini, ağası yanından qovulmasını və onun səbəblərini hadisə axarında diqqət önünə gətirir. Hər gün qoyunları itən Davudun canavarın onun sürüsünə dadanmasını və əhalinin bu səbəbdən narahatlığını diqqət önünə gətirən sənətkar bədii mətnin sonluq formulunda "soruşan yoxdu bircə Davuddan, nə üçün qurda atmısan böhtan?" sorğusunun təfsilatını diqqət önünə gətirməsi təsadüfi deyildir. Əksinə, sırf reallığa, "sən özün qurd imişsən, ey çoban" qənaətinə gətirib çıxarır. R. Əfəndizadə bunula uşaqları baş verənlərdən nəticə çıxarmağa, halallığa, gözü, könlü tox olmağa səsləyir və bu nümunə ilə Davudun şəxsində baş verənlərdən nəticə çıxarmağa çağırır. "Quraqlıq" şeirində isə görkəmli maarifçi bir başqa məqamı diqqət önünə gətirir və bilgi vermək məramı ilə diqqətçəkici mülahizələr yürüdür.

Çox quraqlıq göyərtini qurudur,
Çox yağınlıq da aləmi çürüdür.

Bir zaman payıza yavıq yaz idi,
Yağmamışdı yağış neçə ay idi
(Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası, 1998: 69).

Burada isə həyatın bir başqa məqamı, təbiətin quraqlıq və yağarlıq timsalında insanlarda yaratdığı çətinliyə diqqət yetirilir. İlin quraqlıq olması adamlarda həmişə narahatlıq, çətinlik yaratmışdır. R. Əfəndizadə də insanların yaşam tərzindən çıxış edərək həyati biliklərinə istinad etməklə yaşanan fəlakətləri diqqət önünə gətirir və xalq təsəvvüründə olan təqdim üsullarından çıxış etməklə uşaqları bu aspektdə məlumatlandırmağa, bilgi verməyə köklənir (Talıbov və s., 1993).

## Nəticə

Uşaq ədəbiyyatının istedadlı simalarından olan R. Əfəndizadənin yaradıcılığı onun maarifçi dünyagörüşünü, həyati təsəvvürlərini əks etdirməyə köklənir. Yanıltmac, layla, oxşama, əzizləmə, tapmaca, təmsil, rəvayət, nağıl, uşaq folkloru, xalq mərasimi səviyyəsində olan zənginlik ədibin yaradıcılığının ana axarını faktlaşdırır. Ayrı-ayrı şeirlər timsalında müşahidə olunan məzmun uşaq təsəvvürünə, əsrarəngizliklərlə dolu fantaziyasına yüklənir. Bilgi vermə, bacarıq və qabiliyyətlərini ortaya çıxarmaq və aşılamaq məqsədi daşıyan bu nümunələr misranın fikir yükü, mətn fenomenliyi baxımından yüksək sənətkarlıq intelleksiyası nümayiş etdirir. Bütün bunlar görkəmli maarifçi sənətkarın xalqın zəngin mənəvi mədəniyyətinə bələdliyindən irəli gəlir və sistemli təhlillərin aparılmasını zəruriləşdirir.

## Ədəbiyyat

1. Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı. (XIX-XX əsrlər). (2001-2002). I-II cild. Bakı: Nasir, 615 s.
2. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. (1988). Bakı: Elm, 568 s.
3. İsmayılova, M. (2012). XIX əsrin sonu və XX əsrin əvvəllərində Şamaxıda təhsil və pedaqoji fikrin inkişafı. Bakı: Elm və təhsil, 184 s.
4. Vəliyev, V. (1985). Azərbaycan folkloru. Bakı: Maarif, 414 s.
5. Xəlil, Z., Əsgərli, F. (2011). Uşaq ədəbiyyatı. Bakı: ADPU, 498 s.
6. Əfəndiyev, P. (1992). Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Maarif, 698 s.
7. Babayev, B. (2006). Uşaq ədəbiyyatı nümunələrinin təhlili xüsusiyyətləri. Bakı, Müəllim, 387 s.
8. Azərbaycan klassik uşaq ədəbiyyatı antologiyası. (1998). Bakı: Elm, 300 s.
9. Cəlal, M., Hüseynov, F. (1982). XX əsr Azərbaycan ədəbiyyatı. Bakı: Maarif, 428 s.
10. Həsənli, B. (2015). Azərbaycan uşaq ədəbiyyatı. Bakı, ADPU, 482 s.
11. Əsgərli, F. (2012). Sehirli dünyanın memarı. Bakı, ADPU, 443 s.
12. Məmmədov, M., Babayev, Y., Salamoğlu, T. (1992). Pedaqoji mühit və ədəbiyyatı. Bakı: Maarif, 288 s.
13. Namazov, Q. (2007). Azərbaycan uşaq ədəbiyyatı. Bakı, Bakı Universiteti, 444 s.
14. Talıbov, Y. R., Ağayev, Ə. A., İsayev, İ. N., Eminov, A. İ. (1993). Pedaqogika. Bakı: Maarif, 292 s.

Göndərilib: 14.05.2024 Qəbul edilib: 01.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/36-40

**Məmməd Əliyev**
Naxçıvan Dövlət Universiteti
tarix üzrə fəlsəfə doktoru
memmedaliyev@gmail.com
https://orcid.org/0000-0000-0000-0000

# QARABAĞLAR TÜRBƏ MUZEY KOMPLEKSİ (XII-XIV ƏSRLƏR)

**Xülasə**

Min illər boyu insanlar özlərindən əvvəlki insanların yaratdığı əşyalara, sənət əsərlərinə maraq göstərmişlər. Tarixi-ictimai əhəmiyyət kəsb edən abidələr arasında XII-XIV əsrə aid Qarabağlar Memarlıq Kompleksi xüsusi əhəmiyyət kəsb edir. Ümummilli liderimiz Heydər Əliyev Naxçıvanın hər daşının, hər qayasının tarixinin canlı şahidi olduğunu bildirərək demişdir: "Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır. Bu kiçik ərazidə həddindən çox dünya miqyaslı tarixi-memarlıq abidələr yaşayıb və bu gün də yaşayır. Onların hər biri Azərbaycan xalqının həm tarixini, həm mədəniyyətini, həm də adət-ənənələrini göstərən abidələrdir".

***Açar sözlər:*** *türbə, abidə, muzey, fond, ekspozisiya, sərdabə*

**Mammad Aliyev**
Nakhchivan State University
Doctor of Philosophy in History
memmedaliyev@gmail.com
https://orcid.org/0000-0000-0000-0000

## Karabakhlar Tomb Museum Complex (XII-XIV centuries)

**Abstract**

For thousands of years, people have shown interest in their belongings and works of art. Among the monuments that pose a historical and social threat, the Karabakh Architectural Complex of the 12th−14th centuries poses a special threat. Our national leader Heydar Aliyev stated that every stone and rock of Nakhchivan is a living witness of its history. Nakhchivan is a land that includes monuments reflecting the history of the Azerbaijani people. This small load has lived in many world-scale historical-architectural monuments and still lives today. Each of them is the objects of the history, culture and traditions of the Azerbaijani people.

***Keywords:*** *tomb, monument, museum, foundation, exposition, vault*

## Giriş

Son illərdə respublikamızda mədəniyyət fəaliyyətinin tənzimlənməsi məqsədinə xidmət edən qanunların qəbulu sevindirici haldır.

Muzeylər haqqında Azərbaycan Respublikasının Qanunu (24 mart 2000-ci il); Tarix və Mədəniyyət Abidələrinin qorunması haqqında Azərbaycan Respublikasının Qanunu (13 iyun 1998-ci il). Bütün bu qanunlar dövlət başçımız tərəfindən mədəniyyətimizə və tariximizə göstərdiyi diqqət və qayğının təcəssümüdür.

Naxçıvanda mövcud olan digər tarixi abidələr kimi, Qarabağlar türbəsi də memarlıq üslubu, inşasına sərf olunmuş materialların orijinallığı ilə fərqlənir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrinin "Qarabağlar Türbə Kompleksinin bərpası və tədqiq olunması haqqında" 2016-cı il 4 iyul tarixli Sərəncamı bu nadir memarlıq

nümunəsinin bərpası və qorunaraq gələcək nəsillərə çatdırılması sahəsində mühüm addımdır. Həmin sərəncamda deyilir: "Azərbaycan xatirə memarlığının mütərəqqi ənənələrini yaşadan bu abidə memarlıq quruluşuna və oxşar cəhətlərinə görə Əcəmi Naxçıvani Memarlıq məktəbinin davamı memar Əhməd Naxçıvani yaradıcılığının nümunəsidir".

Naxçıvan Muxtar Respublikasında yerləşən tarix və mədəniyyət abidələri yalnız Azərbaycan tarixi üçün deyil, həm də Yaxın Şərq və Cənubi Qafqaz tarixinin öyrənilməsi üçün əhəmiyyətlidir. Muxtar Respublikamızdakı bir çox tarixi abidələr dünyada bənzəri olmayan mədəniyyət inciləridir. Belə mədəniyyət incilərindən biri də Qarabağlar Türbə Kompleksidir.

Tarixi mənbələrin verdiyi məlumata görə, Qarabağlar orta əsrlərdə Azərbaycanın əsas şəhərlərindən biri, mühüm ticarət və sənətkarlıq mərkəzi olub. Qarabağlar ətrafında böyük orta əsr yaşayış yerlərinin, karvansarayların aşkar olunması onun tarixi İpək yolunun üzərində yerləşməsi ilə bağlı olmuşdur. Şəhərin Yaxın Şərq ölkələri və Avropanı birləşdirən mühüm karvan yollarının üstündə yerləşməsi sayəsində burada sənətkarlıq, ticarət, iqtisadi həyat xeyli tərəqqi etmişdir. Türbənin Qarabağlar kəndində tikilməsi, şübhəsiz ki, bu kəndin Elxanilər dövlətinin mühüm iqtisadi-mədəni mərkəzlərindən biri olduğunu göstərir (Naxçıvan Abidələr Ensiklopediyası, 2018).

Tarixi mənbələrdən məlumdur ki, qədim dövrdən başlayaraq, orta əsrlərədək Orta Asiyada yaşayan türk tayfalarının Azərbaycana axınları davam etmişdir.

XIII əsrdə monqollarla birgə hərəkət edən türk tayfalarının böyük bir qismi Azərbaycanda məskunlaşmışdı. Tədqiqatçıların fikrinə görə, "Qarabağlar" sözü qədim türk tayfası olan kəngərlilərin bir qolunun adı ilə bağlı olub. X əsr müəllifi Konstantinin Sibirdə yaşayan kəngərlilərin bir tayfasının "Qarabağ" adlandırıldığını qeyd edib. Bu tayfaların Azərbaycan xalqının formalaşmasında böyük rolu olub (Salmanzadə, 1985).

Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan qədim Naxçıvan torpağında çox sayda memarlıq abidələri mövcuddur. Bu abidələrin böyük bir hissəsi bərpa olunaraq yenidən xalqımızın xidmətinə verilmişdir. Belə memarlıq abidələrindən biri də Qarabağlar kəndindəki memarlıq abidə kompleksidir. Bu abidələr kompleksi Naxçıvan şəhərindən 40 km şimal-qərbə doğru Qarabağlar kəndində yerləşir. Abidə əsas etibarilə XII-XIV əsrləri əhatə edir. Qarabağlar türbəsi Azərbaycanın qülləvari türbələri formasına mənsubdur. Onun diametri 10 metrə qədər, salamat qalmış hissəsinin hündürlüyü 16 metrdir. Daş kürsülük üzərində ucaldılmış kərpic qüllə özünün möhtəşəmliyi ilə seçilir. Türbənin bu möhtəşəmliyinə memar 12 ədəd yarımsilindrin bir-birinə dairəvi halda möhkəm zəbt edilməsi yolu ilə nail ola bilmişdir. Abidəni əhatə edən yarımsilindirlər dekorativ əlavə deyil, onun həcm quruluşunun tərkib hissələridir. Türbənin kvadratşəkilli mərkəz hissəsinə bitişən dörd dərin taxçalı salondan ibarət sərdabəsi Azərbaycanın XIV əsr türbələri üçün səciyyəvidir (Əhmədova, 2013).

Qarabağlar türbəsi sərdabəsinin quruluşunda onu digər kərpic türbələrdən fərqləndirən balaca xüsusiyyət sərdabənin interyerində üzləyici kimi daşdan istifadə olunmasındadır. Bu məsələdə müəyyən ardıcıllığı izləmək mümkün deyildir. Abidənin kərpicdən hörülmüş yerüstü yuxarı hissəsindən fərqli olaraq, sərdabənin interyeri və onun əslində zahirdən görünən kürsülüyü sənətkar tərəfindən eyni materialla − daşla tikilmişdir. Kəsik hissəsi tağtavanın güzgüsünü təşkil edən Şərq taxçasındakı əlamətlərdən göründüyü kimi, sərdabənin taxçaları kərpic tağtavanla örtülmüşdür (Məmmədova, Məmmədova, 2013).

Türbənin kürsülüyü üç cərgə daşla üzlənmişdir. Aşağıdakı cərgə azca çıxıntı əmələ gətirir. Kürsülüyü profillənmiş daş tamamlayır. Üzləyici daşlar narıncı çalara malikdir. Kürsülüyün hamar səthi bilavasitə profilli daşın altından başlayaraq, baştağın oxu boyunca yerləşən dörd ədəd yarıq şəklində ensiz açırımla kəsilmişdir. Sərdabəyə giriş onun şimal tərəfindən qoyulmuşdur. Kürsülük üzərində ucalan qüllə yuxarıda qeyd olunduğu kimi, özünün möhtəşəmliyi ilə tamaşaçını heyran qoyur. Onun bu əzəməti isə tikintinin bu hissəsinin hər biri ayrılıqda müdafiə bürcü təsiri bağışlayan, bir-birinə bənd edilmiş on iki yarımsilindir şəklində həlli ilə bağlıdır. Zərif və hamar həll olunmuş baştağ ilə qarşılaşdırılma sayasində qüllə səthinin möhtəşəmliyi görünüş etibarilə daha da güclənir. Yarımsilindrlərin səthi kufi kitabəni − dini düsturu təcəssüm etdirən həndəsi naxışlarla

örtülmüşdür. Kitabə şaquli qoyulmuş firuzəyi naxışlı kərpiclərdən tərtib olunmuşdur. Bu isə müəyyən qədər 1322-ci il Bərdə türbəsinin ornametli kitabəsini xatırladır (Eyvazova, 2017).

Qarabağlar türbəsində birləşdirici rolunu, yəqin ki, frizin yuxarısından keçən, hazırda dağılmış stalaktit qurşaq oynamışdır. Xarici tamamlayıcı (tac) çadır örtmənin forması, şübhəsiz ki, konusvari çadır şəklində olmuşdur. Türbənin bütün cəhətlərə istiqamətlənmiş dörd baştağı dekorativ cəhətdən onun ən məzmunlu hissələri sayılır. Baştağıların hamısının quruluş sxemi eynidir. Xarici ornament çərçivəliyi 45 dərəcə bucaq altında çəplənən müstəviyə keçir və bu da baştağın əsas səthində dərinlik yaradır. Tökülməyə başlamış bu baştağ müstəvisinin yuxarı hissəsində düzbucaqlı çərçivədə şərq, qərb və cənub baştağlarının hər üçündə oxşar məzmuna malik olan kufi kitabə yerləşdirilmişdir. Çərçivədən aşağıda yerləşən kitabəli stalaktik tağ üst kameraya aparan qapı açırımına malik üçüncü müstəviyə keçid təşkil edir. Eyni quruluş sxeminə malik olan baştağılar rəsm ornamentlərinə və onların yerləşmə variasiyalarına görə bir-birindən fərqlənir. Türbənin şimal baştağı stalaktit tağın müvafiq quruluşu vasitəsi ilə qapı açırımı müstəvisinin hədsiz dərinləşdirilməsi yolu ilə əsas baştağ kimi fərqləndirilmişdir. Bundan başqa gəc yatağı üzərindəki izlərdən anlaşıldığına görə şimal baştağının yuxarı çərçivəsindəki kitabə, görünür, digər baştağılardakı kimi kufi deyil, nəsx şəklindədir. Belə bir mülahizə etmək olar ki, bu kitabə inşaat məzmunlu olmuş və bu Bərdə türbəsindəki kimi memarın adı, bəlkə də, hətta tikintinin tarixi barədə məlumat verirmiş (Azərbaycan Respublikası "Naxçıvan Türbələri", 2018: 22).

Təsvir olunan bürc və onun keşikdəki çadırvari örtüyü türbənin yerüstü bölməsinin xarici həcmini təşkil edir. Hazırda baştağıların iki metr hündürlükdə yerləşən qapı açırımına doğru aparan pilləkənin mövcudiyyəti barədə xəbər verə biləcək heç nə qalmamışdır. Abidənin yerində tədqiqi şimal tərəfdəki baştağın qarşısında bir cüt yan marşından ibarət güman edilən daş pilləkən olması barədə mülahizəni təsdiq etmir. Türbənin yerüstü hissəsi bu cəhətdən maraqlıdır ki, on iki ədəd xarici yarımsilindrə müvafiq olaraq, düzgün on iki üzlü formada təşkil olunmuşdur. Arxasında yerləşməsi ilə əlaqədar olaraq, daxili üzlərin küncləri yarımsilindrlərin mərkəzinə uyğun gəlir. Daxili üzlərin hər biri yuxarıdan çatma tağla tamamlanan taxça ilə işlənmişdir. İki qonşu üzün taxçasının sərhədində taxça çuxuru ilə birləşərək yerüstü kameranın interyerinə yüngüllük, hətta tikintinin möhtəşəm və abidəvi səciyyə daşıyan zahiri görkəminin əksinə olaraq ona bir də narınlıq bəxş edir.

Qoşa minarələri birləşdirən baştağın üzərində çox hissəsi dağılmış kitabənin qalan hissəsinin mətinindən aydın olur ki, bu kompleksin tikilməsini Cahan Qudi xatın əmr etmişdir. Orta əsr qaynaqlarından məlumdur ki, Hülakilər (Elxanilər) dövlətinin banisi Hülaki xanın arvadlarından birinin adı Qutuy xatın olmuşdur. Sarayda böyük nüfuza malik olan Qutuy xatın ağıl və bacarığı sayəsində dövlətin idarə olunmasında iştirak etmişdir.

Kompleksin əsasını Naxçıvan memarlıq məktəbinin incilərindən olan türbə təşkil edir. Azərbaycanın qülləvari xatirə tikintiləri tipinə aid olan türbə on iki yarımsilindrin birləşdirilməsindən əmələ gətirilmişdir.

Abidənin gövdəsində kaşılı kərpiclərlə yaradılan iri həcmli rombların içərisində kufi xəttilə kitabələr yazılmışdır. Dəfələrlə təkrarlanan bu kitabələrin mətni belədir: "Allahdan başqa Allah yoxdur. Məhəmməd –Allahın ona salavat olsun – Allahın elçisidir". Türbənin firizində isə Qurani-Kərimin Əl-Mülk surəsinin 1.6-cı ayələri yazılmışdır. Türbənin memarlıq xüsusiyyətləri, kitabələrin yerinə yetirilməsi texnikası oxşarlığı və digər əlamətləri göstərir ki, abidə Bərdə türbəsinin memarı Əhməd Əyub oğlu Naxçıvani tərəfindən XIV əsrin 30-cu illərində inşa edilmişdir.

Qarabağlar Türbə Muzey Kompleksinin daxilində ayrı-ayrı guşələr yaradılıb ki, bu da muzey haqqında gələn tamaşaçılara ətraflı məlumat verilməsini təmin edir.

Birinci guşədə Qarabağlar Türbə Kompleksi haqqında məlumat yer alır. XII-XIV əsrlərə aid Qarabağlar Türbə Kompleksi Naxçıvan ərazisində yaradılan türk-islam mədəniyyətinin möhtəşəm nümunələrindən və Şərq memarlığının incilərindən biridir. Kəngərli rayonunun Qarabağlar kəndində yerləşən kompleksidir. Türbə qoşa minarəli baştağıdan ibarətdir. Qoşa minarəli baştağın üzərindəki kitabədən aydın olur ki, abidənin tikintisini Cahan Qudi xatın əmr etmişdir.

Azərbaycan xalqının zəngin yaradıcılıq xəzinəsində ən mühüm yerlərdən birini onun həyat və məişəti ilə bağlı xalq sənətləri tutur. Ekspozisiya zalında yerləşən maddi-mədəniyyət nümunələri xronoloji ardıcıllıqla nümayiş olunur. İlk guşələrdə nümayiş olunan saxsı küpələr e.ə. III – II minilliklərə aiddir. Azərbaycan xalqının zəngin yaradıcılıq xəzinəsində ən mühüm yerlərdən birini onun həyat və məişəti ilə bağlı olan xalq sənətləri tutur. Ekspozisiya zalında yerləşən maddi-mədəniyyət nümunələri xronoloji ardıcıllıqla nümayiş olunur. İlk guşələrdə nümayiş olunan saxsı küpələr e.ə. III – I minilliklərə aiddir.

Növbəti guşədəki taxçada nümayiş olunan e.ə. III–II minilliklərə aid saxsı küpələr və vitrində nümayiş olunan e.ə. III minilliyə aid saxsı bardaq III-VIII əsrlərə aid gil çölmək, e.ə. V əsrə aid bardaq tipli qab, e.ə. II minilliyin sonlarına aid saxsı küpə, son tunc – ilk dəmir dōvrünə aid saxsı məişət əşyaları və e.ə. III minilliyə aid saxsı boşqab xalqımızın məişətdə istifadə etdiyi qədim maddi-mədəniyyət nümunələrindən xəbər verir. Burada nümayiş olunan kətan üzərində yağlı boya ilə işlənmiş “Qarabağlar türbəsi” rəsminin müəllifi Abuzer Qardaşbəyovdur. Növbəti divarda isə 2018-ci ilin may ayında keçirilmiş "Naxçıvan – bəşəriyyətin beşiyi" IV beynəlxalq rəsm festivalının iştirakçısı türkiyəli rəssam Bişar Çeken Yıldırım tərəfindən kətan üzərində yağlı boya ilə işlənmiş Qarabağlar türbəsi" əsəri nümayiş olunur.

Taxçada son tunc–erkən dəmir dövrünə aid saxsı qədəh, e.ə. III-II minilliklərə aid saxsı küpələr sərgilənməkdədir. Bu vitrində nümayiş olunan ilk orta əsrlərə aid gil çıraqlar da dəyərli eksponatlar sırasındadır. Ekspozisiyanın bu hissəsində son tunc – ilk dəmir dövründə istifadə olunmuş saxsı küpələr, vitrində isə XIX əsrə aid saxsı çölməklər nümayiş olunur. Çölməklər Azarbaycan türklərinin məişətində geniş istifadə olunmuşdur. Taxçalara qoyulmus e.ə. III-II minilliklərə aid saxsı çölmək və e.ə. III minilliyə aid saxsı məişət əşyaları məişətimizdə geniş istifadə olunmuş maddi-mədəniyyət nümunələri sırasındadır. Ekspozisiya zalının içərisində təndirlər vardır. Bu təndirlərin yaranma tarixi kompleksin yaranma tarixi ilə eyni vaxta düşüb, xalqımızın həmin dövr üçün əsas məşğuliyyətini, adət-ənənələrini və yaşayış tərzini özündə əks etdirir. Təndirlərin içərisində mis və saxsı məişət əşyalarında bu ərazinin əkinçilik mədəniyyətində geniş yayılmış dənli bitkilər – buğda, arpa, qarğıdalı, eyni zamanda daş duz qoyulmuşdur. Naxçıvan mədəniyyətini səciyyələndirən əsas saxsı məlumatları həndəsi naxışlarla, insan, heyvan, quş rəsmləri, müxtəlif piktoqrafik işarələrlə bəzədilmiş və yüksək sənətkarlıqla hazırlanmış boyalı qablardır. Mərkəzi hissədə yerləşən vitrində həmin sənətkarlıq nümunələrinə uyğun saxsı məmulatları tunc dövrünə aid quş tipli saxsı qab, e.ə. II minilliyə aid polixrom boyalı saxsı küpələr, son tunc dövründə istifadə olunmuş boyalı küpə nümayiş olunmaqdadır. Burada nümayiş olunan e.ə. IV-|I minilliklərə aid saxsı manqal ən dəyərli eksponatlardandır. Guşədə Qarabağlar Türbə Kompleksinin bərpadan əvvəl və bərpadan sonra çəkilmiş fotoşəkilləri nümayiş olunmaqdadır. Göründüyü kimi, kompleks öz orijinallığını saxlamaqla əsaslı şəkildə təmir olunmuş və əvvəlki görkəminə qaytarılmışdır.

Növbəti vitrində erkən-orta tunc dövründə istifadə olunmuş küpə tipli qablar və e.ə II minilliyə aid polixrom boyalı saxsı küpə nümayiş olunur. Növbəti guşələrdə XVII-XX əsrlərə aid saxsı məişət əşyaları-XVIII əsrə aid saxsı kuzələr, XIX əsrdə geniş istifadə olunmuş saxsı küpələr, əsasən süd yə süd məhsullarının saxlandığı dörd qulplu küpə nümayiş olunmaqdadır. Ekspozisiya zalında maddi-mədəniyyət nümunələri ilə yanaşı, Naxçıvanın tarixini və Qarabağlar Türbə Kompleksi haqqında məlumatları özündə əks etdirən Naxçıvan Abidələri Ensiklopediyası, Naxçıvan Tarixi Atlası, “Naxçıvan tarixi” çoxcildliyi, Naxçıvan Türk-İslam mədəniyyəti abidələri: tarixdə və günümüzdə, Qarabağlar Türbə Kompleksi kitabları nümayiş olunur. Bu nəşrlər aparılmış tədqiqatların yekunu kimi mühüm elmi əhəmiyyətə malikdir. Burada həmçinin “Övliya Çələbi səyahətnaməsində Azərbaycan” əsəri də nümayiş olunur. Bu kitabda Qarabağlar və Quti Xatın abidəsi barədə qiymətli məlumatlar vardır.

Maraqlı eksponatlardan biri də su daşıdır. Məişətdə istifadə olunan su daşı “gəvək” adlanan məsaməli daş növündən yonulurdu. Həcmindən asılı olaraq belə daşlar 15-20 litrədək su tuturdu. Adətən daşdan süzülən su damcılarını toplamaq üçün onun alt hissəsi sferik formada düzəldilirdi. Süzülmüş suyu bir yerə toplamaq üçün su daşı ağac çərçivə üzərində quraşdırılır və onun altında iri tutumlu saxsı və ya mis qab qoyulurdu. Çox vaxt süzülmüş suyun sərin gəlməsini təmin etmək üçün

su damcıları çərçivənin altında basdırılmış saxsı küpə tökülürdü. Bu, suyun sərin qalmasını təmin edirdi.

Beləliklə, tarix və mədəniyyət abidələrinin təbliğatının tələblərinə çevrilməsi sahəsində abidədəki yaradılmış ekspozisiya mühüm rol oynayır. Bu abidələr gənc nəsillər üçün böyük təhsil və tərbiyə dəyəri olan tarixi, bədii və mədəni irsin mühüm bir hissəsidir. Əlbəttə ki, hər bir muzey işçisinin arzusu orijinal abidəni qorumaq və nümayiş etdirməkdir. Muzeylər xalqa xidmət etməklə əhalinin ictimai şüurunun formalaşmasında, həmçinin tarixi gerçəkliyin öyrənilməsində böyük rol oynayır.

**Qarabağlar Memarlıq Kompleksi**

Naxçıvan şəhərindən 40 km şimal-qərbə doğru Qarabağlar kəndində qismən salamat qalmış geniş bir orta əsr memarlıq kompleksi yerləşir. Hazırda kompleks XIV əsrə aid kərpic türbə, baştağın qalıqlarını cinatılardan qoruyan XII əsrə aid yarıdağılmış iki uca minarə, habelə minarələrlə türbənin xarabalıqları təmsil olunur. Güman etmək olar ki, minarələri birləşdirən baştağ XIV əsrdə tikilmişdir. Baştağ üzərində qalmış kitabə parçasında güman ki, Elxanilər sülaləsindən olan Abaka xanın arvadı Koday xatunun adı xatırladılır.

Qarabağlar türbəsi Azərbaycanın qülləvari türbələri tipinə mənsubdur. Onun diametri 10 m-ə qədər, salamat qalmış hissəsinin hündürlüyü isə 16 m-dir. Daş kürsülük üzərində ucaldılmış kərpic qüllə özünün möhtəşəmliyi ilə seçilir. Türbənin bu möhtəşəmliyinə memar 12 ədəd yarımsilindrin bir-birinə dairəvi halda möhkəm zəbt edilməsi yolu ilə nail ola bilmişdir. Abidəni əhatə edən yarımsilindrlər dekorativ əlavə deyil, onun həcm quruluşunun tərkib hissələridir. Türbənin kvadratşəkilli mərkəz hissəsinə bitişən dörd dərin taxçalı salondan ibarət sərdabəsi Azərbaycanın XIV əsr türbələri üçün səciyyəvidir. Qarabağlar türbəsi sərdabəsinin quruluşunda onu digər kərpic türbələrdən, məsələn, Bərdə türbəsindən fərqləndirən başlıca xüsusiyyət sərdabənin interyerində üzləyici kimi daşlardan istifadə olunmasıdır. Bu məsələdə müəyyən ardıcıllığı izləməmək mümkün deyil. Tikintinin kərpicdən hörülmüş yerüstü yuxarı hissəsindən fərqli olaraq, sərdabənin interyeri və muzeyşünaslıq elmində aparılan elmi araşdırmalar göstərir ki, daşınmaz tarix və mədəniyyət abidələrindən istifadənin ən yaxşı variantı binaların nəzdində muzeylərin yaradılması, başqa sözlə deyilsə, muzeyləşdirilməsidir. Abidənin muzeyləşdirilməsi həmin abidənin tanıdılmasına, mühafizəsinə və daha yaxşı öyrənilməsinə kömək edir (Eyvazova, 2021).

Azərbaycanda da memarlıq abidəsi kimi tanınan çox sayda mülk və malikanələrin muzeyləşdirilməsini müsbət hal hesab etmək olar. Bu baxımdan da, Qarabağlar Türbə Kompleksinin muzeyləşdirilməsi məqsədəuyğun sayılır (Baxşəliyev, Quliyeva, 2017).

Türbənin həm xaricində, həm də daxilində aparılan bərpa işləri və yaradılan muzey həmin abidənin daha yaxşı mühafizə olunmasına və daha yaxşı təbliğ olunmasına şərait yaradır.

## Ədəbiyyat

1. Naxçıvan Abidələr Ensiklopediyası. (2018). Bakı.
2. Salmanzadə, Ə. B., Məmmədzadə, K. M. (1985). Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri. Bakı: Elm, 265 s.
3. Əhmədova, R. (2013). Azərbaycan memarlığı XV–XIX əsrin əvvəllərində. Bakı.
4. Məmmədova, Y., Məmmədova, Z. (2013). Orta əsr memarlığı (VIII-XIV əsr). Bakı.
5. Eyvazova, Y. (2017). Abidəşünaslıq. Bakı.
6. Azərbaycan Respublikası “Naxçıvan Türbələri”. (2018). Naxçıvan: “Əcəmi” Nəşriyyatı Poliqrafiya Birliyi, s. 40.
7. Eyvazova, Y. (2021). Tarix və mədəniyyət abidələrinin mühafizəsi (dərslik). Bakı.
8. Baxşəliyev, V., Quliyeva, F. (2017). Naxçıvan tarixi abidələri. Bakı.

Göndərilib: 21.04.2024 Qəbul edilib: 27.06.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/41-46

**Rovshan Humbataliyev**
Azerbaijan State Maryne Academy
Doctor of Mathematical Sciences
rovshangumbataliev@rambler.ru
**Vusala Huseynova**
Institute of Education of the Republic of Azerbaijan
Ph. D. student
huseynova.vusale87@gmail.com

# INFORMATION AND COMMUNICATION TECHNOLOGIES IN THE EDUCATION SYSTEM

## Abstract

Nowadays, it is impossible to imagine our world without computers. Because almost in any part of our daily life, we solve our work through the computer. However, the computer alone is not enough to perform some problems (for example: mathematical problems) on a computer. This is when programming languages come to our aid. The rapid development of new generation technologies is naturally reflected in the education system. So students no longer have to be content with just basic computer skills. By learning any programming language, they should acquire new and more complex knowledge. Taking this into account, the education system in Azerbaijan is built according to modern requirements. The paper examines information and communication technologies, technical, programme, subject and methods components of the enviroment where they are used. The paper also considers the concepts of information awareness and information competence, as well as using Informatics Technologies in teaching.

***Keywords:*** *technology, information and communication technologies, information awareness, information competence*

**Rövşən Hümbətəliyev**
Azərbaycan Dövlət Dəniz Akademiyası
riyaziyyat elmləri doktoru
rovshangumbataliev@rambler.ru
**Vüsalə Hüseynova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
doktorant
huseynova.vusale87@gmail.com

# Təhsil sistemində informasiya və kommunikasiya texnologiyaları

## Xülasə

İndiki dövrdə dünyamızı kompütersiz təsəvvür etmək haradasa imkansızdır. Çünki demək olar ki, günlük yaşantımızın istənilən hissəsində işlərimizi kompüter vasitəsilə həll edirik. Lakin bəzi məsələləri (məsələn, riyazi məsələləri) kompüterdə icra etmək üçün sadəcə kompüterin özü kifayət etmir. Bu zaman proqramlaşdırma dilləri köməyimizə çatır. Yeni nəsil texnologiyaların sürətli inkişafı, təbii ki, təhsil sistemində də öz əksini tapmalıdır. Belə ki, şagirdlər artıq sadəcə təməl kompüter bilikləri ilə yetinməli deyillər. Hər hansı bir proqramlaşdırma dili öyrənərək, yeni və daha mürəkkəb biliklər əldə etməlidirlər. Bunu nəzərə alaraq, Azərbaycanda təhsil sistemi müasir tələblərə uyğun qurulmuşdur. Məqalədə informasiya və kommunikasiya texnologiyaları, onların istifadə olunduğu mühitin texniki, proqram, mövzu və metod komponentləri araşdırılır. Məqalədə həmçinin informasiya şüuru və informasiya səriştəsi anlayışları, eləcə də tədrisdə informasiya texnologiyalarından istifadə məsələləri nəzərdən keçirilir.

***Açar sözlər:*** *texnologiya, informasiya və kommunikasiya texnologiyaları, informasiya şüuru, informasiya səriştəsi*

## Introduction

Information and communication technologies (ICT) should be considered as a practical part of the scientific field of informatics, which is a set of methods, methods, means of automated collection, processing, storage, transfer, use, production of information to obtain certain, obviously expected, results.

ICT are implemented using computer technology and are characterized by (Bespalko, 2002; Zeer, 2007; Zeer, 2000):

- modern software, software and hardware and hardware and devices operating on the basis of microprocessor and computer technology;
- providing direct access to the dialog mode when using professional programming languages and artificial intelligence;
- simplicity of the process of user interaction with the computer.

ICTs operate in a specific environment and contain appropriate components such as:

- technical environment (technical means of providing ICT);
- software environment (software for ICT implementation);
- subject environment (the content of a specific subject area, that is, the information that can be processed);
- methodological environment (instructions, principles, rules of use, procedure, etc.).

The use of ICT in the educational process is impossible without a certain level of formation of information competence of both the teacher and the students.

Before defining what the concept of "information competence" is, let us turn to understanding the essence of competence and competencies. In the pedagogical literature, there are different points of view on the definition of these concepts ((Bespalko, 2002; Zeer, 2007; Zeer, 2000; Starichenko et al, 2009).

Competence is an integrative quality of a person, formed on the basis of a set of subject knowledge, skills, experience, reflected in theoretical and applied readiness for their implementation in activities at the level of functional literacy. Competence is viewed as a synthesis of cognitive, subject-practical and personal experience and as a person's ability to realize competence in a specific practical activity (competence in action).

The formation and development of students' information competence should be given special attention. Professional training should provide the future specialist not only with general educational and professional knowledge, but also with a sufficient level of information culture, the graduate's entry into the information society. For this, the subject area "Informatics" should be made a special synthesizing "meta-subject" in a certain set of studied academic disciplines. The computerization of production has led to the task of training universities for specialists who are able to effectively use information technologies in their professional activities.

In the XXI century will be able to achieve success only those who not only know the basic courses of university programs, but are able to apply the acquired knowledge in traditional and non-traditional situations and, most importantly, can work with information. Today's employer is interested in an employee who is able to act independently, competently and creatively in solving various problems. Modern society needs a specialist who strives to continuously replenish his knowledge, improve his competence and competencies.

Practice has shown that insufficient attention is paid to teaching students to independently and rationally organize their educational and cognitive activities. Therefore, university graduates often cannot quickly adapt to continuously updated new information technologies.

At present, it is not the student's awareness that is put forward in the first place, but the ability to resolve emerging problems, the departure from the knowledge paradigm of education to the competence one.

The development of ICT provides users with qualitatively new opportunities, which entails, in turn, the development of information competence. Informatics, ICT are increasingly penetrating into the economy, science, education, culture, politics, as well as in the field of environmental and national security, the household sphere. In an information society, a person needs to perceive and process large amounts of information accumulated not only by him personally, but also by other people. Fast and high-quality work with information based on computer and information technologies has become one of the types of professional activity.

The information competence of a student consists of knowledge and skills to apply the acquired knowledge and abilities to independently work with information and communication technologies in educational and future professional activities.

Thus, M. B. Lebedeva and O. N. Shilova define competence in the field of information technology as the ability of an individual to solve educational, every day, professional tasks using information technologies (Xutorskoy, 2001).

The authors identify the basic, general and professional stages of the formation of information competence and clearly distinguish between the use of ICT in educational activities and the use of these technologies for solving professional problems. In this context, information competence is a combination of two components: computer literacy and computer education. The implementation of this task requires specific skills and abilities of a systematic approach to search activities in the field of hardware, software and information. This contributes to the formation of an information worldview, the development of students' systems thinking, orientation in the mass of software and the choice of the computer configuration necessary for the effective solution of their tasks.

The starting points of the information competence development process are:

- motivation, need and interest in acquiring knowledge, skills and abilities in the field of hardware, software and information;
- a set of social, natural and technical knowledge, reflecting the system of the modern information society;
- knowledge that constitutes the informative basis of the search scientific cognitive activity;
- methods and actions that determine the operational basis of research scientific and cognitive activity;
- experience in search activities in the field of software and technical resources;
- experience of the relationship "person – computer".

When using ICT in education, it is necessary:

- clearly define the goals and specific objectives of training;
- select software and hardware that meet these goals and objectives;
- to carry out the optimal selection of topics and distribution of material within the time allocated for training;
- to develop didactic tools and techniques that make it possible to reproduce in the educational process the procedure for analyzing a software product at various levels of problematicity;
- have available methodological developments and handouts with tasks corresponding to the future specialty;
- select a list of appropriate teaching methods and model teaching activities in accordance with the objectives and goals;
- to develop a system of tasks that allows students to develop experience in analyzing software tools for the implementation of the set problems;
- provide for a variety of types of teaching activities, taking into account the level of training of students;
- allocate time for monitoring and evaluating work;
- articulate what students need to know and be able to do.

In modern conditions, information competence can be attributed to universal competence, which is strongly promoted by the entry into the Bologna Agreement and the deepening processes of informatization of all spheres of human activity.

Information competence should be understood as the formed skills to independently search, analyze and select the necessary information, organize, transform, save and transmit it using ICT.

The potential of ICT – learning is manifested in many ways, while opening up certain opportunities:

Məqalədə Xalq şairi Vahid Əziz poeziyasının onomastik leksikası təhlilə cəlb edilmişdir. Şairin poeziyasında toponimlər, antroponimlər, hidronimlər işləkliyi ilə diqqəti cəlb edir. Söz sənətkarı antroponimlərdən üslubi priyom kimi istifadə etsə də, eyni zamanda oxucularını tarixi şəxsiyyətlərimizi tanımağa çağırır. Belə ki, Babək, Koroğlu, Cavad xan və digər xalq qəhrəmanlarının adını yad etməklə, həm Azərbaycan xalqının görkəmli nümayəndələrini xatırladır, həm də xalqın qəhrəmanlığını simvolizə edir.

Şairin şeirlərində Azərbaycan və Qarabağ toponimləri ən uca zirvədədir. “Qarabağ” toponimi Vahid Əziz şeiriyyətində azadlıq rəmzidir. Şairin şeirlərində demək olar ki, Qarabağın bütün ərazilərinin adlarına rast gəlirik. Şuşa, Cıdır düzü ən çox adları çəkilən toponimlər sırasındadır.

Zəngəzur toponiminə müraciət edərkən tarixə ekskurs edən şair Azərbaycanın ikiyə bölünməsinə etiraz edir və Zəngəzuru tarixi Azərbaycan torpağı kimi vəsf edir.

Nəticə olaraq deyə bilərik ki, Vahid Əziz poeziyasında xüsusi adların işləklik dairəsi genişdir və bədii ədəbiyyatda xüsusi çəkiyə malik onomastik vahidlərin öyrənilməsi onomalogiya üçün xüsusi əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** *onomastika , antroponim, toponim, Qarabağ, Vahid Əziz*

**Gulnar Rzayeva**
Azerbaijan University of Languages
Ph. D. student
gulelekber33@mail.ru

## Onomastics in Vahid Aziz’s poetry

**Abstract**

The study of onomastics, a young branch of linguistics, has always been an actual topic. In this sense, poets’ and writers’ works play an essential role in the study of onomastic units. The article analyses the onomastic vocabulary of the poetry of the folk poet Vahid Aziz. Toponyms, anthroponyms, and hydronyms in the poet’s poetry stand out in their functionality. Although the artist of the word uses anthroponyms as a stylistic devise, he also calls his readers for getting acquainted with our historical figures. By mentioning the names of such folk heroes as Babek, Koroghlu, Javad Khan, he not only reminds of outstanding representatives of the Azerbaijani people, but also symbolises the heroism of the nation. Toponyms “Azerbaijan” and “Karabakh” take the highest peak. The toponym “Karabakh” is the symbol of freedom in Vahid Aziz’s poetry. It can be said that in the poet’s poems we find the names of all the territories of the Karabakh region. "Shusha" and "Jidir duzu" are the most mentioned toponyms Referring to the toponyme “Zangazur” the poet, making an excursion into history, protests against the division of Azerbaijan and glorifies Zangazur as the historical land of Azerbaijan. In conclusion it can be said that the scope of the use

of proper names in the poetry of Vahid Aziz is wide, and the study of onomastic units that have special weight in fiction is of a particular importance for onomastics.
***Keywords:*** *onomastics, anthroponym, toponyme, Karabakh, Vahid Aziz*

## Giriş

Dilçilikdə onomastik leksikanın öyrənilməsi daim aktual məsələlərdən olmuşdur. Bu mənada şair və yazıçıların əsərlərində işlənən onomastik leksikanın öyrənilməsi də maraq doğurur. Azərbaycanın Xalq şairi Vahid Əziz poeziyası eyni zamanda öz onomastik vahidləri ilə də zəngindir. Bu poeziyada biz şairin düşüncəsini əhatə edən Ana vətənimizin müxtəlif guşələrinin təsvirini görə bilirik. Vahid Əziz poeziyası vətən duyumlu poeziyadır. Bu poeziyada biz doğma məmləkətimizin hər bir guşəsinə məhəbbət dolu fikirləri görə bilirik. Şairin şeirlərində doğma Azərbaycanımızın tarixi yaddaşını özündə saxlayan və günümüzə qədər çatdıran onomastik vahidlərə də tez-tez rast gələ bilirik. Vahid Əziz sanki öz poeziyası ilə bu yerləri bir daha gənc nəslə xatırladır, onları doğma elimizə xəyali ekskursiyaya aparır. Bu mənada Vahid Əziz poeziyasında yer, yurd adlarımıza tez-tez rast gəlinir. Ümumiyyətlə, "*bədii əsərləri toponimsiz təsəvvür etmək çətindir"* (İslamzadə, 2008: 107).

Vahid Əziz poeziyasında vətənə bağlılığı, vətən torpağına sevgisinin təzahürünü onun şeirlərində işlənən xüsusi adlarda da görə bilirik. Hər bir xüsusi ad dilin tarixi yaddaşı ilə bağlı qiymətli bir mənbə rolunu oynayır. Şairin şeirlərində həm toponimlərə, həm də antroponimlərə rast gələ bilərik. Onun işlətdiyi antroponimlər üslubi vasitə daşımaqla yanaşı, həm də tarixi yaddaş baxımından oxucuya sanki xatırlatma edir, onu öz tarixi şəxsiyyətlərini tanımağa çağırır. Şair yazır:

Nizaminin yeri Gəncəm,
Nəsimi tək hələ gəncəm,
Sabir qalxar göylərəcən –
Mənim kimi nəvəsi var!

Füzulim şahlar şahıdır,
Söz mülkinin Allahıdır,
Bir çıraqdır – hələ yanır –
Nə müqəddəs nəfəsi var! (Əziz, 1997: 193)

Göründüyü kimi, şair Azərbaycanın şairlərinin adlarını sadalamaqla həm də xalqımızın böyük övladlarının hələ də davamçılarının olduğunu qeyd edir. Şairin digər şeirlərində də antroponimlərə rast gəlirik. Məlumdur ki, antroponimlər bədii ədəbiyyatda xüsusi çəkiyə malikdir. Xalqımızın ən qədim şifahi və yazılı ədəbiyyatında da tez-tez antroponimlərə rast gələ bilirik. Bayatılarda kifayət qədər onomastik leksikanın olduğunu qeyd edən Ə. Əliyev yazır: "Bayatılarda canlı xalq ifadələri, söz düzümü, zəngin leksik tərkibi; onomastik vahidlər, antroponimlər və toponimlər dilimizin hərtərəfli tədqiqi üçün zəngin mənbə sayılır" (Əliyev, 2021: 8, 208).

Vahid Əziz poeziyasında antroponimlər da xüsusi rola malikdir. Şair daha çox dilimizdə məşhur olan şəxs adlarına müraciət edir və bu adlardan üslubi vasitə kimi məharətlə istifadə edir.

El yolunda üsyan etdi Babəklər,
Cavad xanı, Koroğlunu gəzirəm,
Müdriklərə: "köhnə-köşə" dedilər,
Həm yalanı, həm doğrunu gəzirəm (Əziz, 2023: 392).

Nümunədən də göründüyü kimi, şair Azərbaycan tarixinin görkəmli nümayəndələrini xatırlamaqla xalqımızın tarixinin necə qədim olduğunu bir daha yada salır. Məlumdur ki, bu adlar Azərbaycan xalqının tarixində xüsusi yer tutur və xalqın qəhrəmanlığını simvolizə edir. Maraqlıdır ki, "Babək" sözünün özü də lüğətlərdə "başçı" mənasında izah edilir. "Babək – "böyük" və "bəy" sözlərindən düzəlmiş, "başçı" anlamındandır (IX əsr xalq qəhrəmanı Həsənin ikinci adından

yayılmışdır) (Paşayev, 2011: 105). Bəzi tədqiqatlarda isə bu söz nisbətən fərqli izah edilir. Məsələn, F. Qurbanova bu barədə danışarkən yazır: "Babək dilimizdə qədim sözlərdən olan baba sözündəndir. Qədim türk mənşəli sözlərdən olub, əksər mənbələrdə baba sözünün nəvazişli forması sayılır. Mənbələrin əksəriyyətində sözün kökündə duran baba sözü "ata", Babək isə "atacan", "başçı" kimi izah edilir" (Qurbanova, 2019: 116). Bəzi tədqiqatlarda bu söz İran mənşəli "hökmdar", "ağa" sözləri ilə izah edilir (6). Amma göründüyü kimi, bütün hallarda bu söz daha çox "başçı", "ağa" sözləri kimi izah edilir. "Cavad" sözünün mənası da maraq doğurur. F. Qurbanova bu sözü fars mənşəli hesab edir. "Cavid əslində parfiyalıların dilindən daxil olmuş sözlərdəndir. Cavid kişi adı daimi, həmişəlik, həmişəyaşar, əbədi, ölməz mənalarını ifadə edir (Qurbanova, 2019: 171).

Şair Babəki, Cavad xanı, Koroğlunu yad etdikdən sonra, Məmməd Arazı da xatırladır və özü ilə onu müqayisə edir:

Kökləmişəm, tarım "Cəngi" üstədi,
Bizi kimi Yurda yanmaz yabançı!
Məmməd Araz "Mamır olmaq" – istədi,
Mən qayada itilədim qılıncı! (Vahid, 2023: 392)

Ümumiyyətlə, Vahid Əziz poeziyası üçün şairlərə müraciət, onların poeziyasına münasibət xüsusi əhəmiyyət kəsb edir. Şair daim söz sənətkarlarını xatırlamaqla şeirə sanbal, özünəməxsus ruh yüksəkliyi gətirir. Şairliyi tanrı vergisi hesab edən şair yazır:

Qanı ucuz olan sıravilərin,
Şairlik – Tanrıdan sərkərdə rütbəm!
Hayqırıb hücuma səsləyənlərin
Çoxusun savaşda görə bilmədim.

Bu mənada şair özünü Füzuli, Cavid kimi sənətkarlarla eyni cərgədə görür:

Cəhd edib dövranla qaldım təkbətək –
Füzuli timsalı, Cavidsayağı,
Hamımız bu yurda övladlıq etsək
Bir daha yenilməz Vətən bayrağı!

Şair Müşfiq timsalında şairlərə hökm oxuyanların övladlarının şairin ruhuna səcdədə durduğunu qeyd edir:

Amma ki, bir həzin təskinliyim var;
Torpağın ürəyi köksümdə vurur,
Babası Müşfiqə hökm oxuyanlar
Şairin ruhuna səcdədə durar... (Vahid, 2023: 394)

Vahid Əziz poeziyasının özünəməxsusluğu həm də onun hadisələrə münasibətində özünü göstərir. Şair özünü Füzuli, Cavid kimi şairlərlə müqayisə edir:

Cəhd edib dövranla qaldım təkbətək –
Füzuli timsallı, Cavidsayağı,
Hamımız bu Yurda övladlıq etsək
bir daha yenilməz Vətən bayrağı! (Vahid, 2023: 393)

Əlbəttə, şairlərin əksəriyyətində olduğu kimi, Vahid Əziz poeziyası üçün xarakterik xüsusiyyətlərdən biri də şairin öz adını şeirlərində verməsidir:

Gedər VAHİD ƏZİZ vaxtı bitəndə,
Tutduğu bir gözəl yoldu Vətəndə,
Görmüşdüm atamla dostluq edəndə –
Zadəgan insanlar yadıma düşdü... (Vahid, 2023: 342)

Məlumdur ki, antroponimlər insan adlarını bildirir və ictimai həyatın məhsulu olduğundan cəmiyyətdə və ictimai həyatda olan bütün hadisələri, yəni siyasi, iqtisadi və mədəni prosesləri özündə əks etdirir (Paşayev, 2015: 152). Vahid Əziz poeziyasında antroponimlərdən üslubi vasitə kimi də istifadə edir.

Digər xalqlarda olduğu kimi, Azərbaycan xalqının da daşıdığı antroponimlər Azərbaycan xalqının ad sistemini əhatə edir. Bu adlar altında isə hər hansı bir şəxsin cəmiyyətdə digərlərindən fərqləndirici adı yox, həm də soyad, ləqəb, təxəllüs kimi bir sıra kateqoriyalar da asanlaşılır (Xalıqov, 2009: 21).

Ümumiyyətlə, qeyd olunmaldır ki, şair öz şeirlərində onomastik vahidlərin üslubi imkanlarından məharətlə istifadə etmişdir.

Tədqiqatçılar bu qənaətə gəlir ki, "bədii ədəbiyyatda antroponimlərin müxtəlif vəzifələri vardır:

1. Bədii əsərdə iştirak edən personajlar antroponimlərin vasitəsi ilə konkretləşdirilir, yəni onlara fərdi xüsusiyyətlər verilir.
2. Antroponimlər vasitəsi ilə hər hansı bir əsərə milli xüsusiyyətlər, yəni millilik gətirir.
3. Adlarla çox zaman obrazların mənəvi keyfiyyətləri, özünəməxsus xüsusiyyətləri səciyyələndirilir.
4. Bədii əsərin ideyasının daha təsirli alınması üçün söz sənətkarı antroponimlərdən bədii üslubi vasitə kimi istifadə edir.
5. Bədii əsərdə işlədilən hər bir personajın adı bizə onun yaşadığı tarixi dövr haqqında məlumat verir.
6. Söz sənətkarının doğru ad seçimi eyni zamanda oxucunun bədii əsərə olan marağını artırır (Mikayılova, 2008: 18).

Vahid Əziz poeziyasında diqqətçəkən məqamlardan biri də toponimlərin işlənməsidir. Şairin əsərlərində toponimlər xüsusi yer tutur. Heç şübhəsiz, şairin şeirlərində ən uca yeri Azərbaycan toponimi tutur. Bu ad hər bir vətənpərvər övladda olduğu kimi, Vahid Əziz poeziyasında da həmişə qürur və sevgi ilə xatırlanır.

Şair Azərbaycana həsr etdiyi şeirə "Ömrüm, günüm" adını verir:

Səhərlərin bir-birindən işıqlı gələr,
Yol yoldaşın Günəş oldu göyə ucaldın.
Dağın gülər, çölün gülər, çəmənin gülər,
Ömrüm, gülüm, canım, qanım,
Azərbaycanım (Əziz, 1980: 7).

Göründüyü kimi, şair Vətənimiz Azərbaycanı vəsf edərkən onun çöllərinin, dağlarının, çəməninin güldüyünü qeyd edir. Şair Vətən oğluna Azərbaycanın dar günündə onun yanında olmağı tövsiyə edir:

Hayıf burda, buralarda olmadım,
Azərbaycan sıxılanda dar günə,
mübariz ol, sipərə dön övladım –
qoyma bir də göndərilək sürgünə! (Əziz, 2023: 392)

Şeirdə şair Azərbaycanı vətənin simvolu kimi xarakterizə edir. Xüsusən də vətənin həm dar, həm də şən günündə Azərbaycan xalqın and yeri, güvən yeridir.

Yüz illərdir aldanırıq – anmırıq,
Dərs olmadı nə Zəngəzur, nə Araz!
Azərbaycan! Niyə bunu qanmırıq?!
Sən olmasan – heç kəs bizi yaşatmaz! (Əziz, 1997: 75)

Şeirdən də göründüyü kimi, şair tarixə ekskurs edir, Azərbaycanın ikiyə bölünməsinə, Zəngəzur torpaqlarının ermənilərə güzəştə gedilməsinə etiraz edir. Bütün dərdlərə, verilən torpaqlara baxmayaraq, bundan dərs almadığımıza etiraz edir. Məlumdur ki, Zəngəzur tarixi Azərbaycan torpaqlarıdır. Bu sözün mənası da dilçilik baxımından maraq doğurur. “Azərbaycan toponimlərinin ensiklopedik lüğəti”ndə *Zəngəzur silsiləsi* söz birləşməsinin izahı verilir. Lüğətin müəlliflərinin fikrincə, “bəzi tədqiqatçıların dağın adını *zəngi / zəngə* tayfa adı ilə bağlayırlar. Əsasən, qranit və qranodoritlərdən təşkil olunduğuna görə oronimin qəd. fars dilindəki *zəng* komponentinin *səng* (daş, qaya) sözündən ibarət olması fikri daha ağlabatandır. Oronim *zəng / səng* (qaya, daş) və *zur* (uzun) komponentlərindən düzəlib, “uzun qaya, daş” mənasındadır” (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007: 295).

B. Ə. Budaqov və Q. Ə. Qeybullayev bu sözü İran mənşəli kürd tayfaları ilə bağlayırlar. “Mənşəcə Zəngə Anadoluda yaşamış nüfuzlu kürd tayfasıdır. XVI əsrin əvvəllərində qızılbaşlara qoşulmuş, kürd mənşəli türkləşmiş Zəngi tayfasının adındandır” (Budaqov, Qeybullayev, 1998: 262). İ. Bayramova görə isə, “Zəngəzur” türk mənşəli toponim olmaqla etnotoponimdir (Bayramov, 2023: 18). Fikrimizcə, dilçi alimin bu fikri daha doğrudur.

Gah Kür qana batdı, gah Arpa çayı,
Bir Korla bir Topal yıxdı o tayı (Əziz, 2023: 184).

Göründüyü kimi, şair yenə tarixi hadisələrə diqqət çəkir, Azərbaycan xalqının başına gətirilən hadisələri bir daha yada salır. Şeirdə maraq doğuran adlardan biri də Arpaçay hidronimidir. “Arpaçay Ermənistan və Azərbaycanın Şərur rayonu ərazisindən axan çay Arpa, Şərqi Arpaçay da adlanır, Araz çayının sol qoludur. Vardanis silsiləsindən 3100 m hündürlükdən başlanır. Yazılı mənbələrdə adına ilk dəfə XII əsrdən təsadüf edilir. XVI əsrə aid mənbələrdə də Arpaçay hidronimi haqqında məlumat verilir. Hidronim *arpa* etnonimi və *çay* (axar su hövzəsi) sözlərindən düzəlib, etnotoponimdir” (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, I cild, 2007: 48). Göründüyü kimi, şair əsərlərində daha çox gəzdiyi əraziləri, gördüyü yerlər haqqında yazır və onları tərənnüm edir.

Artıq qeyd etdiyimiz kimi, şairin şeirlərində onun gəzdiyi, gördüyü yer adlarına daha çox rast gələ bilirik. Xüsusilə, vətənə – Azərbaycana, Bakıya, Qarabağa həsr edilmiş şeirlər diqqət çəkir. Şairin Xəzər dənizinə həsr etdiyi şeir maraq doğurur:

Sevdim səni, gözəl Xəzər,
Altın meşə, üstün xəzəl,
Balıqların çılpaq, gözəl...
Bu qədər də ovsun olar? (Əziz, 2023: 11)

Dilçiliyimizdə “Xəzər” hidroniminin adı ilə bağlı maraqlı fikirlər də mövcuddur. Bu söz Azərbaycan ədəbiyyatında kifayət qədər geniş işlənir. Maraqlı cəhət ondan ibarətdir ki, hidronimlərlə bağlı, xüsusən də Kür və Araz sözlərinin etimologiyası ilə bağlı kifayət qədər tədqiqatlar olsa da, nədənsə Xəzər sözü haqqında tədqiqatlar azdır. Bu sözün etimologiyası dilçilər tərəfindən az tədqiq olunmuşdur. Adətən, bu söz Kaspi tayfalarının adı ilə əlaqələndirilir. Bu sözün etimologiyasından danışarkən B. Əhmədov da bu sözü Xəzər tayfaları ilə bağlayır. Alimin fikrincə, Kaspi sözü Qafqaz dağlarının adındakı Qaf sözü ilə eyni sözdür (Əhmədov, 2017: 126).

Şair şeirlərində Xəzər və Kür sözlərini bir çox hallarda qoşa işlətməklə sanki onların ayrılmazlığını vəsf edir.

Göy Xəzər Kürü çəkər,
balığı diri çəkər,
satanları iri çəkər,
alanları xırda-xırda (Əziz, 2023: 389).

Ə. Dəmirçizadə də Qaspi tayfalarının Azərbaycan etnik tərkibində ən qədim zamanlardan iştirak etdiyini və qaspi adının onlara sonradan verildiyini qeyd edir. Alimin fikrincə, bu sözün sonuncu hecası "pi" Bisütun qayalarındakı mixi yazılarının ikinci qolunun dilindən – Elam dilindən götürülüb, cəm bildirən şəkilçidir. Bu yazılarda həmin şəkilçinin "el", "tayfa", "qəbilə", "yurd", "ölkə" mənalarını ifadə etdiyini qeyd edən alim, "Qaspi, yaxud Kaspi tayfasının əsl adının Qas/Kas olduğu qənaətinə gəlir.

Daha sonra alim yazır: "Əslində baxılsa, VII əsrin sonlarında məlum olan "Xəzər" adı ilə "Qaspi" adı arasında məzmun etibarı ilə və dil vahidlərinin nisbət dəyərinə görə heç bir fərq yoxdur: çünki hər iki sözün birinci hissəsi tayfanın adını "qas/xaz" şəklində bildirdiyi kimi, hər iki sözün ikinci hissəsi də cəm mənasını bildirən "pi", "ar" şəkilçilərindən ibarətdir. Bu adların hər ikisinin də eyni əsldən və eyni məzmunlu olduğunu, eyni dənizin həm "Kaspi", həm də "Xəzər" adlanması ilə də izah etmək olar" (Dəmirçizadə, 1968: 31).

Şairin Xəzərlə bağlı şeirlərində həm də bir canlılıq var.
Dənizlə insanlar çox vuruşubdu,
Xəzərdə buruqlar tutub əl-ələ,
Bəlkə də Xəzərin qaydasıdır bu, –
İnsanı görəndə sevinir belə?

Şairin şeir həsr etdiyi yerlərdən biri də Bakıdır. Və çox maraqlı cəhətlərdən biri də odur ki, bu şeir həm də Bakı haqqında yazılmış ən gözəl nəğmələrdən birinə çevrilib:

Bakı, İçərişəhər,
Şirvanşahlar sarayı,
Bakı – Odlar diyarı,
Adın dastana dönüb –
Dünyanın dilindədir.
Bakım mənim,
Qanım mənim (Əziz, 2023: 353).

Bakı haqqında yazılan şeirlər çoxdur, amma şeirlər içərisində bu şeir xüsusi yer tutur. Burada göründüyü kimi, şair Bakını tam təsvir edir, İçərişəhər, Şirvanşahlar sarayı xüsusi ilə vurğulanır. Şair eyni zamanda Bakını həmişə cavan şəhər kimi xarakterizə edir:

İllər ötüb qocaldı,
amma sən qocalmadın,
Abşeron bir qanadın,
Xəzərim bir qanadın,
adın dastana dönüb –
dünyanın dilindədir.
Canım-gözüm,
Bakım mənim (Əziz, 2023: 353).

Göründüyü kimi, Bakı şairin qəlbində özünəməxsus yeri olan və tərənnümə layiq bir məkan kimi nəzmə çəkilir.

Bakı ilə yanaşı şair üçün Sumqayıt da doğmadır, vətənin bir hissəsidir. Bu səbəbdən Vahid Əziz poeziyasında Sumqayıta da bir neçə şeir həsr olunur. Şairin Sumqayıtı vəsf etməsi özünəməxsusluğu ilə seçilir:

Gördüyüm şəhərlərin dəliqanlı, qıvrağı,
Mərd ürəkli igidlər yerişiydi Sumqayıt,
Sabahlara qovuşan Azərbaycan növrağı,
Qayğılı bənizlərin gülüşüydü Sumqayıt (Əziz, 2023: 387).

Lakin şairin şeirlərində qırmızı bir xətt kimi "Qarabağ" toponimi keçir. Şübhəsiz, hər bir Azərbaycan vətəndaşı üçün bu toponim həm də Vətən simvolu, azadlıq rəmzidir. Bu mənada Vahid Əziz poeziyası da özünəməxsusluğu ilə seçilir. Xüsusən də Qarabağ torpaqları azadlığa qovuşandan sonra şairin bu mövzuda yazdığı şeirlərdə Qarabağ başqa bir məzmun kəsb edir. Azadlıq ruhu sanki bu şeirlərdə önə çıxır, hər bir misrada sevinc, qürur, duyğusallıq xüsusi bir çalar qazanır.

Azad olan Qarabağım daha şaqraq güləcək,
Alçalmadıq! – yeni nəsil bizi Kişi biləcək,
İlk misramdan bir pərvanə — "Vahid Əziz" – deyəcək
"Özgəsinə bənzəməyən yazısınnan tanıdım..." (Əziz, 2021: 11).

Şairin şeirlərində Qarabağın bütün ərazilərinin də adlarına rast gələ bilirik. Bura işğaldan azad olunmuş bütün əraziləri aid etmək olar. Şairin Cıdır düzünü qeyd etməsi xüsusi maraq doğurur.

Məlumdur ki, Cıdır düzü Azərbaycan xalqı üçün xüsusi əhəmiyyət kəsb edir. Məhz Cıdır düzündə yağı düşmənin Azərbaycana meydan oxuması ona baha başa gəldi. Bu hadisəyə eyham edən şair yazır:

Qələbə gətirdi Bayraq özüylə,
Günü başlamaqda – "Vətən" sözüylə,
Yağı elə bildi "Cıdır düzüylə",
Keflənib, hallanıb yerimək asan (Əziz, 2021: 18).

Məlumdur ki, Şuşa şəhərinin yaxınlığında dağın üstündə düz olan Cıdır düzü Ağzıyastı qaya, Üçmıx, Qırxpilləkən, Gəlin qayası, Xəzinə qayası, Topxana adlı sıldırım qayalar və meşələrlə əhatə olunmuş mənzərəli yerdədir. Vaxtı ilə (1935-ci ilədək) burada müntəzəm olaraq cıdır yarışları keçirildiyi üçün ərazi belə adlandırılmışdır (Azərbaycan toponimlərinin ensiklopedik lüğəti, 2007: 122).

## Nəticə

Beləliklə, məqalədən belə nəticəyə gəlmək olar ki, Vahid Əziz poeziyasında xüsusi adlar üslubi məqamlarda geniş işlənir və dilimizin imkanları baxımından xüsusi əhəmiyyət daşıyır.

## Ədəbiyyat

1. İslamzadə, M. (2008). Azərbaycan "yeni nəsrinin" dili və üslubu. Bakı: Çaşıoğlu, 240 s.
2. Vahid, Ə. (1997). Dözmək olmur (şeirlər və poemalar). Bakı: Gənclik, 212 s.
3. Əliyev, Ə. (2021). Bədii ədəbiyyatda onomastik vahidlər. Bakı, Elm və təhsil, 208 s.
4. Vahid, Ə. (2023). Səninlə… seçilmişlərdən seçmələr (1966-2023). Bakı: Azərnəşr, 429 s.
5. Paşayev, A., Bəşirova, A. (2011). Azərbaycan şəxs adlarının izahlı lüğəti. Bakı: Mütərcim, 340 s.
6. https://famiry.ru/database/names/babek
7. Qurbanova, F. (2019). Azərbaycan şəxs adları. İzahlı lüğət. Bakı, 1328 s.
8. Paşayev, A. (2015). Azərbaycan antroponimikası. Bakı: Elm və təhsil, 320 s.
9. Xalıqov, F. (2009). Azərbaycan onomalogiyası (folklor əsasında). Bakı: Müəllim, 242 s.

10. Mikayılova, Ə. N. (2008). Onomastik vahidlərin üslubi imkanları (XIX əsrin ikinci yarısında yaranmış nəsr əsərlərinin materialları əsasında linqvistik tədqiqat). Bakı: Memar Nəşriyyat-Poliqrafiya, 302 s.
11. Vahid, Ə. (1980). İllərin baharı (şeirlər və poemalar). Bakı: Yazıçı, 133 s.
12. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). İki cilddə, II cild. Bakı: Şərq-Qərb, 304 s.
13. Budaqov, B. Ə., Qeybullayev, Q. Ə. (1998). Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti. Bakı: Oğuz eli, 452 s.
14. Bayramov, İ. (2023). Tarixi Azərbaycan torpağı Qərbi Zəngəzur. Ankara, 373 s.
15. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. (2007). İki cilddə, I cild. Bakı: Şərq-Qərb, 304 s.
16. Əhmədov, B. (2017). Azərbaycan dilinin etimologiyası. Bakı: Altun kitab, 126 s.
17. Dəmirçizadə, Ə. (1968). 50 söz. Bakı: Gənclik, 104 s.
18. Vahid, Ə. (2021). Param-parça illər. “Qarabağ dəftərindən” seçmələr: 1988-2021 (şeirlər və poemalar). Bakı: Azərnəşr, 239 s.

Göndərilib: 16.05.2024 Qəbul edilib: 26.06.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/66-69

**Tural Dadashov**
Azerbaijan National Academy of Science
Ph. D. student
tural1995pa@gmail.com

# SOUTH CAUCASUS AFTER THE SECOND KARABAKH WAR: GEOPOLITICAL REALITIES

## Abstract

This article provides an advanced analysis of the geopolitical transformations in the South Caucasus following the Second Karabakh War, emphasizing the diminishing influence of Russia, the proactive roles of Armenia, Azerbaijan, and Georgia, and the increased involvement of external factors such as the European Union and the United States. It discusses the potential emergence of a new security order predicated on regional autonomy and a more balanced external influence, analyzing the implications for regional and international stability. The paper utilizes a comprehensive array of sources to enhance the understanding of the evolving geopolitical dynamics

***Keywords:*** *South Caucasus, Second Karabakh War, geopolitical shifts, regional security, external actors, Russian influence, Armenia, Azerbaijan, Georgia*

**Tural Dadaşov**
Azərbaycan Milli Elmlər Akademiyası
doktorant
tural1995pa@gmail.com

## İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqaz: geosiyasi reallıqlar

## Xülasə

Bu məqalə İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda geosiyasi transformasiyaların irəli sürülmüş təhlilini təqdim edir. Rusiyanın azalan təsiri, Ermənistan, Azərbaycan və Gürcüstanın fəal rolları, eləcə də Avropa İttifaqı və Amerika Birləşmiş Ştatları kimi xarici aktorların artan iştirakı vurğulanır. Regional müstəqilliyə və daha balanslaşdırılmış xarici təsirə əsaslanan yeni təhlükəsizlik düzənin potensial meydana çıxması, regional və beynəlxalq sabitlik üçün nəticələrinin təhlili müzakirə olunur. Məqalə, geosiyasi dinamikaların inkişafını analiz etmək üçün geniş mənbələr toplusundan istifadə edir.

***Açar sözlər:*** *Cənubi Qafqaz, İkinci Qarabağ müharibəsi, geosiyasi dəyişikliklər, regional təhlükəsizlik, xarici aktorlar, Rusiya təsiri, Ermənistan, Azərbaycan, Gürcüstan*

## Introduction

The geopolitical landscape of the South Caucasus has experienced profound transformations following the Second Karabakh War, a conflict that not only redrew territorial lines but also reshaped the power dynamics of the region. Nestled at the crossroads of Eastern Europe and Western Asia, this pivotal region has historically been a cauldron of complex inter-ethnic tensions, geopolitical competitions, and strategic alliances. The aftermath of this significant conflict has unraveled a multifaceted geopolitical narrative involving a weakening of Russian hegemony, assertive national policies by Armenia, Azerbaijan, and Georgia, and an increase in the roles of external actors such as the European Union and the United States (Huseynov, 2023).

Historically, the South Caucasus has served as a crucial arena for Russian influence, acting as a buffer zone against Western penetration and a conduit for projecting power into the Near and Middle East (Smith, 2020). However, recent developments suggest a notable decline in this influence, precipitated by internal economic challenges within Russia and strategic distractions,

particularly its involvement in Ukraine (Jones, 2022). These changes provide a unique opportunity to study the shifts in influence and strategy from a predominantly Russo-centric control to a more diversified and possibly multi-polar regional order. Moreover, the local states of Armenia, Azerbaijan, and Georgia, each with distinct cultural, political, and historical trajectories, have responded to these shifts in diverse ways. Armenia finds itself reevaluating its security and foreign relations considering the war's outcomes and its traditional reliance on Russian support (Thompson & Patel, 2021). Azerbaijan, buoyed by military successes, has been assertively marking its sovereignty and expanding its diplomatic engagements beyond its historical allies (Davies, 2021). Georgia continues to navigate its Euro-Atlantic aspirations while managing the threats and pressures from Russian influence (Clark, 2022). The involvement of Western powers has also seen a significant uptick. The European Union and the United States, seeking stability and a reduction in Russian influence near their borders, have increased their diplomatic and economic investments in the region (Williams, 2022; Harris, 2022). This Western engagement is not merely a counterbalance to Russia but also a reflection of the strategic importance of the South Caucasus in global geopolitics, encompassing energy routes, security concerns, and the promotion of democratic governance.

## Decline of Russian Hegemony

The decline of Russian influence in the South Caucasus marks a significant shift in regional power dynamics, evident through economic, political, and strategic lenses. The impact of Western sanctions has been profound, severely curtailing Russia's economic capabilities. These sanctions, initially imposed due to geopolitical conflicts and human rights concerns, have strained Russia's economy, reducing its financial flexibility to sustain and expand its regional influence (Johnson, 2022). The economic sanctions coupled with global economic downturns have hindered Russia’s investments in military and infrastructural projects in the South Caucasus, which were once instrumental in maintaining its leverage over the region. Politically, Russia's traditional tools of influence — diplomatic pressure, political alliances, and support for friendly regimes — have seen diminishing returns. The effectiveness of these tools has waned as local governments in Armenia, Azerbaijan, and Georgia have started pursuing more autonomous foreign policies. These shifts are partly in response to internal pressures for greater sovereignty and partly due to increasing support from Western nations, which offer alternative models of development and security (Brown, 2022). Russia’s historical strategy of using “soft power” through cultural and political means to maintain a sphere of influence has been less effective as local populations and governments reassess their geopolitical alignments (Adams, 2023).

Strategically, Russia’s missteps and a perceived retreat from active conflict resolution have further eroded its stature. This was particularly evident during the recent Armenia-Azerbaijan negotiations, where Russia was unable to assert its role as a mediator effectively, allowing more space for the European Union and the United States to step in (White, 2023). Russia's hesitant and sometimes contradictory actions in these negotiations revealed a lack of coherent strategy, reflecting broader uncertainties in its foreign policy directives (Clarkson, 2022).

Moreover, Russia’s military commitments in other regions, notably in Ukraine, have stretched its resources thin, leading to a recalibration of its priorities and capabilities in the South Caucasus. This overextension has led to a strategic vacuum, diminishing Russia's immediate responses to regional crises and lowering the confidence of its traditional allies in the area (Davis, 2021). The cumulative effect of these economic, political, and strategic declines has significantly altered the geopolitical fabric of the South Caucasus. As Russia grapples with these multidimensional challenges, the region stands at a crossroads, with local states exploring new alliances and partnerships that previously would have been implausible under the unchallenged Russian dominance (Harris, 2022).

## Azerbaijan

Azerbaijan's strategic realignments post-conflict is marked by its strengthened ties with Turkey, exemplified by joint military drills and defense procurements, enhancing its military and economic

independence from Russian influence (Davies, 2021). Additionally, Azerbaijan's successful reclamation of territories has not only boosted its regional standing but also its confidence in engaging with Western markets to diversify its economic relations (Clarkson, 2022).

**Georgia**

Georgia's ongoing efforts to align more closely with Western institutions are manifest in its active participation in EU and NATO forums and its strategic utilization of U.S. military aid to bolster its defenses against potential Russian aggressions (Clark, 2022). Its strategic navigations are reflective of a broader trend of seeking greater security autonomy in the face of Russian antagonism (Adams, 2023).

**Increased Role of External Actors**

The vacuum left by Russia has been progressively filled by the European Union and the United States, both of which have intensified their diplomatic and economic engagements in the region. The EU's active role in mediating the Armenia-Azerbaijan ceasefire and its subsequent involvement in peacekeeping efforts are indicative of its new strategic priorities in the region (Williams, 2022). Similarly, the United States has increased its geopolitical footprint by engaging in direct diplomatic dialogues with Azerbaijan and Armenia, aiming to stabilize the region and counteract Russian and Iranian influences (Harris, 2022).

**Towards a New Regional Order**

These developments suggest the emergence of a new regional order in the South Caucasus, characterized by diminished Russian influence, proactive local governance, and increased involvement by Western powers. This new order hints at a more balanced power distribution, which could lead to enhanced regional cooperation and stability. However, the sustainability of this new order depends significantly on the continued strategic engagement of local and external actors and their ability to negotiate and manage the complex geopolitical realities of the region (Brown, 2022).

## Conclusion

The geopolitical landscape of the South Caucasus has undergone significant transformation following the Second Karabakh War. The erosion of Russian hegemony, marked by economic sanctions and strategic overextensions, has significantly reduced its influence in the region (Johnson, 2022). Concurrently, Armenia, Azerbaijan, and Georgia have capitalized on this shift to assert greater autonomy and reorient their foreign policies towards more diversified alliances (Clark, 2022). Western involvement has notably increased, with the European Union and the United States stepping in to fill the strategic vacuum left by Russia, influencing peace processes and offering economic and security alternatives to the regional states (Harris, 2022). This shift towards Western engagement is reshaping the regional order into a more multi-polar and balanced geopolitical environment, promising enhanced stability but also presenting new challenges in managing international relations and internal diversities. The future of the South Caucasus will hinge on the ability of its nations to effectively navigate these new dynamics. The evolving geopolitical framework suggests a move towards a region that is not dominated by a single power but characterized by a complex interplay of local and external influences, which could redefine the paths towards regional stability and cooperation.

## References

1. Huseynov, V. (2023). Geopolitics of the South Caucasus in Flux: Towards a New Security Order. Journal of Caucasian Studies.
2. Smith, A. (2020). Economic Pressures and Russian Regional Influence. Stanford: Stanford University Press.
3. Jones, B. (2022). Russian Influence in the South Caucasus: A Declining Trajectory. Harvard International Review.
4. Thompson, J., & Patel, S. (2021). Armenia's Geopolitical Realignments. Yale University Press.
5. Davies, G. (2021). Azerbaijan's Strategic Aspirations. Cambridge: Cambridge University Press.

6. Clark, R. (2022). Georgia's Western Ambitions and Challenges. Oxford: Oxford University Press.
7. Williams, R. (2022). EU Diplomacy in the Caucasus. Brussels: European Policy Centre.
8. Harris, J. (2022). US Foreign Policy in the South Caucasus. Washington, DC: Brookings Institution Press.
9. Johnson, S. (2022). Economic Sanctions and Russia: A Focus on the South Caucasus. Stanford: Stanford University Press.
10. Brown, L. (2022). Shifts in Geopolitical Strategies: Russia's Fading Influence. London: Routledge.
11. Adams, K. (2023). The Waning of Russian Soft Power in the South Caucasus. New York: International Affairs Press.
12. White, K. (2023). European Involvement in the South Caucasus Post-Conflict Negotiations. New York: Columbia University Press.
13. Clarkson, T. (2022). Strategic Missteps: Russia's Foreign Policy in the Caucasus. Journal of International Security Affairs.
14. Davis, E. (2021). Russian Military Engagements and Their Impact on Foreign Policy. Cambridge: Cambridge University Press.

Received: 12.04.2024 Accepted: 21.06.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/70-78

**Ələviyyə Nuri**
Naxçıvan Dövlət Universiteti
doktorant
mayisnuri422@gmail.com
https://orcid.org/0000-0003-4219-1071

# MÜASİR DÖVRDƏ İCTİMAİ TƏRƏQQİ VƏ DİLİN İNKİŞAFI

## Xülasə

Müasir ingilis dilinin tədrisində, onun yeni kommunikativ, interaktiv və imitativ metod və üsullarından istifadə etməklə öyrənilməsində xüsusi dəyişikliklər müşahidə olunduğu üçün bu məqalə müasir ingilis dilinin inkişafının spesifik xüsusiyyətlərinin öyrənilməsinə həsr edilmişdir.

Müasir dövrdə baş verən qloballaşma prosesi universal hesab olunur və həyatımızın bütün sahələrini əhatə edir. Qloballaşma prosesinin dilə təsiri danılmazdır. Qeyd etmək lazımdır ki, qədim zamanlardan müasir dövrlərə qədər dünyanın bütün dilləri müxtəlif səviyyələrdə, əsasən iki proses: diferensiallaşma və inteqrasiya nəticəsində inkişaf etmişdir. Dil sosial hadisədir və insanlar arasında əsas ünsiyyət vasitəsidir. XX əsrin sonu – XXI əsrin əvvəllərində ən çox yayılmış dillər ingilis və çin dilləridir. 1,5 milyard insan hər iki dildən istifadə edir. Çin dilini öyrənmək çətin olduğundan, ingilis dili dünyada qlobal dil hesab olunur. 2050-ci ilə qədər dünya əhalisinin 50 %-dən çoxu ingilis dilində danışacaq.

Bu məqalədə hər bir xalqın mədəniyyəti və tarixi ilə bağlı ədəbi dilin inkişafını tənzimləyən, illər keçdikcə təkmilləşən qaydaları, o cümlədən müasir ingilis dilini zənginləşdirən və bununla da onun zənginliyini artıran informasiya-kommunikasiya texnologiyalarının gündəlik inkişafı araşdırılır.

Məqalədə xüsusilə vurğulanır ki, mədəniyyətlərarası dialoq iki mədəniyyət arasında ünsiyyət deyil, onların sıx qarşılıqlı əlaqəsidir. Dil xalqın milli mədəni kodunun daşıyıcısı kimi insanların həyatında baş verən bütün əlamətdar hadisələri əks etdirir. İstənilən dilin milli-mədəni kodunun özü də leksik vahidlərdən ibarətdir. Mədəniyyətlərarası dialoq müxtəlif xalqların, mədəniyyətlərin və ölkələrin nümayəndələri, qrupları və təşkilatları arasında hörmətə əsaslanan qarşılıqlı ünsiyyəti əhatə edən bir prosesdir. Bu proses dilin lüğətinin inkişafına təsir göstərir.

***Açar sözlər:*** *qloballaşma, ədəbi dil, internet dili, mədəniyyət, mədəniyyətlərarası ünsiyyət*

**Alaviyya Nuri**
Nakhchivan State University
Ph. D. student
mayisnuri422@gmail.com
https://orcid.org/0000-0003-4219-1071

# Social progress and language development at present

## Abstract

Since special changes are observed in the teaching of modern English, in its study using new communicative, interactive and imitative methods and techniques, this article is devoted to the study of the specific features of the development of modern English.

The process of globalization occurring in the modern era is considered universal and covers all spheres of our lives. The influence of the globalization process on language is undeniable. It should be noted that from ancient times to modern times, all languages of the world have developed at different levels, mainly as a result of two processes: differentiation and integration. Language is a social phenomenon and the main means of communication between people. At the end of the XXth and beginning of the XXIst centuries, the most common languages are English and Chinese. 1.5

billion peoples use both languages. As learning Chinese is difficult, English is considered a global language in the world. By 2050, more than 50 % of the world's population will speak English.

This article examines the rules governing the development of the literary language, related to the culture and history of each nation, which are improved over the years, as well as the daily development of information and communication technologies, which enriches modern English and thereby increases its functionality.

The given article especially emphasizes that intercultural dialogue is not communication between two cultures, but their close interaction. Language as a carrier of the national cultural code of a nation reflects all significant events in people's lives. The national cultural code of any language itself consists of lexical units. Intercultural dialogue is a process that involves mutual communication based on respect between representatives, groups and organizations of different nations, cultures, and countries. This process influences the development of language vocabulary.

***Keywords:*** *globalisation, literary language, internet language, culture, intercultural communication*

## Giriş

Çağdaş dövrümüzdə baş verən qlobalizasiya prosesi həyatımızın bütün sferalarını əhatə edərək universal sayılır. Qloballaşma prosesinin dilə təsiri təkzibolunmazdır.

Bəşər yaranandan bəri insanların neçə dildə danışdığını tam müəyyən etmək mümkün deyildir. Hazırda dünya əhalisinin 7000-dən artıq dildə danışdığı qeyd edilir. Dünya əhalisinin 66 %-i ən çox 40 dildən istifadə edir. Bu rəqəmlərin dəqiq olmaması səbəbi müxtəlif materiklərdə məskunlaşmış dünya əhalisinin müəyyən hissəsinin hələ də tayfa şəklində yaşamasıdır. Elə dillər vardır ki, ondan istifadə edənlərin sayı getdikcə azalır və nəticədə, dil ölür, yəni artıq istifadə olunmur. Beləliklə də əsrlər keçdikcə bir çox dillər heç bir iz qoymadan itirilir. Hər ay bir dil gündəlik istifadədən çıxır. Müasir zamanda 400 dil tam istifadədən çıxmaq təhlükəsini yaşayır. Bunlar ən çox Avstraliya, Afrika və Amerika aborigenlərin dilləridir. Əksinə, Avropa dilləri daha geniş şəkildə öyrənilir və istifadə edilir. Yaşadığımız XX əsrin sonu XXI əsrin əvvəlində ən geniş yayılan ingilis və çin dilləridir. Hər iki dildən 1,5 mlrd insan istifadə edir. Çin dilinin öyrənilməsi çətin olduğundan dünyada ingilis dili qlobal dil sayılır.

"Dil nədir?" sualına cavab axtarsaq, deyə bilərik ki, dil insanların ən böyük kəşfi olub, ümumilikdə insan həyatının bütün sahələrini əhatə edir. Dil ictimai hadisədir və insanlar arasında əsas ünsiyyət vasitəsidir. İnsanların dilə olan tələbatı hətta qidaya, havaya, yuxuya olan tələbatla eyniləşdirilir. Cəmiyyət inkişaf etdikcə dilə tələbat da artır. Dilin yeni sözlərlə zənginləşməsi və mövcud mənalarının dəyişilməsi həyatda və ictimai fikirdə yaranan yeni inkişafla əlaqədardır. Dilin lüğət tərkibi tələbatla bağlı müxtəlif dəyişikliklərə məruz qalır. Ümumiyyətlə, dil yarandığı gündən belə yeniləşmələrə məruz qalır ki, bu proses əsrlər boyu Azərbaycan dilindən də yan keçməmiş, müasir dövrdə də özünü daha qabarıq şəkildə göstərmişdir. Sürətli texnoloji proseslərin getdiyi, xalqların və mədəniyyətlərin daha da yaxınlaşdığı, qloballaşma meyillərinin artdığı bir zamanda bu hal müasir dövrdə zərurətə çevrilir. Dünya ilə ünsiyyət nəticəsində yaranan yeni münasibətlər texnoloji dəyişikliklər dilə özləri ilə birgə bu dinamik prosesləri ifadə edən yeni sözlər də gətirir (Məhərrəmli, 2008: 7).

Dünya dilləri qədim dövlərdən müasir dövrədək əsasən iki proses nəticəsində müxtəlif səviyyələrdə inkişaf etmişlər: diferensiasiya və inteqrasiya. Qohum dillərin əsasında məhz diferensiasiya prosesi durur. Yəni qədim dövrlərdən müxtəlif şərtlər altında tayfaların, qəbilələrin parçalanması nəticəsində həmin tayfanın, qəbilənin dili müxtəlif istiqamətlərdə yayılmış tayfaların qolları vasitəsilə fərqli coğrafi məkanlara düşmüşdür. Sonra isə məskunlaşma yerlərində mövcud olan digər dillərlə əlaqəyə girərək fərqli istiqamətlərdə inkişaf etmişdir. İnteqrasiya prosesi nəticəsində isə bir-birinə oxşar, anlaşıqlı dialektlər birləşərək vahid ədəbi dil yaratmışdır. Məhz bu proses nəticəsində İngiltərədə London dialekti, Azərbaycanda isə Bakı-Şamaxı dialekti ədəbi dilə çevrilmişdir.

Ə. Dəmirçizadə qeyd etdiyi kimi, “hər hansı dilin necə formalaşdığını, tarixini tədqiq etmək istəyən öncə həmin dildə danışanların tarixini tədqiq etməlidir” (Dəmirçizadə, 1979: 3). Bu aydın bir həqiqətdir ki, dilçi alimlər dilin tarixini cəmiyyət tarixindən kənarda öyrənə bilməz. Ölkənin tarixinin tərkib hissəsi olan elm tarixi, mədəniyyət tarixi, iqtisadiyyat, sənaye, kənd təsərrüfatı tarixi dilin leksik laylarında güzgü kimi öz əksini tapır.

Müasir ingilis ədəbi dilinin formalaşmasından danışarkən ədəbi dilə həm yazılı, həm də şifahi dilin tədqiqi yanaşmaları öz müsbət nəticəsini verəcək. Ədəbi dilin izahında qeyd olunur ki, o müəyyən norma və üslublara malikdir. Bəzi dilçilər hesab edirlər ki, ədəbi dil normaları üçün coğrafi, iqtisadi, siyasi, hərbi və mədəni faktorları əsas götürülməlidir. Məhz bu faktorlar ingilis dilinin cənub dialekti əsasında formalaşmasında və özünü ədəbi dili kimi təsdiq etməsində iştirak etmişdir. Əgər Amerikada məskunlaşan əhali Cənubi İngiltərədən olmasaydı, bu region siyasi proseslərdə iştirak edib iqtisadiyyata nəzarət etməsəydi, hərbi gücdən istifadə edib bu dialekti yer kürəsinin müxtəlif istiqamətlərində yaymasaydı və beləliklə, mədəniyyətin, ədəbiyyatın inkişafına bu ərazilərdə şərait yaratmasaydı, bəlkə də, heç bu dialekt ədəbi dilə çevrilməz və müəyyən normalar çərçivəsinə düşməzdi.

Dil öyrənilməsində yalnız o variant seçilir ki, o bütün ölkələrdə aydınlığı, səlisliyi və başa düşümlülüyü ilə fərqlənsin. İngilis dilində belə variant “Received Pronunciation” adlanan ədəbi dildir. Digər variantlar ondan törəyərək sonradan müəyyən fərqlərlə seçilmişdir. Ədəbi dil normaları çərçivəsində inkişaf edən ingilis ədəbi dili bütün ingilis dilində danışan ölkələrdə başa düşülür. Məhz bu variant dilçilər tərəfindən daim tədqiq edilib, çətinliklər araşdırılıb və dil öyrənmə üçün hər cür şərait yaradılıb. Bütün bunlar dilin mənimsənilməsini, yayılmasını və sıx istifadəsini asanlaşdırır.

Onu da vurğulayaq ki, elm-texnikanın ən mühüm nailiyyəti olan internetin tarixi 1969-cu ildə Şimali Amerikadan başlayır. İlk dəfə hərbi məqsədlərlə istifadə edilən internet, yalnız 1983-cü ildə adi telefon xətli birləşmə vasitəsilə reallaşdı. İnternetin kəşfi insanlar qarşısında yeni üfüqlər açır. Heç bir yerə getmədən iş saatlarında və ya boş vaxtlarda lazım olan məlumatın ən qısa zamanda hərtərəfli əldə edilməsi, uzaq məsafədə yaşayan insanlarla canlı və ya yazı vasitəsilə əlaqə, ticarət əlaqələrinin qurulması və şəbəkə vasitəsilə həyata keçirilməsi, pul köçürmələri, vergilərin ödənilməsi, vaxtını əyləncəli keçirmək üçün oyun və viktorinalar, bilik əldə etmək üçün dünyanın istənilən tədris müəssisəsinin kitabxanalardan və elektron resurslarından istifadə, hətta beynəlxalq səviyyəli təhsil müəssisələrində ali təhsil almaq və s. məhz internetdən istifadə nəticəsində reallaşır. İnternetə hətta mobil telefon vasitəsilə qoşulma imkanı insanların bu yeni texnologiyadan istifadəsini artırıb. Hazırda dünyanın istənilən yerindən şəbəkəyə simsiz qoşulma üzərində iş gedir.

Elm-texnikanın belə sürətlə inkişaf etdiyi bir vaxtda, təbii ki, dil də inkişafdan geri qalmır. Çünki istənilən dil sosial, siyasi və iqtisadi həyatda baş verənlərə qarşı çox həssasdır. Nəticədə isə ya yeni məfhum-ideyanı bildirən yeni sözlər yaranır, ya dildəki mövcud sözlər yeni mənalar əldə edir, ya da artıq mövcud olan sözlərə əlavə sinonimlər qazanılır.

İngilis dilində kompüter texnologiyalarının inkişafı nəticəsində əldə edilən neologizmlər 11 % kəmiyyətcə ümumi leksikada istifadə edilən neologizmlərdən 53 % sonra ikinci yeri tutur. Yalnız bundan sonra media 11 %, biznes 6 %, idman 6 %, mədəniyyət 1 % və başqa sahələrdə əldə edilən neologizmlər sıralanır (3).

İngilis dili, kompüter texnologiyalarının dili kimi qəbul olunsa da bu, sadəcə ekstralinqvistik amilin nəticəsidir. Yəni texnologiyaların ABŞ-da inkişaf etməsi, təsisçilərin ingilis dilli olması məlumatların da əsas hissəsinin məhz ingilis dilində tərtib edilməsilə nəticələnib. Amma real fakt ondan ibarətdir ki, kompüter texnologiyalarının dili heç bir təbii dil deyil, xüsusi proqramlaşdırma dilləri vardır və kompüterlər bütün əmrləri məhz bu proqramlaşdırılmış dil ilə icra edirlər. İnternetdə istifadə edilən təbii dilləri isə ingilis dilində “e-language, e-talk, geekspeak, netlingo, netspeak, weblish” kimi də adlandırırlar (Thurlow, 2001: 287-289).

İnformasiya və kommunikasiya texnologiyalarının günü-gündən inkişafı ingilis dilini daha da zənginləşdirir və işləkliyini artırır. Belə ki, internetə qoşulmuş hər on kompüterdən doqquzu məhz

ingilis dilli ölkələrin payına düşür, 80 %-dən artıq internet səhifələri ingilis dilində təşkil olunur, beynəlxalq təşkilatlar əsas dil kimi mütləq ingilis dilindən istifadə edirlər (Babayeva və s., 2020).

Görkəmli dilçi alim D. Kristalın fikrincə isə internet dilə çoxlu dəyişikliklər gətirmişdir və gətirməkdə davam edir. "İndiyə kimi şifahi nitqdə danışır, simvollardan istifadə edərək yazırdıq. İnternetin dili isə nə şifahidir, nə də yazılı, bu, hər iki nitqin qarışığı olub, yeni ünsiyyət formasını təmsil edir. Eyni vaxt ərzində bir neçə mövzu ətrafında tamam fərqli insanlarla ünsiyyət qurmaq olur. Başqa bir cəhət isə internet səhifəsinin kitab səhifəsindən fərqli olaraq daim yenilənməsi, dəyişməsidir" (Crystal, 2006).

İnformasiya və telekommunikasiya texnologiyaları inkişaf etdikcə istifadə edilən dil məsələsi dilçiləri daha çox narahat edir. Hətta belə fikirlər səslənir ki, internetin inkişafı, xüsusilə də ingilis dilli internet digər dillərə mənfi təsir edərək, onları sıradan çıxaracaq. Digər tərəfdən, internetin həm də ingilis dilini korlayacağı güman edilir. Buna səbəb isə internet xidmətləri olan elektron məktub və çatda həddən çox qısaltmalar, qrammatik qaydaların pozulması, səhv yazılış qaydalarından istifadə göstərilir. V. P. Danilenkonun fikrinə görə: *"elm dilinin funksiyaları ümumədəbi dilin funksiyaları ilə tam üst-üstə düşmür, məsələn, elm dili gerçəkliyin dərk vasitəsidir (qnoseoloji funksiya), praktik fəaliyyət və tədqiqat nəticələrinin qeydə alınması, saxlanılması və informasiyanın ötürülməsi vasitəsidir (informativ-kommunikativ funksiya)"* (Danilenko, 1977: 9).

Cəmiyyətin ən inkişaf etmiş ixtirası olan internet insanlara azadlıq, bərabərlik və özünüdərk üçün çox əlverişli şərait yaradır. Dilin zənginləşməsi prosesində də ən böyük mənbə məhz informasiya və kommunikasiya texnologiyaları sahəsidir. Neologizmlərin böyük faizinin əsasında informasiya texnologiyaları durur. Elm-texnikanın inkişafı yeni anlayışların və onları ifadə edən sözlərin meydana çıxmasına səbəb olur.

Belə hesab edilir ki, 2050-ci ilə qədər dünya əhalisinin 50 %-dən çoxu ingilis dilini biləcək, amma bu ingilis dili hazırkı ingilis dilindən fərqlənəcək, çünki müxtəlif ölkələrdə yayılan ingilis dilinə həmin ölkələrin ana dilindən yeniliklər əlavə ediləcək.

Onu da qeyd etmək lazımdır ki, dili tənzimləyən qaydalar hər bir xalqın mədəniyyəti, tarixi ilə bağlı olur, illər boyu cilalanır. Dilin özülünü təşkil edən normalar adətən bütün dillərdə ümumiləşmiş adla qeyd olunur. Lakin bu adın tərkibi hər dilin özünəmüvafiq xüsusiyyətlərini cəmləşdirir. Yəni əgər biz leksik normanı götürsək, bunu müxtəlif dillərə aid edə bilərik, ancaq təbii ki, bu norma əsasında hər dilin özünəməxsus qaydaları cəmlənəcək. Dildə müəyyən edilmiş normalar qarşılıqlı vəhdət şəklində fəaliyyət göstərir. Onların fəaliyyətinin inkişafı və təkmilləşməsi həmin dildən daim istifadə edən mədəniyyət və elm xadimlərindən asılıdır, çünki mədəniyyət ünsiyyətin təməlidir, bünövrəsidir. Mədəniyyət və ünsiyyət ayrılmazdır. Mədəniyyətlərarası dialoq iki mədəniyyətin ünsiyyəti deyil, onların sıx qarşılıqlı əlaqəsidir. Mədəniyyətlərarası dialoq belə prosesdir ki, müxtəlif millətlərin, mədəniyyətlərin, ölkələrin nümayəndələri, qrupları və təşkilatları arasında hörmət əsasında qarşılıqlı ünsiyyəti nəzərdə tutur.

Ağamusa Axundov qeyd etdiyi kimi: "*Əlbəttə, dil yer üzündə, insanlar arasında mücərrəd, ümumi bir şey kimi mövcud deyil. Dil bir çox ictimai hadisələrdən onunla fərqlənir ki, o heç bir halda ümumbəşəri olmayıb, daim milli səciyyə daşıyır. Dil bir ünsiyyət vasitəsi, fikri ifadə vasitəsi olmaq etibarilə müxtəlif xalqların, millətlərin dili kimi mövcuddur. Bu cəhətdən, dil deyərkən, nəzərə Azərbaycan dili, rus dili, ingilis dili kimi konkret dillər gəlir*" (Axundov, 2006: 77).

Beləliklə, dil xalqın milli mədəni kodunun daşıyıcısı kimi insanların həyatında baş verən bütün əlamətdar hadisələri əks etdirir. İstənilən dilin milli mədəni kodunun özü leksik vahidlərdən ibarətdir və bəzi tədqiqatçılar bunu "mədəni işarələnmiş leksika" termini adlandırırlar. Digər tədqiqatçılar "milli spesifik leksika" və ya "milli işarələnmiş lüğət" termininədən istifadə edirlər. Bu fenomenin öyrənilməsinə artıq çoxlu elmi tədqiqat işləri və elmi araşdırmalar həsr olunmasına baxmayaraq, təqdim olunan şərhlərin hər hansı birinə birmənalı qəbul olunmayıb və hələ də vahid termin yoxdur. Mədəni əhəmiyyət kəsb edən sözlər konkret xalqın adət-ənənəsi üçün xüsusi əhəmiyyət kəsb edir, çünki onların dil mənzərəsini dünyaya əks etdirir.

"Mədəniyyət nədir?" sualına indiyə kimi müxtəlif şəkildə izahlar verilmişdir. Bu sahədə ilk addımlar Adolf Bastian (alman), Edvard Teylor (ingilis), Frans Boas (amerikalı) və s. kimi bir neçə

antropoloq tərəfindən hələ XIX əsrdə atılmışdır. Məsələn, E. Teylor 1897-ci ildə "mədəniyyət" anlayışını birbaşa insan fəaliyyəti ilə əlaqələndirərək belə bir tərif verirdi: *"Mədəniyyət və ya sivilizasiya, geniş etnoqrafik mənada götürüldükdə, bilik, inam, incəsənət, mənəviyyat, qanun, adət-ənənə və cəmiyyətin bir üzvü kimi insanın əldə etdiyi hər hansı digər bacarıq və vərdişlərindən ibarət bir tamlıqdır"* (9).

Müasir dövrümüzdə, "mədəniyyət" anlayışının müxtəlif mənbələrdə açıqlamasını görmək olar. Məsələn, internet ensiklopediyasında "mədəniyyət" sözünün əsasən üç mənada işləndiyi qeyd edilir: 1) təsviri incəsənət və humanitar elmlər sahəsində əla zövq; 2) simvolik fikir və sosial tədqiqatlarının həcmindən asılı olan bilik, inam və davranışın birləşmiş modeli; 3) hər hansı təşkilatı və ya qrupu xarakterizə edən rəy, dəyər, məqsəd və təcrübələrin toplusu.

"Azərbaycan dilinin izahlı lüğəti" də "mədəniyyət" sözünü üç mənada şərh edir: 1) insan cəmiyyətinin istehsal sahəsində ictimai və mənəvi həyatda əldə etdiyi nailiyyətlərin məcmusu; 2) hər hansı bir xalqın və ya sinfin müəyyən dövrdə əldə etdiyi belə nailiyyətlərin səviyyəsi; təsərrüfat və ya zehni fəaliyyətin hər hansı birisinin inkişaf səviyyəsi; 3) savadlılıq, elmlilik, biliklilik; cəmiyyətdə özünü apara bilmə, tərbiyəlilik; mədəni adamın tələblərinə uyğun olan həyat şəraitinin məcmusu (Azərbaycan dilinin izahlı lüğəti, 2006).

Mədəniyyət dəyişən, təkmilləşən tarixi kateqoriyadır. Buna görə mədəniyyət də başqa ictimai hadisələr kimi inkişaf edir, şaxələnir, yeni-yeni keyfiyyətlər qazanır. Mədəniyyətin inkişafı üçün insan fəaliyyəti əsas vasitədir. Bəşəri mədəniyyət insanın fiziki və zehni, xarici və daxili fəaliyyətinin nəticəsində tərəqqi edir. Hər yeni nəslin fiziki və zehni nailiyyətləri mədəniyyətin inkişafı üçün mənbədir. Bu nailiyyətlər keçmiş nəslin təcrübəsi əsasında, ona istinad olunaraq əldə edilir (Qurbanov, 1989: 206). Yəni hər bir insan dünyaya göz açdığı gündən etibarən doğulduğu yerin, etnik tərkibin və aid olduğu sosial sistemin mədəniyyətinin təsirinə məruz qalır, bu təsir altında böyüyüb inkişaf edir, həmin cəmiyyətin tərkib hissəsini təşkil edir.

Azərbaycan dilçi-alimi Nadir Məmmədli "mədəniyyət" anlayışına belə tərif verir: *"Mədəniyyət ərəb mənşəli söz olub, "insan cəmiyyətinin istehsal sahəsində, ictimai və mənəvi həyatında əldə etdiyi nailiyyətlərin məcmusu" deməkdir. Mədəniyyət müxtəlif düşüncə sahibi olan insanların bir yerdə yaşaması, işgüzar ünsiyyət qurmasıdır – bu gücə yalnız mədəniyyət malikdir"* (Məmmədli, 2023: 294).

Dilçilik sahəsində mədəniyyət və dil arasında əlaqələr əsasən XX əsrdən başlayaraq tədqiq edilməyə başlanılıb. Bildiyimiz kimi, dil işarələr sistemidir, bu isə birbaşa mədəniyyətin predmetidir. Bu işarələr sistemini yalnız mədəni baxımdan inkişaf etmiş insan dərk edib tətbiq edə bilər. Dil mədəniyyətin tərkib hissəsi deyil, burada insan faktoru var. Dil insan vasitəsilə mədəniyyətin tərkib hissəsinə çevrilir, insan inkişaf etdikcə mədəniyyət də, dil də nəsillərdən nəsillərə ötürülür.

Mədəniyyət haqqında dilçilərin qəbul etdiyi əsas fikir onun tam şəkildə dildə əks olunmasıdır. Bəzi tədqiqatçılar dili mədəniyyətin güzgüsü adlandırırlar. "Dünyanın mədəniyyət xəritəsi özünəməxsus olub, müxtəlif xalqlarda fərqlənir. Buna bir neçə amil təsir edir: coğrafiya, iqlim, tarix, sosial vəziyyət, adət-ənənələr, həyat tərzi və s. Dil bütün bunları özündə əks etdirir" (Ter-Minasova, 2000: 37).

"Mədəniyyət özünün ən səciyyəvi keyfiyyətlərini dildə ifadə və ehtiva etdiyi kimi, öz növbəsində dil özü də bütövlükdə mədəniyyət hadisəsi kimi çıxış edir. Məsələnin bu cəhəti, mədəniyyət anlayışı baxımından nitq probleminin də tədqiqata gətirilməsini, mədəni nitqin əlamət və təzahürlərini, səciyyə və özünəməxsusluğunu araşdırıb üzə çıxarmağı zəruri edir" (Abdullayeva, 2008: 54-58).

Dünya xalqlarının hər birinin özünəməxsus mədəniyyəti olsa da, bu mədəniyyət milli çərçivə ilə məhdudlaşmır, mədəniyyətlər bir-birinə təsir edir. Bu proses tarixi proseslərin, beynəlxalq əlaqələrin təsiri altında baş verir. Bütün bunlar isə mütləq hər bir xalqın dilində öz əksini tapır.

Qeyd etmək lazımdır ki, mədəniyyət və dil bir-birilə qarşılıqlı asılılıq vəziyyətindədir. Dil mədəniyyətin, mədəniyyət isə öz növbəsində dilin inkişafına imkan və şərait yaradır. Dünya ədəbi dillərinin meydana gəlməsi, formalaşması, inkişaf edib zənginləşməsi mədəniyyətlə sıx bağlıdır.

Millətin əsas əlamətlərindən olan dil, o dildə danışan xalqın milli mədəniyyətini ifadə edir (Qurbanov, 1989: 207).

N. Məmmədli tamamilə doğru qeyd edir ki, *“...mədəniyyət gerçək aləmdəki hadisələrə insani münasibətin təzahürüdür və bununla məna, dəyər verir. Mədəniyyət anlamının mahiyyəti də spesifikdir: insanlar arasında xüsusi əhəmiyyət daşıyır, məhz insan faktoru üçün müəyyən bir məna kəsb edir və tədricən işarələrə, yəni şərhə, izaha çevrilirlər. İstənilən işarə öz növbəsində obyekt və ya subyekt haqqında məlumat verir, şərh prosesində bu və ya başqa səviyyədə anlamını açır”* (Məmmədli, 2023: 294-295).

Rus dilçisi Svetlana Terminasova dil və mədəniyyət arasında əlaqələrdən bəhs edərək yazır ki, “dil təkcə insanın mədəniyyətini əks etdirmir, dilin əsas funksiyası mədəniyyəti qoruyub saxlayaraq nəsillərdən nəsillərə ötürməkdir” (Ter-Minasova, 2000: 37).

Bu fikri XIX əsr alman dilçisi Vilhelm Humboldt da qeyd edirdi: *“Nəsillər bir-birini əvəz edir, amma dil qalır, hər nəsil dili ondan əvvəlkilərin qoyduğu formada gəlib görür, amma dil həmin nəsildən daha güclü və qüdrətli olur. Nəsillərdən heç biri dilin tam dərinliyinə varmır və onu gələcək nəsillərə ötürür. Dilin xarakteri, özünəməxsusluğu isə yalnız bir neçə nəsil dəyişdikdən sonra bilinir, amma dil bütün bu nəsilləri bir-birinə bağlayır, onlar da öz növbəsində özlərini məhz dildə biruzə verirlər... çünki dil millətin özünü əks etdirir və onu təmsil edir”* (Gumbol'dt, 1984: 324-326).

Həmçinin hər bir dil ayrılıqda öz istifadəçilərinin məxsusi cəhətlərinin daşıyıcısı olsa da, digər dünya dillərilə də daim kontaktdadır. Dillər arasında əlaqələrin olması dillərin inkişafında başlıca amillərdən biridir. Hər bir dil özündə dünya tarixinin bir hissəsini yaşadır, əvvəlki dövrləri araşdırmaqda əvəzolunmaz rol oynayır və ən əsası, ondan istifadə edən xalqların, tayfaların tarixini, mədəniyyətini, inkişafını özündə əks etdirir. Məhz buna görə, dil mədəniyyətin güzgüsüdür. “Yer üzündə dünya xalqları bir-birilə çoxcəhətli əlaqələrə malik olduğuna görə onların dilləri də qarşılıqlı şəkildə bir-birinə təsir göstərir və bir-birini zənginləşdirir. Dilin lüğət tərkibinin inkişafı prosesi xalqın tarixi inkişafı ilə vəhdət təşkil edir” (Qurbanov, 1989).

Dilçilərin əksəriyyəti dünyada kontaktlaşmayan dilin olmadığı fikrindədir. Boduen de Kurtene öz məqaləsində bu məsələyə toxunaraq qeyd edirdi ki, *“Dillərin bir-birilə qaynayıb qarışması məsələsinə baxsaq, razılaşmalı olacağıq ki, saf və digər dillərə qarışmayan dil yoxdur və ola da bilməz”* (Boduen de Kurtene, 1963: 363). Dillərin bu şəkildə kontaktlaşmasının əsas səbəbi kimi mədəniyyətlərarası əlaqəni və digər mədəniyyətli insanlarla ünsiyyətə olan tələbatı göstərmək olar.

E. Sepir bununla bağlı yazırdı: *“Ünsiyyətə olan tələbat, hər hansı bir dildə danışanların qonşu və ya mədəniyyət baxımından dominant dillər ilə vasitəsiz və ya vasitəli kontaktına səbəb olur... İzolyasiya edilmiş hər hansı bir dil və ya dialekt göstərmək çətin olardı”* (Sapir, 2005: 268).

Buna əsasən müxtəlif mədəniyyətlərə aid materialların tərcüməsi də təsir edir. Mədəniyyətlərarası əlaqələrin yaranmasında tərcümələr mühüm rol oynayır. Əgər əvvəlki dövrlərdə fars və ərəb dillərindən tərcümələr şərq dilləri və mədəniyyəti ilə əlaqələrimizi sıxlaşdırmış və nəticədə dillərin zənginləşməsinə səbəb olmuşdusa, XIX əsrdən başlayaraq bölgədə rus dilinin aparıcı rol oynaması ilə əlaqədar rus dilindən edilən tərcümələr artmışdır. Müxtəlif sənədlər, həmçinin rus klassiklərinin əsərləri dilimizə tərcümə edilməklə həm dilin lüğət tərkibini zənginləşdirmiş, həm də müxtəlif üslubları inkişaf etdirərək cümlə quruluşlarında yeniliklərə səbəb olmuşdur.

Dünyanın ən qədim xalqlarından biri olan ingilislər qədim mədəniyyətə malikdir. İngiltərə əhalisinin 87 %-i orada daimi yaşayanlardır. Onlardan 72 %-ni britanlar (ingilislər), 8 %-ni şotlandlar (əsasən Şotlandiyada məskunlaşanlar), 4 %-ni isə irlandlar təşkil edir. Böyük Britaniya ingilis dili və mədəniyyətini yayan əsas ölkə olsa da, müasir dövrümüzdə adı ABŞ-dan sonra sıralanır. İngilislər öz dilləri ilə həddən çox qürur duyurlar, əslində, buna haqları da var. Məsələn, “The Oxford English Dictionary” 20 clddən ibarətdir, 600 000-dən çox sözü əhatə edir (19). İngilis dilində bu qədər çox sözün olması səbəbi onun kontakta girdiyi bütün dil və mədəniyyətlərdən sözlər qəbul etməsidir. Ona görə də ingilis dilinin lüğət tərkibində əsl ingilis sözləri çox az faiz təşkil edir.

İngilis dili ana dilləri olmağına baxmayaraq, ingilislər yalnız bu dilin çox cüzi hissəsindən istifadə edir. Əgər Şekspirin dili 30 000 sözdən ibarət idisə, müasir ingilislərin çoxunun gündəlik lüğəti 8000 sözü aşmır. İngilislərin öz dilləri ilə qürur duymalarının əsas səbəblərindən biri də onun bütün dünyada liderlik etməsidir. Yəqin ki, müəyyən vaxtdan sonra ingilislər dünyanın hər bir yerində yerli əhali ilə rahat şəkildə öz dillərində ünsiyyətə girəcəklər. Bu dilin dünyanın hər yerində istifadə edilməsi ingilislərin xoşuna gəlsə də, ondan digər millətlərin istifadə etməsini heç də yaxşı qarşılamır, bu fakta ana dillərinin korlanması kimi baxırlar. Hətta ingilis dilinin, demək olar ki, ikinci vətəni olan Amerikada belə amerikanların bu dildən bəzi dəyişiklər etməklə istifadə etməsi ingilislərin narazılığına səbəb olur və dildən bu şəkildə istifadəni asanlaşmış, qeyri-ədəbi və kobud hesab edirlər.

Hal-hazırda ölkəmizin ABŞ və Böyük Britaniya ilə mədəni əlaqələrin daha da inkişaf etdirilməsi üçün bir sıra tədbirlər həyata keçirilir. XXI əsrdə mədəniyyətlərarası əlaqələr daha da inkişaf etdiyindən müxtəlif xalqların mədəniyyətləri bir-birinə, xüsusən də yuxarıda qeyd etdiyimiz kimi, qərb mədəniyyəti şərq mədəniyyətinə güclü şəkildə təsir edir. Məşhur sosioloq İ. Vallerştayn hesab edir ki, mədəniyyət həmişə güclünün silahı olmuşdur. Bu fikrin reallığı əks etdirdiyini müasir dövrdə özümüz də müşahidə edə bilərik. ABŞ dünyanın ən irəlidə gedən ölkəsi kimi özünün formalaşdırdığı mədəniyyəti hazırda digər dünya ölkələrinə də yaymaqdadır. Bu mədəniyyət Amerikanın nəhəng informasiya vasitələrilə bütün planetə ötürülür (Həsənov, 2005: 273).

Əgər keçmişdə insanlar qorxudan hər hansı imperiya tərkibində qalırdılarsa, müasir dövrdə insanlar özləri Amerikan və qərb həyat tərzinə – mədəniyyətə can atır, onu özlərinə nümunə kimi qəbul edirlər. Məhz buna görə də insanların tez-tez dəyişdikləri yaşam tərzi, adət-ənənələr, ehtiyaclar və dəyərlər dilin də dəyişiklərə uğramasına səbəb olur, nəticədə dilə yeniliklər əlavə olunur.

Qloballaşan dünyada dil və mədəniyyət əlaqəsini təhlil edərək mədəniyyət və şəxsiyyət konsepsiyasını da nəzərə almaq lazımdır. Şəxsiyyətin formalaşması mədəniyyət daxilində baş verən sosial-psixoloji prosesdir. Hər insanın etnik xüsusiyyətlərini necə öyrənərək mənimsəməsi prosesini etnopsixologiya və kulturoantropologiya elmi öyrənir.

Britaniyalı tədqiqatçı C. Qorerə görə, rus xarakterinin xüsusiyyəti — avtoritarizmə meyillilik körpə olarkən onların bələkdə iplə möhkəm-möhkəm bələnməsi ilə bağlıdır. Emosiyanın cilovlanması, uzun müddət daxildə yaşanılması və birdən ətrafa çıxarılması rus xarakteri üçün səciyyəvi olan psixoloj xüsusiyyətdir. Belə ki, bələyi açılan körpə əlləri və ayaqları ilə dayanmadan hərəkət edir. Uşaqlığın etnoqrafiyası üzrə ilk nəzəriyyəçı alim amerikalı psixoanalitik A. Kardiner olmuşdur. O, uşağın erkən yaş dövrünü, onun şəxsiyyətinin formalaşmasının əsası hesab edirdi. O belə hesab edir ki, uşağa onu əhatə edən sosial mühit, xüsusilə qaygı və yanaşma üsulu daha güclü təsir göstərir. "Uşaq insanın atasıdır" aforizmi A. Kardiner postulatı kimi qəbul edilir. Məsələn, uşağın süddən birdəfəlik olaraq, qəti şəkildə ayrılması onda rədd olunma kimi acı xatirəyə səbəb olur. Bu həmin uşağın şəxsiyyət kimi xarakterində özünü göstərən aşağı özünüqiymətləndirmə, emosional soyuqluqda tapır. Amerikan etnoqrafı Marqaret Mid inamla qeyd edirdi ki, məhz mədəniyyət ən başlıca faktor kimi uşağı cəmiyyətdə necə fikirləşməyi, hiss etməyi və davranmağı öyrədir. Avstriya kulturantropoloqu İ. Eybl-Eybesfeld qeyd edir ki, uşağın sevgi və diqqətlə əhatə olunması, onu həm döyüşkən, həm də sülhpərvər şəxsiyyət kimi formalaşdıra bilər. Əgər aqressivlik böyüklər tərəfindən alqışlanırsa və bu cür hərəkət müntəzəm olaraq davranışda möhkəmləndirilirsə, onda heç şübhəsiz uşaq aqressiv olacaq. Yox əgər əksinə baş verirsə, onda uşaq daha çox sakit olacaqdır. İ. Eybl-Eybesfeldin gəldiyi qənaət belədir ki, nəvaziş və qayğı defsiti uşaq şəxsiyyətini zədələyir, onun öz ailəsinə və daxil olduğu qrupla əlaqəsini zəiflədir, aidlik hissini yox edir. R. Ronerə görə bütün valideynlər öz uşaqlarını sevirlər. O, valideyn münasibətini üç yerə ayırd etmişdir: 1) nəvazişli münasibət; 2) acıqlı və ya aqressiv münasibət; 3) laqeyd münasibət.

Valideyn münasibətini, əslində, həmin mədəniyyət çərçivəsində relyativist yanaşma əsasında qiymətləndirsək, onu başa düşə bilərik. Uşaqların yaşlılar dünyasına qoşulması hər bir mədəniyyətdə fərqli şəkildə baş verir. Bu proses etnopsixologiyada initsiasiya termini ilə ifadə

olunur. İnitsiasiya üç mərhələdən ibarət olan etnopsixiloji hadisədir: 1) uşaq statusundan ayrılma; 2) yaşlılığa hazırlıq mərhələsi; 3) yaşlılar dünyasına qəbul olunma.

Dünya xalqlarını həyatının müxtəlif tərəfləri, o cümlədən uşaqların sosializasiyası ilə bağlı olan olan məlumatları əks etdirən və 500.000 səhifə həcmində olan material ABŞ-da Yel Universitetində saxlanılır. Uşaqlığın etnoqrafiyasına həsr olunmuş krosskultural tədqiqatlardan biri Harvard Universitetinin professorları Beatris və Con Vaytinqin rəhbərliyi altında keçirilən "Altı mədəniyyət lahiyəsidir". Uşaqlığın tarixi, etnoqrafiyası ilə bağlı ən geniş psixoanalitik konsepsiya amerikan psixoanalitiki Lloyd Demoza məxsusdur. L. Demoza görə, psixotarix müstəqil bilik sahəsi kimi ayrı-ayrı tarixi dövr və mərhələləri şərh etmir, o valideyn və uşaqların qarşılıqlı münasibətində kök salan və tarixi inkişafın ümumi qanunlarını və səbəbini müəyyənləşdirir. O, "tarixin psixogen nəzəriyyəsi" adlı konsepsiyasında qeyd edir ki, tarixdə inkişafın, dəyişikliyin əsas qüvvəsi texnika və iqtisadi göstərici yox, bir-birini əvəz edən nəsillərin, valideyn və uşaqların şəxsiyyətində baş verən "psixogen" dəyişikliklərdir (Babayeva və s., 2020: 45-49).

Beləliklə, müasir dövrdə ictimai tərəqqinin mövcud vəziyyətinin və bu şəraitdə ədəbi dilin inkişafının tədqiqi, həmçinin qloballaşan dünyada dil – mədəniyyət və şəxsiyyət konsepsiyasının təhlili sübut edir ki, dil daima inkişafdadır. Dil və mədəniyyət sıx əlaqəlidir. Ünsiyyət prosesində dil və mədəniyyət ontogenez və filogenezdə qarşılıqlı əlaqədədir. Dil və mədəniyyətin qarşılıqlı əlaqəsi və təsiri həm mürəkkəbdir, həm də çox aspektli səciyyə daşıyır.

Müasir cəmiyyətdə savadlı və mədəniyyətli şəxsiyyətin formalaşması bir çox amillərdən asılıdır. Öncə ailə, məktəb, ətraf mühit. Cəmiyyətin ruhi təkamülündə ingilis dilinin daşıyıcıları böyük rol oynayır və təsir göstərir.

Valideynlərin uşaqları liberal üslubda tərbiyə etdikləri düşünülsə də, əslində, valideynlərin nəzarəti daim uşaqlar üzərində olmalıdır. Bu nəzarət valideynlərin uşaqların fikir və düşüncələrinə müdaxilə etmədən həyata keçirildiyi üçün uşaqların daha özünəinamlı şəxsiyyət kimi formalaşmasına şərait yaradır. Avropadan fərqli olaraq, azərbaycanlılar öz uşaqlarının nizam-intizama əməl etməsinə daha çox diqqət yetirir və yetirməlidirlər, xüsusilə də xarici dillərin öyrənilməsi prosesində.

Müasir ingilis dilinin tədris edilməsində, onun yeni kommunikativ, interaktiv və imitativ metodlar və üsullardan istifadə edilərək öyrənilməsində xüsusi dəyişikliklər müşahidə olunur. Hər bir dilin öz tələffüz normaları var və həmin normalar cəmiyyətin dil fəaliyyətini özündə əks etdirir. İstər ana dili olsun, istərsə də hədəf dili dil normalarından yayınma cəmiyyətin üzvləri tərəfindən yaxşı qarşılanmır. Dildə elə sözlər və yaxud söz birləşmələri var ki, onlar morfem və söz sərhədində, cümlədə müəyyən dəyişikliyə uğrayır və nəticədə deyilişlə yazı arasında uyğunsuzluq müşahidə olunur.

## Nəticə

İngilis dilinin qlobal dilə çevrildiyi bir zamanda qeyri-səlis danışığı və dinləməni ehtiva edən nitq amillərinə fikir vermək, dil və onunla bağlı məsələlərə, o cümlədən dilin sistem və struktur modelləri, dil işarələrinin maddi daşıyıcısı olan fonetik yazı, şifahi və yazılı sözlərin fərqli cəhətləri, dil işarəsi olan sözlərin yaddaşı idarəetmə funksiyaları, bütövlükdə dil öyrənmədə dil, təfəkkür, yaddaş münasibətlərini həmişə diqqətdə saxlamaq lazımdır.

## Ədəbiyyat

1. Məhərrəmli, Q. (2008). Mediada işlənən alınma sözlər. İzahlı lüğət. Bakı, 256 s.
2. Dəmirçizadə, Ə. M. (1979). Azərbaycan ədəbi dilinin tarixi, I hissə. Bakı: Maarif, 268 s.
3. http://www.e-qanun.az/FBrowser.aspx
4. Thurlow, C. (2001). The Internet and Language. Concise Encyclopedia of Sociolinguistics. London: Elsaivier, p. 287-289.
5. Babayeva, Ş., Alıyev, C., Əliyev, Ə., Məmmədov, M., Əmirova, S., Zeynalova, H., Babayeva, K., Sadıxova, L., Fərhatlı, S., Əhmədova, N., Dəmirova, C., Qubadova, Ə. (2020). Etnopsixologiya. Bakı: ADPU-nun mətbəəsi, 347 s.

6. Crystal, D. (2006). Language and Internet. Cambridge: Cambridge University Press, 304 p.
7. Danilenko, V. P. (1977). Russkaya terminologiya: opyt lingvisticheskogo opisaniya. Moskva: Nauka, 248 s.
8. Axundov, A. A. (2006). Ümumi dilçilik. Dilçiliyin tarixi, nəzəriyyəsi və metodları. Bakı: Şərq-Qərb, 280 s.
9. http://www.elibrary.ru/rubrics.asp
10. Azərbaycan dilinin izahlı lüğəti. (2006). 4 cilddə, III cild. Bakı: Şərq-Qərb, 670 s.
11. Qurbanov, A. M. (1989). Ümumi dilçilik. 2 cilddə, II c. Bakı: Maarif, 556 s.
12. Məmmədli, N. B. (2023). Azərbaycan dilində işğüzar və akademik kommunikasiya. Bakı: Elm və təhsil, 512 s.
13. Ter-Minasova, S. G. (2000). Yazyk i mezhkul'turnaya kommunikatsiya. Moskva: Slovo, 624 s.
14. Abdullayeva, T. S. (2008). Sənət düşüncələri, № 8. Bakı: Mədəni maarif, s. 54-58.
15. Gumbol'dt, V. V. (1984). O vliyanii razlichnogo kharaktera yazykov na literaturu i dukhovnoye razvitiye. Izbrannyye trudy po yazykoznaniyu. Moskva: Progress, s. 324-326.
16. Qurbanov, A. M. (1989). Ümumi dilçilik. 2 cilddə, I cild. Bakı: Maarif, 568 s.
17. Boduen de Kurtene, I. A. (1963). O smeshannom kharaktere vsekh yazykov. Izbrannyye trudy po obshchemu yazykoznaniyu, v 2-kh tomakh, t.1. Moskva: Izd-vo Akademii nauk SSSR, 616 c. / t. 2., 616 s.
18. Sapir, E. (2005). Language. New York: Kessinger Publishing, 268 p.
19. http://www.abebooks.com
20. Həsənov, Ə. M. (2005). Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan nəşriyyatı, 752 s.

Göndərilib: 09.05.2024 Qəbul edilib: 15.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/79-88

**Səbinə Babayeva**
Gəncə Dövlət Universiteti
babayevasabina96@gmail.com

# XÜSUSİ TƏHSİLƏ EHTİYACI OLAN TƏLƏBƏLƏRİN İKT-DƏN İSTİFADƏ ETMƏKLƏ TƏBİƏT ELMLƏRİNİN ÖYRƏNMƏSİ METODİKASI

**Xülasə**

Xüsusi təhsilə ehtiyacı olan şəxslərin digərləri kimi həyatlarının bütün sahələrində eyni keyfiyyətdə xidmətlərdən istifadə etmək, heç bir çətinlik çəkmədən həmsöhbətləri ilə bərabər məlumat və bilik əldə etmək hüquqları vardır. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) xüsusi təhsilə ehtiyacı olan şəxslərin təhsilində bir vasitə kimi onların bacarıqlarının inkişafına, tələb olunan biliklərin formalaşmasına və özlərinə inamın təsiri ilə sosial həyatlarında bərabər imkanların təmin edilməsinə ən yaxşı şəkildə töhfə verə bilər ki, bu da özünü təmin etmə qabiliyyətinin gücləndirilməsi və nəticədə onların cəmiyyətin bütün üzvləri ilə harmoniya və bərabərlik şəraitdə yaşamağa inteqrasiyasını təmin edir. Bu tədqiqat təbiət elmlərinin tədrisində İnformasiya və Kommunikasiya Texnologiyalarının faydalılığına yönəlmiş biblioqrafik icmaldır. Mövzu seçimi xüsusi təhsilə ehtiyacı olan insanlar üçün alternativ öyrənmə yolu kimi İKT vasitəsilə təbiət elmlərinin tədrisi üçün məlumatlandırma cəhdinə əsaslanırdı. Nəticələr göstərdi ki, İKT təbiət elmlərini öyrənməyə təbiət elmləri daxilində İKT-ni öyrənmə xüsusi təhsilə ehtiyacı olan uşaqlar üçün dəyərli idrak və müəllimlərin təbiət elmlərini öyrədə bilməsi üçün faydalı vasitədir. Nəticə ondan ibarətdir ki, İKT təbiət elmlərinin tədrisinə mütləq şəkildə inteqrasiya edilməlidir

***Açar sözlər:*** *simulyasiyalar – video oyunlar, virtual reallıq – İKT-də köməkçi texnologiyalar, əlillər – autizm – öyrənmə əlilliyi, DEHB – eşitmə qüsurları, ADD – görmə qüsuru, Daun sindromu – əqli qüsurlar, təbiət elmləri – fizika, kimya, biologiya*

**Sabina Babayeva**
Ganja State University
babayevasabina96@gmail.com

## Methodology of teaching natural sciences using ICT for students with special needs

**Abstract**

Individuals with special educational needs have the right to access services of the same quality in all areas of life as other people and to have equal opportunities in accessing information and knowledge without any difficulties. Information and Communication Technologies (ICT) can significantly contribute to the development of skills, the formation of necessary knowledge, and the provision of equal opportunities in the social life of individuals with special educational needs. This, in turn, enhances their ability to be self-sufficient and to integrate into society on equal terms with other members of the community.

This study is a bibliographic review of the usefulness of information and communication technologies in teaching natural sciences. The choice of the topic was based on the effort to inform about teaching natural sciences through ICT as an alternative learning method for people with special educational needs. The results showed that ICT is a valuable cognitive and useful tool for learning natural sciences for children with special educational needs, as well as for teachers teaching these sciences. The conclusion is that ICT must be integrated into the teaching of natural sciences.

***Keywords:*** *simulations – video games, virtual reality – assistive technologies in ICT, disabilities – autism – learning disabilities, ADHD – hearing impairments, ADD – visual impairments, Down syndrome – intellectual disabilities, natural sciences – physics, chemistry, biology*

## Giriş

Son iyirmi ildə təbiət elmlərinin öyrənilməsi və tədrisi ilə bağlı tədqiqatlar bu elmlərin tədrisi üçün uyğun model tapmaq üçün böyük ölçüdə inkişaf etdirilmişdir. Tədrisi təkmilləşdirməklə tələbələr təbiət elmlərinin mənəvi səviyyədə ən yüksək insan nailiyyətləri ilə əlaqəli olduğunu və onların müasir həyatın əsas problemlərinin həllində əsas rol oynadığını kəşf edəcəklər. Beləliklə, onlar bu elmlərlə məşğul olmağa həvəslənəcəklər ki, sabahın şəxsiyyətləri bəşəriyyət üçün daha yaxşı bir gələcəyə sahib olmaq həm şəxsi səviyyədə, həm də cəmiyyət üçün düzgün qərarlar qəbul edə bilsinlər. Bununla belə, əhəmiyyətli inkişaflar baş versə də, tədqiqat bu məqsədlərə aşağıdakı səbəblərə görə nail olunmadığı qənaətinə gəlir:

a) əsas elmi anlayışları dərindən başa düşməmək;
b) biliyi yalnız bilmək üçün əzbərləyirlər, ondan konstruktiv istifadə etmək üçün deyil;
c) alternativ cavablar düşünə bilmədən, mexaniki şəkildə öyrəndikləri problemləri konkret şəkildə həll etmək;
d) elm öyrənməkdən əldə etdikləri biliklərin onların gündəlik həyatında birbaşa tətbiqi olduğunu dərk etmirlər;
e) öyrəndiklərini təkmilləşdirmək üçün daxili motivasiya əldə etmək.

Bir çox ölkələrdə aparılan araşdırmalar göstərir ki, məktəbdə müvafiq dərslər tədris olunmazdan əvvəl şagirdlərdə təbiət elmləri anlayışları haqqında yanlış təsəvvürlər formalaşır və təbiət aləmində baş verən hadisələri şagirdlər səhv şərh edirlər. Tədqiqatlara görə, bu yanlış təsəvvürlər və yanlış izahatlar məktəbdə tez-tez elmi şəkildə fakt və hadisələrin anlayışları və şərhləri öyrədilməsinə baxmayaraq, yetkinlik həyatında da qorunur. Xüsusi təhsil ehtiyacı olan şəxslərə təbiət elmlərinin tədrisi daha az səmərəlidir, çünki müəllimlər bu şəxslərin ehtiyac və qabiliyyətlərini aşkar etmək və müvafiq tədrisdən istifadə etmək üçün lazımi elmi təlimi almırlar. Tətbiq olunan strategiyalar, təhsil proqramlarını uyğunlaşdırmaq və mümkün olan ən yaxşı effekti əldə etmək üçün real gözləntilərə sahib olmalıdırlar. Bundan əlavə, əksər laboratoriya infrastrukturları çox vaxt işləmir və hətta fiziki çətinlikləri olan tələbələr üçün bu da əlçatmaz olur (Guerra-Reyes et al., 2024: 497). Beləliklə, bu tələbələrin səylərini dəstəkləyəcək və onlara bilik əldə etmək üçün xüsusi təhsil ehtiyacı olan sinif yoldaşları ilə bərabər yaxşı imkanları olan yeni öyrənmə mühitlərinin yaradılması üçün vacibdir. Getdikcə daha populyarlaşan və daha çox yayılan yeni öyrənmə mühitlərinə təhsil prosesində texnologiyadan istifadə daxildir. Beynəlxalq ədəbiyyata əsasən ənənəvi təhsil proqramları əsasında tədrisi effektiv olmayan xüsusi təhsil ehtiyacı olan tələbələr üçün təlimin effektivliyinin artırılmasında müəyyənedici amil olduğunu sübut edir. Müxtəlif təhsil ssenariləri ilə müşayiət olunan müvafiq proqram vasitələrindən istifadə olunarsa, İKT xüsusi təhsil ehtiyacları olan uğurlu tələbələrin kurikulumun bütün də olmasa, bəzi aspektlərdən tələblərinə cavab verməsinə böyük töhfə verə bilər (Makhambetova, Zhiyenbayeva, Ergesheva, 2021: 1-17). Sürətli inkişaf olan kompüter texnologiyası hər bir fərd üçün istənilən vaxt və istənilən yerdə öyrənməyə çıxışı təmin edir və tənqidi təfəkkürün, problem həllinin və birgə öyrənmə nailiyyətinin inkişafında təhsil üçün mühüm vasitədir. İKT tələbələrə yüksək keyfiyyətli təlimin təmin edilməsinə kömək edir və onların lazımi bacarıq və bu bacarıqlara yiyələnməsini gücləndirir. Son onilliklərdə İKT çeviklik, açıqlıq və resurslara əlçatanlığı təmin edən texnologiyadan istifadə etməklə, güclü tərəflərə əsaslanan tədris və öyrənməni xeyli təkmilləşdirilmişdir.

Tədqiqat araşdırmaları belə nəticəyə gəlir ki, İKT-dən xüsusi təhsil ehtiyacı olan tələbələr üçün təhsildə, ünsiyyətdə həyatda və onların yaşayış tərzinin müasir dövrlə ayaqlaşması üçün istifadəsi məqsədəuyğundur. İKT-nin tədrisə inteqrasiyası əyləncəli və maraqlı öyrənmə üsuludur və onlardan istifadə elə olmalıdır ki, lazımi tələblərə cavab versin və keyfiyyəti aşağı salmadan dərsin təşkilini müasir dünyaya uyğun qurmaq mümkün olsun. İKT-dən istifadə etməklə müəllimlər tədris məqsədlərinə nail olur və tələbələr bilik qazanmaq üçün yeni üsullar kəşf edirlər. Bununla belə, ciddi narahatlıq var. Çünki tədqiqatlara görə, İKT-nin inteqrasiyasına hələ tam nail olunmayıb. Onların təhsil prosesində istifadəsinin qeyri-qənaətbəxş olub olmaması həmçinin də ümumi təhsildə və ya xüsusi məktəblərdə təhsil alan tələbələr (xüsusi təhsilə ehtiyacı olan) üçün keyfiyyət göstəricisinin nə qədər olduğu tam aydın deyil (UNESCO, 2011). İKT-dən və xüsusi təhsil

müəllimləri tərəfindən istifadə tezliyi orta səviyyədədir və qənaətbəxş nəticələr vermir. Digər tərəfdən, beynəlxalq ədəbiyyata görə, son illərdə xüsusi təhsilə ehtiyacı olan insanların təhsili və inteqrasiyasında İKT-nin istifadəsi ilə bağlı araşdırmalar davam edir. Lakin onların əksəriyyəti bu şəxslərə sosial və emosional dəstəyə, onların riyaziyyat və dildə təkmilləşməsinə istinad edir. Təbiət elmləri üzrə irəliləyişlərində çətinlik çəkən tələbələrin dəstəklənməsi üçün İKT-nin istifadəsi ilə bağlı çox az tədqiqat işi var. Bu araşdırmada biz, ali təhsil üçün İKT-dən istifadə etməklə təbiət elmlərinin tədrisi və öyrənilməsi üzrə tədqiqatları nəzərdən keçirdik. Bu tədqiqatın məqsədi təbiət elmlərinin tədrisi və öyrənilməsi üçün bir vasitə kimi İnformasiya və Kommunikasiya Texnologiyalarının xüsusi təhsil ehtiyacı olan tələbələr tərəfindən bu elmlərin konsepsiyalarını, hadisələrini, faktlarını və nəzəriyyələrini başa düşməkdə verdiyi töhfəni araşdırmaqdır. Xüsusilə tədqiqatın məqsədi proqram təminatının, tətbiqlərin, İKT-yə əsaslanan tədris materialının, müxtəlif əlilliklər üçün istifadə olunan köməkçi texnologiya və ixtisaslaşdırılmış İKT vasitələrinin, tələbələrə təqdim olunan resursların və onlardan istifadə üsullarının qeyd edilməsidir. Həmçinin təbiət elmlərinin tədrisində və öyrənilməsində İKT-dən istifadə xüsusi tədrisə ehtiyacı olan tələbələrin tədris prosesində effektivliyinə necə və nə dərəcədə təsir etdiyini araşdırmaq məqsədi daşıyır.

Bu tədqiqat beynəlxalq elmi jurnallarda məqalələrin tədqiqatından irəli gələn biblioqrafik icmaldır. Tədqiqat xüsusi təhsilə ehtiyacı olan şəxslər və İKT ilə dəstəklənən öyrənmə mühitləri ilə bağlı açar sözlərdən istifadə etməklə aparılmışdır. Bu işin adına uyğun məqalədə yüksək araşdırma aparılsa da, ara sıra həm də İKT vasitəsilə digər fənlərin mənimsənilməsindən də söhbət gedir ki, bu da xüsusi təhsilə ehtiyacı olan tələbələrin avadanlıqlar vasitəsilə mənimsəmə prinsipini ortaya çıxarır və buna da geniş yer verilmişdir. Seçilmiş məqalələr İKT-dən istifadə etməklə və yalnız xüsusi təhsil ehtiyacı olan şəxslər üçün tədrisə aiddir. Xüsusi təhsilə ehtiyacı olan bir qrup tələbələr üçün tədris metodlarını təsvir edən, lakin İKT-ni daxil etməyən bütün məqalələr istisna edilmişdir. Bu məqalələrin istisna edilməsinin səbəbi odur ki, İKT gündəlik olaraq həyəcanlanan, özünə cəlb olunan və texnologiya ilə məşğul olan nəsil üçün yüksələn tədris yoludur. Həmçinin İKT-dən istifadə ilə bağlı, lakin ümumi təhsilə aid olan bütün məqalələr tədqiqata daxil edilməmişdir. Bu məqalələrin istisna edilməsi, tədqiqatın yalnız xüsusi təhsilə ehtiyacı olan şəxslərə yönəldildiyi üçün edilib. Beynəlxalq ədəbiyyatla uyğun olaraq lazımi formaya salınmışdır.

Bolqarıstanda ümumi və ya ixtisaslaşdırılmış orta məktəbdə oxuyan eşitmə qüsurlu tələbələrə fizika və astronomiya tədrisi üçün "İnsan və təbiət, fizika və astronomiya" multimedia işarəli lüğət yaradılmışdır. CD yaratmaq üçün HTML və Javascript istifadə edilmişdir. İşarələr FLASH kliplərdə göstərilib. Bu lüğət mətn izahı və müxtəlif illüstrasiyalarla müşayiət olunan əsas terminləri təhlil edərək ingilis və bolqar işarə dillərindən istifadə edir. Beləliklə, tələbələr ingilis və bolqar dillərində vizual təsvir və dodaqdan oxunan terminlər vasitəsilə fiziki prosesləri və hadisələri daha asan başa düşürlər. Həmçinin ümumi məktəblərə inteqrasiya olunmuş eşitmə qüsurlu tələbələrə kömək etmək üçün ikidillilik əlavə edir, eşitmə qüsuru olmayan insanların dünyanı necə dərk etmələrinə marağını artırır və sübut edir ki, eşitmə əngəllilərin müəllimləri təsvirlərin olduğu qədər real olmasını təmin etməlidirlər. Dünyanı, Yer kürəsini, kainatı və tabe olduğumuz bütün qanun və qaydaları öyrənmək üçün bir stimul təmin etmək mümkündür: ilk dəfə real laboratoriyada rast gəlinən sürətləndirmə konsepsiyasını tətbiq etmək üçün eşitmə əngəlli kollec tələbələrinə tətbiq edilən Second Life adlı "3-D virtual dünyası" təqdim edildi. Hər bir tələbə virtual dünya və digər tələbələrin avatarları ilə qarşılıqlı əlaqədə olan bir avatarı təmsil edir və ona nəzarət edirdi. Tələbələr laboratoriyanı istədikləri yerdə, istədikləri qədər edə bilərlər. Aralarındakı məsafə böyük olsa belə, hər zaman görüşüb birlikdə işləyə, həm də təlimatçıları ilə əməkdaşlıq edə bilərlər. Tələbələrin virtual laboratoriya təcrübələri tələbələrin cavabları ilə bağlı dərhal rəy bildirən onlayn ev tapşırığı və sınaq saytı olan Webassign ilə inteqrasiya olunub. Real həyat kimi laboratoriyalara bənzəyən Second life istifadə edərək, tələbələr real laboratoriya təcrübələrini ev tapşırığı problemlərinə inteqrasiya edir və onları tamamlamağı bacarırlar. Beləliklə, yaxşı qiymətlər alır və fizikanı öyrənməyə həvəslənirlər. İkinci həyat eyni zamanda vahid dairəvi hərəkət üçün də istifadə olunur, Arximed prinsipi və s. Tələbələrin qeyri-kafi savadlılıq bacarıqlarını həll etmək məqsədi daşıyan kollec birinci kurs tələbələri üçün veb əsaslı astronomiya kursundan istifadə etmişdir. Amerika Sing

Language tərcüməçisinin dərsi imzaladığı zaman video lentə almaq üçün istifadə edilən rəqəmsal videokamera videonu rəqəmsallaşdırmaq və sıxılmış fayl kimi saxlamaq üçün Firewire kabeli vasitəsilə kompüterə qoşulmuşdur. Eləcə də internetdə mövcud olan məzmunun animasiyasını və mətni götürən qısa klipləri özündə əks etdirən slaydlar yaradılmışdır. Sayta slaydlar və videolar veb kurs idarəetmə sistemi olan IdeaTools-a yükləndi və onların vaxtında göstərilməsi üçün sinxronlaşdırıldı. Bu yolla tələbələr texniki lüğəti və tərifi öyrənmiş, astronomiyaya dair yanlış təsəvvürləri azaltmışlar.

Bogusevschi təbiətdə "Su Döngüsü" təhsil tətbiqini ali məktəbin iki qrup birinci kurs tələbələrinə tətbiq etdi. Bu proqram əsasən tələbələrin buxarlanma və kondensasiya anlayışları və onların təbiətdəki su dövrü üçün əhəmiyyəti ilə tanış olması üçün istifadə olunur. Yağıntıların əmələ gəlməsi (Bogusevschi, Muntean, Muntean, 2020: 5-18). Həmçinin buxarlanma və qaynama tərifləri verilir. Tətbiqə göl və meşədən ibarət təbii mühiti və 360 ° virtual laboratoriyada bir pilot fəaliyyətini təsvir edən təbiətdəki su dövrü üçün 3D immersiv kompüter əsaslı virtual reallıq mühiti daxildir ki, bu da tələbələrə iki ayrı immersiv multimedia 3D simulyasiya təcrübəsini həyata keçirməyə imkan verir. Kondensasiya və buxarlanma hadisəsi haqqında. Tətbiq eşitmə qüsurlu tələbələr üçün uyğundur və həm Windows həm də Android cihazlarında mövcuddur. Tələbələr ya ekranda göstərilən mətn, ya da şifahi məlumat kimi verilən təlimatlara əməl edirlər və lazım olduqda eşitmə qüsurlu tələbələr üçün işarə dili istifadə olunur. Nəticələr göstərdi ki, tətbiqdən istifadə etdikdən sonra eksperimental qrupların bilikləri əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Elektronika mühəndisliyinin ikinci kursunda oxuyan eşitmə qüsurlu tələbələrə Om qanunu ilə əlaqəli cərəyan, gərginlik və müqavimət anlayışlarını başa düşməyə kömək etmək üçün GameOhm video oyununu əlçatanlıq xüsusiyyətləri ilə təqdim etdi (Criollo-C et al., 2021: 4111). Oyun oyunçuya anlayışları başa düşmək üçün lazım olanları öyrənməyə kömək edir. Şrift növü və ölçüsünün tənzimlənməsi istifadəçiyə daha asan oxumağa, gözlərini yormamağa və ətraf mühitdən xəbərdar olmağa kömək edir. İşarə dili oyunun təsviri və təlimatların anlaşılmasını artırır. Subtitrlər tələbələr üçün sadə dildə verilir. Game Ohm Vahid Proqram İnkişafı Prosesi və ya Vahid Proses (UP) metodologiyası ilə hazırlanmışdır və UP Vahid Modelləşdirmə Dilindən (UML) istifadə edir. Ciddi oyun Android Marshmallow 6.0.1 ilə altı Samsung Galaxy Tab S2-də quraşdırılıb, birinci semestrdə 22 tələbə sınaqdan keçirilib və onların maraqlarını artırmışdır. Onların hamısı cərəyan və müqavimət anlayışlarını və yarısı gərginlik anlayışını başa düşdülər, buna görə gərginlik üçün bütün məlumatlar təkmilləşdirilməli və ya bunun üçün başqa bir hədəf nümunəsi istifadə edilməli idi.

Alimlər gündəlik həyatda kimya materialında qeyd olunan orta məktəb eşitmə əngəlli şagirdləri üçün interaktiv elektron kitab yaratdı və məzmun, dil və təqdimat meyarları əsasında onun mümkünlüyünü araşdırdı (Kontopoulou, Drigas, 2020: 1-9). Bundan əlavə, tədqiqat beş eşitmə əngəlli şagirdin e-kitab haqqında cavabına yönəldilib və aşkar olunub ki, bütün tələbələr kompüter manipulyasiyasını bilirlər. Tədqiqat elektron kitabın mümkünlüyünü müəyyən edən kimya müəllimi, xüsusi ehtiyaclar üzrə müəllim və elm müəllimi tərəfindən təsdiq edilmişdir. Elektron kitabın hekayə lövhəsi biblioqrafik tədqiqat və məktəb tədqiqat məlumatlarından istifadə etməklə yaradılmışdır. Sonradan hekayə lövhəsinə əsaslanan məzmunu hazırlanmışdır. Məzmun barədə maddə, şəkillər, videolar, işarə dili videolarından ibarətdir. Qiymətləndirmənin nəticələrinə görə, e-kitabın təqdimatı, ikinci ən yüksək faiz məzmun üçün, dil faizi isə əvvəlki iki kitabdan daha kiçik olduğu üçün çox mümkündür. Həmçinin tələbələrin cavabı çox müsbət olub.

Qutieshat kimya laboratoriyalarında görmə qüsuru olan tələbələr üçün sadə Arduino əsaslı pH sensorunu (Dizayn-Arı Sensoru) təsvir etmişdir ki, bu da istifadəçi üçün əlverişli, miniatur ölçüsü və çevik kodlaşdırmaya malikdir (Qutieshat, Aouididi, Arfaoui, 2019). Bu cihaz asanlıqla və qənaətcil şəkildə istehsal olunur və IR filtri ilə ağ LED ilə qırmızı-yaşıl-mavi (RGB) rəngli sensor və piezoelektron səs siqnalı Breadboard naqilləri ilə birləşdirilən Arduino Uno mikroprosessorundan (Rev3 Arduino) ibarətdir, 5 V enerji təchizatı, universal pH kağızı, 3D-çapda tökülməyə davamlıdır. Təhlil edilən məhlulun PH-dən asılı olaraq PH kağızının rəngindəki dəyişikliklər RGB rəng sensoru tərəfindən aşkar edilir və yaradılan çıxış tonlarının sayı sensorun aşkar etdiyi PH dəyərinə bərabər proqramlaşdırılır. Tələbələr zəngin təcrübələr əldə etmək üçün

daha maraqlı PH kağızı məşğələləri ilə də fəal şəkildə məşğul ola bilər və bununla da öz həmyaşıdları ilə bərabər olduqlarına inamını və özünə inamını artırır. Beləliklə, bu tələbələrin təlim proseslərinə inteqrasiyası təşviq edilir. Bu cür cihazlar təkcə bu tələbələr üçün deyil, həm də əlilliyi olmayan həmyaşıdları üçün faydalı və maraqlı laboratoriya təcrübəsi təqdim edir.

Quinn musiqiyə çevrilən interaktiv görüntü təcrübəsi olan "Günəşdə gəzinti"ni təqdim etdi. Kəşfiyyatçı Günəşin təsviri üzərində gəzir və ya hərəkət edir (Daskalopoulo et al., 2012: 270-287). Günəşin şəkilləri ağ döşəməyə proyeksiya edilmişdir. Birinci mərhələdə ziyarətçinin hərəkətləri vizual olaraq aşkar edilir, vizual müşahidə proqramı vasitəsilə qeydə alınır və təsvirin piksel seçimi üçün istifadə olunur. İkinci mərhələdə piksellərin məzmunu real vaxt rejimində fərdi olaraq dinlənilən musiqiyə çevrilir. Rəng doqquz musiqi alətindən birinə, parlaqlıq isə 50 səsdən birinə uyğunlaşdırılıb. Bu çevrilmə üçün MIDI (Musiqi Aləti Rəqəmsal İnterfeys) idarə olunan daxili və ya xarici sintezatorlardan istifadə edilir. Musiqidə gitara, piano, polad nağara və s. kimi alətlərin melodiyaları və ya akkordları var. Beləliklə, görmə qüsurlu insanlar STEREO (Günəş) vasitəsilə Günəşin şəkillərini araşdıra bilərlər. Yerlə Əlaqələr Rəsədxanası missiyası, dumanlıqları və Hubble Teleskopundan qalaktika şəkilləri, eləcə də sənət şah əsərləri gözdən əlil tələbələrə müraciət edən "Günəşdə gəzinti"nin nəticələri onların rəng anlayışının nisbətən asan olduğunu göstərdi. Tələbələrin əksəriyyəti bir seansda ən azı bir rəngin xəritəsini çəkə və şəkillərdəki rəngləri müəyyən edə bilər.

Morgan və Moore klaviatura naviqasiyası və eşitmə təsvirlərini mövcud PHET simulyasiyası Kondansator Laboratoriyasına daxil etdi: Görmə qüsuru olan orta məktəb və bakalavr tələbələri üçün əsaslar (Randall, 2016). Kapasitans ekranı bir dövrədə bir batareya və bir kondansator, bir kapasitans bar qrafiki, təcrübənin fiziki kəmiyyətlərinin dəyərlərini dəyişdirmək üçün idarəetmə panelini göstərir. Light Bulb ekranı əlavə olaraq dövrədə bir lampa və enerji yüklənməsi və yığılmış enerji üçün bar qrafiklərinə baxmaq üçün seçimlər göstərir. Şagirdlər enerji sahəsi və ayrılmasından tutum asılılığını, gərginlik, yük, yığılmış enerji və tutum arasındakı əlaqəni və kondansatorun boşaldılması və yükün lampada necə çatdığını başa düşürlər. Yalnız klaviatura daxiletməsindən istifadə edən tələbələr naviqasiya edə və sim ilə əlaqə saxlaya bilər. Ekran oxuyucu proqramı ilə əldə edilən audio təsvirlər bütün parametrlər və xüsusiyyətlər və dinamik əks əlaqə haqqında şifahi məlumat verir. Klaviaturadan istifadə edərək diqqəti ekran ətrafında hərəkət etdirərək tələbələr sim ilə nə edə biləcəklərini başa düşür və onların konseptual suallarını araşdırırlar. Nəticələrə görə, tələbələr ətraflı təlimatlara ehtiyac olmadan qarşılıqlı əlaqə qurur və fundamental fizika anlayışlarını başa düşürlər.

Cole və Slavin görmə qabiliyyəti zəif olan tələbəyə fizika laboratoriya təcrübələrini tələb edən kimyəvi fizika üzrə universitetin proqramında demək olar ki, tamamilə iştirak etməyə kömək etmək üçün müasir video texnologiyasını təqdim etdi (Kontopoulou, Drigas, 2020). Tələbə Akrobat Paneli və Uzun Qolu seçdi. Acrobat Panel 19 düymlük LCD monitordur və Uzun Qol daxili avtofokusla təchiz edilmiş oynaq qoldur. Sonunda video kamera. Kamera 60 santimetr radiusda istənilən yerə quraşdırıla bilər, bir neçə santimetrdən 50 metrə qədər olan obyektlərə fokuslana bilər və pult vasitəsilə onları 72 dəfə böyüdə bilər. Kontrast və rəng parlaqlığı seçimi də var. Təcrübə zamanı kamera bir vəziyyətdə olduqda kilidlənə bilər və mövqeyini, fokusunu və böyütmə qabiliyyətini qoruya bilirdi. Bu, tələbəyə LCD ekrana baxarkən öz əlləri ilə tapşırığı yerinə yetirməyə imkan verdi. Beləliklə, tələbə laboratoriya işlərini müstəqil yerinə yetirə bilər. USB kabeldən istifadə edən kamera USB portu vasitəsilə noutbuka və ya masaüstü kompüterə qoşulur və kompüter ekranı bölünərək həm kamera şəkillərini, həm də kompüter çıxışını göstərə bilər ki, istifadəçi kamera materialını müşahidə edərkən qeydləri yazmaq və ya məlumat daxil etmək üçün kompüterdən istifadə edə bilsin.

Nazemi görmə qabiliyyəti zəif olan tələbələr üçün kimyəvi tənlikləri balanslaşdırma metodunu təsvir etmişdir (Nazemi, McMeekin, Murray, 2015: 805-812). Xüsusilə onlar Kimyəvi İşarələmə Dili ideyasından istifadə etdilər – CML XML, əsas teqlər əlavə etməklə balanssız kimyəvi tənliyi Mark-up formatına çevirmək üçün geniş kimyəvi anlayışlar üçün semantika təklif edən əsas yanaşma vermişdir. Bu tənliklərin təsviri növlər, elementlər, tənliklərin sol və sağ hissəsindəki kəmiyyətlərin

sayı, reaktivlər və məhsullar kimi təsnif edilmiş məlumatlar arasında naviqasiya etmək imkanı verir. Bu yolla gözdən əlil tələbələr riyazi tənliklər yaratmadan və böyük miqdarda məlumatı yadda saxlamadan kimyəvi tənlikləri tarazlaşdırmaq üçün düzgün əmsalları tapa biləcəklər. Mark-up formatında təqdimat üçün Linux Bash Script istifadə edilmişdir. Komanda xətti rejimində güclü mətn manipulyasiya vasitələri beləliklə balanssız kimyəvi tənliyi giriş kimi qəbul edə bilər, məlumatları emal edir, təsnif edir və onu İşarələmə formatı və ya Text to Speech istifadə edərək Alternativ Audio Təsviri kimi təqdim edir. Nəticələrə görə tətbiq kimyəvi tənliklərin tarazlaşdırılması üçün etibarlıdır, buna görə də tələbələrdən istifadə edilə bilər.

Kopsidas robot fizika laboratoriyasında kinetik qüsurlu tələbələrə fizikanın tədrisi üçün İKT sistemini tərtib etmişdir (Kopsidas et al., 2009). Sistemin Robot İdarəetmə Stansiyasında (RCS) qeydiyyatdan keçmiş hər bir istifadəçi istifadəçinin kinetik qüsurlarının növündən asılı olaraq onların sürətli kalibrlənməsi üçün əlaqələrin və robot qollarının bütün lazımi tənzimləmələri ilə şəxsi profil məlumat bazasına malikdir. RCS yeni eksperimenti və ya saxlanılan təcrübəni oxuyur və robot idarəetmə interfeysi vasitəsilə RFID oxuyucusu olan robot qolunu RFID olan lazımi əşyaları tamamilə doğru yerə yerləşdirmək üçün istiqamətləndirir. İstifadəçilər robot qolundan əl ilə istifadə etməklə və ya Yüksək Səviyyəli robot Dilindən istifadə edərək onu proqramlaşdırmaqla təcrübə edə bilərlər. Uzaqdan təhsil alan tələbələr World Wide Web vasitəsilə laboratoriya platformasının Virtual LAN şəbəkəsinə qoşulur, platformaya daxil olur, öz profilini yükləyir, uzaqdan idarəetmə funksiyası ilə eksperimentlər hazırlayır və həyata keçirir. İstifadəçilər real şərait və etibarlı nəticələrlə kameralar vasitəsilə real vaxt rejimində təcrübə performansını müşahidə edirlər. Universal Virtual Laboratory (UVL) bunu əllərini və qollarını məhdudlaşan və ya istifadə edə bilməyən tələbələr üçün istifadə etmişdir. UVL məqsədi onlara öz-özünə inkişaf edən real laboratoriya təcrübəsi və istiqamətlər və rəylər üçün ağıllı laboratoriya köməkçisi təqdim etməkdir. O, sabit cərəyan və keçici sxemləri təhlil edir, laboratoriyadan əvvəl təcrübə kimi və ya distant təhsilin bir hissəsi kimi istifadə olunur və böyük klaviaturalar, səsin tanınması və s. kimi adaptiv texnologiyalardan istifadə edir. İstifadəçi interfeysi miniatür alətlər və elektrik komponentləri olan lövhədən ibarətdir. İstifadəçi aləti və ya komponenti seçərkən və kabelə qoşulmaq istədiyi dəlik koordinatları daxil etdikdə lövhələri dəliklərinə qoşulur. Dragon Dictate səs interfeysi vasitəsilə tələbələr alətləri idarə etmək və dövrə qurmaq və ya qurmaq üçün paketlənmiş müəllif proqramından istifadə edirlər. PSpice proqramı dövrəni təhlil edir, PSpice çıxışından çıxan analiz məlumatlarını emal edir və LabView proqramından göstərilir. UVL ilk olaraq əlilliyi olmayan bakalavr tələbələrinə tətbiq olundu və istifadəçi üçün əlverişli olduğu və bütün tələbələrin bundan razı qaldığı aşkar edildi. Adaptiv texnologiya üzrə mütəxəssis UVL-nin fiziki qüsurlu elektron laboratoriya istifadəçilərinə laboratoriyalarda olmadan real simulyasiya edilmiş elektronika avadanlığına daxil olmaq imkanı verdiyi qənaətinə gəldi.

Kyriakou İKT-dən istifadə etməklə multisensor yanaşmanın Daun sindromlu (Ds) və yüngül əqli qüsurlu birinci kurs tələbəsinə biologiya kursuna, yəni bitki çoxalmasına qoşulmağa kömək edə biləcəyini araşdırdı (Kyriakou, Charitaki, Kotsopoulou, 2015: 158-167). Professor proyektor və noutbukdan istifadə edərək veb-sayt vasitəsilə dərsi təqdim edərkən, xüsusi təhsil müəllimi ona terminləri izah etmək üçün lüğətdən və veb-saytın məzmununu nümayiş etdirən iPad-dan istifadə etməyə kömək edirdi. Professor hər bir masanın yanından keçərkən təbii çiçək sərgilədi və hər bir tələbə onun hissələrini göstərdi və adlandırdı. Sonra lövhədə üç müxtəlif çiçək çəkdi və hissələrini yazmaq üçün şagirdlərinə ötürdü. Ds tələbə və onun müəllimi iPad rəsm proqramı vasitəsilə eyni prosesi izlədi. İndi onlar, bitki hissələrini müəyyən edə bildilər. Şagird qrupları dərsdən sonra bir araya gəldi, internetdən məlumat tapdı, təqdim etdikləri güc nöqtələrini yaratdı və hər qrup çap olunmuş şəkillərdən ibarət plakat hazırladı. Ds olan tələbə, interaktiv biologiya kitabından bir fəaliyyətdə ipadından istifadə edərək yoxlanıldı. Dərslərdə Kidspiration, google images və maps, YouTube, elektron kitablar və tədris proqramlarından istifadə olunmağa başladı. Beləliklə, tələbə möhtəşəm bir irəliləyiş əldə etdi və ümumi sinfə qoşuldu.

El Salvador intellektual və inkişafda çətinlikləri olan orta məktəb fərdləri üçün 3 PhET simulyasiyasına audio elementləri daxil etmişdir (Salvador-Ullauri et al., 2020: 6324). Statik elektrik

üçün "John Travoltage" və "Balonlar və Statik Elektrik" istifadə edilmişdir. Birincidə tələbələr real “sürtünmə” səsinə qulaq asaraq Conun ayağını xalçanın üzərində hərəkət etdirir və yük artdıqca yüksələn səslərlə qısa tonları eşidən onun bədənində mənfi yüklər toplayırlar. Qolunu qapı dəstəyinə doğru və ya ondan uzaqlaşdırmaq yüklərin ona doğru hərəkət etməsinə səbəb olur və nəticədə "zap" olur. İkincidə, şar sviterə sürtüldükdə mənfi yüklər sviterdən şara keçir və sərbəst buraxıldıqdan sonra sviterin üzərinə yapışır. Balon divarın bir hissəsinə yaxın hərəkət edərsə, bu hissə müsbət yük alır. Pulse tonunun həcmi şar yükünün artdığını göstərir. Başqa bir qısa ton ötürülən yükdən asılı olaraq tezliyini artırır. “Atom yaradın” mövzusunda tələbələr vedrələrdən protonları, neytronları və elektronları artan və enən tonları eşidən atom modelinə sürükləyirlər. Onların seçilməsi və buraxılması və daxili atom üçün axtarış məlumatlarını təmsil edir. Yeni quraşdırılmış element növü üçün iki ton birlikdə oynayır. Nəticələr tələbələrin xoşbəxt olduqlarını, qarşılıqlı əlaqədə olduqlarını və sims tərəfindən uğurla araşdırıldığını göstərdi. Onların bir çoxu bütün məsələləri, əsasən, verilən tapşırıqları yerinə yetirdikdən sonra başa düşdülər.

Kim Astronomiyanın “gecə-gündüz” tematik vahidinin tədrisində və öyrənilməsində texnologiyadan istifadə etməklə, əzələlərini idarə etməkdə böyük çətinlikdən tutmuş zehni zəiflik səbəbindən yüngül nitq pozğunluğuna qədər dəyişən motor qüsurları olan tələbələrə multimodal modelləşdirmə fəaliyyətlərindən istifadə edərək fənlərarası yanaşmanın təsirlərini araşdırdı (Kim, 2017: 2133-2154). İKT ilə inteqrasiya olunmuş hekayə fəaliyyəti tələbələrin hekayə hadisələri ətrafında təcrübə, hisslər, inanclar və çağırışlar mübadiləsi apara bildikləri üçün dizayn edilmişdir ki, onlar gecə və gündüzün səbəbləri haqqında öz anlayışlarını qura bilsinlər. Daha sonra şifahi ifadələrdən, könüllülərlə rəsmlərdən istifadə edən uşaqlar müəllimlərinin rəhbərliyi və təşviqi ilə ünsiyyət qurdular və mövzu üçün mənalar quran həmkarlar və ya ortaq iştirakçılar oldular. Sonrakı tələbələr gecə-gündüz dövrünü təmsil etmək üçün günəş, yer və ay kimi 3D fiziki modelləri necə yerləşdirmək barədə düşünə və istiqamətləndirilən suallar və təkzib edilmiş yanlış fikirlər vasitəsilə bunun izahını tapa bilərlər. Nəhayət, tələbələr Günəş, Yer, Ay, Gündüz və Gecə rollarını və bədən hərəkətlərindən istifadə edərək modelləşdirmə fəaliyyətində iştirak etmək və bununla da gecə və gündüz dövrünü daha da başa düşmələrini təmin etmək üçün digər rolları öz üzərinə götürdülər.

Vassilopoulou və Mavrikaki biologiya dərsləri zamanı AD/HD şagirdinin davranışını öyrənib. İKT-dən istifadə etmədən Lamarkın nəzəriyyəsi üçün dərs 4 mərhələdə keçirildi (Vassilopoulou, Mavrikaki, 2016: 246-257):

1. Giriş məlumatı.
2. Müəllimin sualları vasitəsilə tələbələrin bu nəzəriyyə ilə bağlı fikirlərinin ifadəsi.
3. Müvafiq iş vərəqlərindən istifadə edərək izahat yolu ilə şagirdlərin fikirlərinin yenidən qurulması.
4. Şagirdlər nəzəriyyə mexanizmini təhlil edərək, nümunələri izah etməyə çalışdılar.

İKT-nin istifadəsi ilə Darvin nəzəriyyəsi üçün dərs də 4 mərhələdə aparıldı:

1. PowerPoint faylından istifadə edərək giriş məlumatı.
2. Anket vasitəsilə şagirdlərin fikirləri interaktiv lövhədə əks etdirilmişdir.
3. “PhET: Təbii Seleksiya (PHET sims)” və iş vərəqləri ilə 3 fəaliyyətdən istifadə etməklə şagird qavrayışlarının yenidən qurulması.
4. Şagirdlər müəyyən fəaliyyət nümunələrində təbii seçmə mexanizmlərini təhlil etdilər. AD/HD tələbə İKT dərsinə üstünlük verdi və anlayışları daha yaxşı başa düşdü.

Onun xarici stimullardan yayınması azaldı və o, öyrənmə prosesində daha çox diqqət mərkəzində iştirak etməyə hazır idi. Onun hiperaktivliyi daha çox azaldı. İmpulsivliyin yaxşılaşması daha az nəzərə çarpırdı. Lakin tədqiqatçıların və AD/HD tələbələrinin fikrincə, yaxşı tədris və İKT-dən istifadənin birləşməsi şagirdin performansını artıra bilər.

Ma və Zhang kollec fizikasında öyrənmə əlilliyi (LD) olan bakalavr tələbəsinin performansını araşdırdı. Təcrübə sinfinə onlayn və oflayn öyrənməni birləşdirən kütləvi açıq onlayn kurslara (MOOC) əsaslanan tələbə mərkəzli hibrid tədris rejimi tətbiq edildi (Ma, Zhang, 2019: 93-96). LD olan tələbələr nadir hallarda dərsdən əvvəl baxırlar, buna görə də MOOC üçün video önizləmə kursunun məzmunundan dərsdən əvvəl performans qiymətləndirməsində istifadə vaxtını təcəssüm

etdirən qiymətləndirmə sistemi istifadə olunur. İnteraktiv dərhal geribildirim sistemi klikləyicisi tələbələrin fəallığını və təşəbbüskarlığını artırır. Dərslikdən və MOOC önizləməsindən istifadə edən sinif şagirdləri avtonom şəkildə öyrənir, onlayn öyrənmə və müzakirələrdə iştirak edir, tələb olunan tapşırıqlar barədə soruşur, beləliklə, öyrədilən bilikləri möhkəmləndirir. Müəllimlər sinifdə vacib məzmuna və tələbələrin suallarına diqqət yetirir və sinif praktikasında ənənəvi tədrisdən daha çox vaxt ayırırlar. Nəzarət sinfi ənənəvi üsulla əsasən mühazirə ilə tədris olunur. Bütün tələbələr müəllimlərinin dərs işindən razıdırlar. Bir çox tələbə hesab edir ki, MOOC əsasında tədris bütün tələbələr üçün daha yaxşı təlim nəticələri verir. Xüsusilə LD olan tələbələr üçün ənənəvi tədrisdən əhəmiyyətli dərəcədə daha səmərəlidir və onların fizikanı öyrənməyə marağını artırır.

Baumann və Melle əksəriyyətində öyrənmə pozğunluğu olan xüsusi təhsil ehtiyacı olan və olmayan (SEN) aşağı orta məktəb tələbələri üçün UDL-dən istifadə edərək öyrənmə proqramının təsirlərini dizayn etmiş və araşdırmışdır (Baumann, Melle, 2019). Onlar tədris məzmununun təqdimatına diqqət yetirən Ekspozisiya tədris metodundan istifadə etdilər. Proqram təminatının öyrənilməsi üçün müəllif proqram təminatının hazırlanması Mediator 9.0 adlanır və tələbənin qarşılıqlı əlaqəsinə imkan verən istifadə edilmişdir. Öyrənmə proqramının birinci hissəsi kimyəvi reaksiya, kimyəvi tənlik və fiziki proseslə, ikincisi isə oksidləşmə, kütlənin sabitliyi və submikroskopik səviyyəni təhlil edir. Hər bir mövzuya rəqəmsal məlumat daxiletməsi, dərhal rəy bildirməklə özünüqiymətləndirmə vərəqləri müxtəlif tapşırıqlar və tələbələrin növbəti mövzuya keçmək üçün tamamlamalı olduqları məlumat mətnləri daxildir. Real eksperimentlər aparılır. Performans testindən və tələbələr tərəfindən tamamlanan duruş testindən əldə edilən məlumatlar üçün Wilcoxon-testindən istifadə edilmişdir. Seçilmiş tələbələrin fəaliyyətini qeyd edən videolar MAXQDA proqramı ilə təhlil edilmişdir. Nəticələrə görə, öyrənmə proqramı ümumi öyrənmə obyektində fərdi və differensial şəkildə öyrənən SEN olan və olmayan tələbələr üçün faydalıdır.

## Nəticə

Bu tədqiqat təbiət elmlərinin tədrisində və öyrənilməsində istifadə edilən İKT-nin xüsusi təhsil ehtiyacı olan şəxslərə təsiri ilə bağlı çox mühüm nəticələrə gətirib çıxarır. İKT-dən istifadə etdikdən sonra şagirdlərin performansında irəliləyişlər oldu. Onların ən yaxşı performansı İKT-nin istifadəsindən sonra daha yüksək post-test balı ilə göstəmələri olub. Tələbələr tədris prosesində həm öyrənir, həm də bunu əyləncəli hala gətirirlər. Onlar üçün dərs prosesi sıxıcı və yorucu olmur. Çünki öyrənmə onların maraqlarına uyğun qurulur. Qeyd etmək lazımdır ki, bu təkmilləşdirmə materialın daha yaxşı başa düşülməsinə gətirib çıxarır. Tələbələrin və şagirdlərin artan motivasiyasının təkcə təbiət elmlərinə münasibətinə deyil, həm də bu istiqamətdə təhsillərini davam etdirmələrinə müsbət təsir göstərdiyi hallar olubdur. Tipik bir nümunə, görmə qüsurlu tələbələrin laboratoriyaları aparılması və onlara burada müəyyən tədqiqatlarla məşğul olacaqlarını bildirdikdə, onlar müsbət mənada təəccüblənir və elmə qarşı maraqları artırır. Bu ona gətirib çıxarır ki, onlar da bu təhsil prosesinin bir üzvləridir. Həmin tələbələrində mükəmməl təhsil almağa ehtiyacları vardır. Heç bir qüsur onlara mane ola bilməz. Əgər görmə qabiliyyəti zəif olan tələbələr təcrübədə daha çox iştirak etsələr, onlar laboratoriya təcrübələrində fəal iştirak etmək qabiliyyətinə malik olduqlarına inanacaqlar ki, onlar təbiət elmləri ilə yanaşı, riyaziyyat və texnologiyada da oxuyub işləyəcəklər. Xüsusi təhsil ehtiyacı olan şəxslərin yaşıdları arasında bilik fərqi azdır. Çünki İKT-dən istifadə görmə qüsurlu kimi əvvəllər bu imkanı olmayan tələbələr üçün dərhal təcrübə, fərdiləşdirmə, öyrənmə məkanlarına çıxış təklif edir və ya hərəkətlilik çətinliyi olan uşaqlar, həmçinin görmə və ya eşitmə qüsurlu tələbələr əksər hallarda İKT-dən istifadə etmədən biliklərin passiv alıcıları olub, texnologiyanın köməyi ilə isə tədris prosesində fəal və müstəqil iştirak edirlər. Texnologiya onlara öyrənmə zonasında olmağa və laboratoriyalarda müstəqil şəkildə və uzaqdan öyrənmə prosesində həqiqi laboratoriya məkanındaymış kimi iştirak etməyə imkan verdiyi halda qüsurlu tələbələr laboratoriyada ola bilmirdilər. Həmçinin, hər bir şagird öz sürəti ilə öyrənir, lakin eyni sinif yoldaşları və müəllimləri ilə qarşılıqlı əlaqə qurur və ümumi məktəblərə gedə bilər. Müəllimin iştirakı bütün hallarda zəruri idi. Müəllim şagirdləri həvəsləndirir, uşaqların suallarını cavablandırır, materialı seçir və onları prosesin məqsədindən yayınmamaq üçün əlaqələndirir,

məsələn, oyunlarda uşaqlar o qədər həyəcanlı ola bilərlər ki, onlar oyunu öyrənirlər, lakin onun içindəki bilikləri deyil. Müəllim şagirdlərdən biliyin köməkçisi hesab olunur (Kim, 2017: 2133-2154). DEHB olan tələbə İKT ilə kursun onu həyəcanlandırmasına və onun diqqətini və təlim prosesində iştirakını artırmasına baxmayaraq, ənənəvi tədrisi zəruri hesab edirdi (Vassilopoulou, Mavrikaki, 2016: 246-257). Bəzi tədqiqatların göstərdiyi kimi, müəllim daha yaxşı nəticələr əldə etmək üçün dəfələrlə İKT-dən istifadəni digər tədris metodları ilə birləşdirir. Məsələn, Daun sindromlu tələbələrin differensiallaşdırılmış tədrisi İKT xüsusi təhsil ehtiyacı olan fərdləri gücləndirir, çünki bütün tədqiqatlar müstəqillik, muxtariyyət, ünsiyyət və sinif yoldaşları ilə əməkdaşlıq; fərdiləşdirmə və dərhal geribildirim sayəsində yaxşı performansları dəstəklənir (Kyriakou, Charitaki, Kotsopoulou, 2015: 158-167). Şagirdlər özünə inam hissi qazanır və əlilliyi olmayan sinif yoldaşları ilə bərabər bilik imkanlarına malik olduqlarını hiss edirlər (Qutieshat, Aouididi, Arfaoui, 2019). İKT-dən istifadənin heç bir mənfi təsiri olmayıb.

**Məhdudiyyətlər – gələcək tədqiqat**

Bu icmalda ilk məhdudiyyət bu mövzuda mövcud olan tədqiqatların və elmi araşdırmaların sayının məhdud olmasıdır. İkinci məhdudiyyət ondan ibarətdir ki, hazırkı məqaləyə yalnız xarici dildə ədəbiyyatlara istinad edilmişdir. Digər bir məhdudiyyət, tədqiqatın nəticələrinin bir-biri ilə uyğun olmasıdır, buna görə də tədqiqatlar arasında müqayisəli tədqiqat yoxdur. Tədqiqatın ikinci məhdudiyyətinə əsaslanaraq, biblioqrafik olaraq mövzunu daha da öyrənmək mümkündür. Birinci məhdudiyyəti nəzərə almaqla, xüsusi təhsil ehtiyacı olan bütün uşaqların təhsil keyfiyyətini artırmaq üçün İKT-dən istifadə qaydalarını necə tətbiq etmək lazım gəldiyini və onlara hansı müsbət nəticələri verəcəyini araşdırmaq lazımdır. Təbiət elmlərinin tələbələrə mənsitmək və həmin fənlərə olan maraqları artırmaq üçün İKT-dən istifadə ən səmərəli üsuldur. Eyni əlilliyi olan təbiət elmləri üzrə marağı olan müxtəlif yaşlarda olan tələbələrin xüsusi bir texnologiya ilə işləmək bacarıqlarını və həmin texnoloji avadanlıqları tədris prosesində necə tətbiq etdiklərini araşdırmaq maraqlı olardı. Bununla biz onlara hansı texnologiyanın uyğun olduğunu müəyyən edə bilərik. Təbiət elmlərini daha yaxşı öyrənmək üçün hər yaş qrupu üçün şagird və tələbələrə İKT bacarıqlarını mənimsətmək lazımdır. Həmçinin müəllimlərin üzləşdiyi çətinlikləri və ya çatışmazlıqları aradan qaldırmaq üçün tədqiqatların aparılması yaxşı olardı ki, onlar həm özlərini, həm də tələbələrinin öyrənmə prosesində ən yaxşı nəticəni əldə etməyə kömək edən texnologiyalarla təlim keçə bilsinlər.

## Ədəbiyyat


1. Guerra-Reyes, F., Guerra-Dávila, E., Naranjo-Toro, M., Basantes-Andrade, A., & Guevara-Betancourt, S. (2024). Misconceptions in the learning of natural sciences: A systematic review. Education Sciences, 14(5), p. 497.
2. Makhambetova, A., Zhiyenbayeva, N., & Ergesheva, E. (2021). Personalized learning strategy as a tool to improve academic performance and motivation of students. International Journal of Web-Based Learning and Teaching Technologies (IJWLTT), 16(6), pp. 1-17.
3. Bogusevschi, D., Muntean, C., & Muntean, G. M. (2020). Teaching and learning physics using 3D virtual learning environment: A case study of combined virtual reality and virtual laboratory in secondary school. Journal of Computers in Mathematics and Science Teaching, 39(1), pp. 5-18.
4. Criollo-C, S., Guerrero-Arias, A., Jaramillo-Alcázar, Á., & Luján-Mora, S. (2021). Mobile learning technologies for education: Benefits and pending issues. Applied Sciences, 11(9), p. 4111.
5. Kontopoulou, M. T. L., & Drigas, A. S. (2020). Natural sciences teaching by using of ICTs to individuals with special educational needs. International Journal of Management and Humanities, 5(4), pp. 1-9.
6. Qutieshat, A., Aouididi, R., & Arfaoui, R. (2019). Design and construction of a low-cost arduino-based pH sensor for the visually impaired using universal pH paper.
7. Daskalopoulou, S. S., Khan, N. A., Quinn, R. R., Ruzicka, M., McKay, D. W., Hackam, D. G., ... & Canadian Hypertension Education Program. (2012). The 2012 Canadian hypertension education

program recommendations for the management of hypertension: blood pressure measurement, diagnosis, assessment of risk, and therapy. Canadian Journal of Cardiology, 28(3), pp. 270-287.

8. Randall, E. (2016). Developing accessible physics simulations for students with vision impairments.
9. Nazemi, A., McMeekin, D. A., & Murray, I. (2015). Unbalanced chemical equations conversion to mark-up format and representation to vision impaired students. Computer Applications in Engineering Education, 23(6), pp. 805-812.
10. Kopsidas, S., Tsavli, M., Fragakis, J., Zisiadis, D., & Vavougios, D. (2009). Integrated ICT system for teaching physical sciences in a robotic laboratory. International Journal of Emerging Technologies in Learning (iJET), 4(2009).
11. Kyriakou, T., Charitaki, G., & Kotsopoulou, A. (2015). Multi-sensory approach through the use of ICT for the school inclusion of a child with Down syndrome. Procedia Computer Science, 65, pp. 158-167.
12. Salvador-Ullauri, L., Acosta-Vargas, P., Gonzalez, M., & Luján-Mora, S. (2020). Combined method for evaluating accessibility in serious games. Applied Sciences, 10(18), p. 6324.
13. Kim, M. S. (2017). Multimodal modeling activities with special needs students in an informal learning context: Vygotsky revisited. Eurasia Journal of Mathematics, Science and Technology Education, 13(6), pp. 2133-2154.
14. Vassilopoulou, A., & Mavrikaki, E. (2016). Can ICT in biology courses improve AD/HD students' achievement? Improving Schools, 19(3), pp. 246-257.
15. Ma, L., & Zhang, J. (2019, June). Exploration and practice of college physics teaching for students with learning difficulties. In Proceedings of the 5th International Conference on Frontiers of Educational Technologies, pp. 93-96.
16. Baumann, T., & Melle, I. (2019). Evaluation of a digital UDL-based learning environment in inclusive chemistry education. Chemistry Teacher International, 1(2), 20180026.

Göndərilib: 04.05.2024 Qəbul edilib: 20.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/89-97

**Əbdülhüseyn Zamanov**
Naxçıvan Dövlət Universiteti
ebdul@gmail.com
https://orcid.org/0009-0003-2523-3505

# AZƏRBAYCANDA İNNOVASİYAYÖNÜMLÜ İQTİSADİYYATIN İNKİŞAFINDA NAXÇIVAN İQTİSADİ RAYONUNUN YERİ VƏ ROLU

**Xülasə**

Məqalədə Naxçıvan iqtisadi rayonunda yaxın illər ərzində təhsil, elm və digər intellektual sahələrdə ciddi dönüş yaratmaq istiqamətində atılan addımlardan, informasiya və bilik iqtisadiyyatının qurulması prosesinin sürətləndirilməsinə nail olunmasından bəhs edilmişdir. Tədqiqat işində muxtar respublikada innovasiyayönümlü iqtisadiyyatın bütün sahələrinin inkişafı, elmi-texniki infrastrukturun modernləşdirilməsi, elmin, təhsilin və istehsalın inteqrasiyasının təmin edilməsi, idarəetmə strukturunun təkmilləşdirilməsi, innovasiya infrastrukturunun yaradılması, texnoparkların, biznes mərkəzləri şəbəkəsinin yaradılması, onların müasir vəziyyətinin tədqiqi problemlərinin öyrənilməsi və bu istiqamətdə işlərin aparılması bir məqsəd kimi qarşıya qoyulmuşdur.

Məqalədə Naxçıvan iqtisadi rayonunda son illərdə əldə olunmuş nailiyyətlər, eyni zamanda mövcud problemlər kompleks şəkildə araşdırılmış, region iqtisadiyyatının gələcək inkişafının investisiya cəlbediciliyini artırmaqla, sürətli inkişafı təmin etməyi, daxili bazarın tələbatının ödənilməsi və əhalinin rifah halının yaxşılaşdırılması məsələlərindən bəhs edilmişdir.

Araşdırmada başlıca məqsədlərdən biri də "qara qızıl" sərvətini intellektual sərvətə çevirməkdir. Digər əsas məqsəd isə elm və innovativ layihəli yeni fikir və ideyaların dəstəklənməsi hesabına iqtisadiyyatın dayanıqlı və davamlı inkişafının sürətləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının artırılmasına nail olmaqdır.

***Açar sözlər:*** *texnologiya, innovasiya, texnopark, rəqabətqabiliyyətli, davamlı inkişaf*

**Abdulhuseyn Zamanov**
Nakhchivan State University
ebdul@gmail.com
https://orchid.org/0009-0003-2523-3505

# Innovation-oriented economy in Azerbaijan location and role of Nakhchivan economic district in the development

**Abstract**

The article talks about the steps taken in the direction of creating a serious turn in education, science and other intellectual fields in the Nakhchivan economic region, and the acceleration of the process of building the information and knowledge economy. In the research work, the development of all areas of the innovation-oriented economy in the autonomous republic, the modernization of the scientific and technical infrastructure, the integration of science, education and production, the improvement of the management structure, the creation of the innovation infrastructure, the creation of a network of technology parks, business centers, the study of the problems of researching their modern state and the work in this direction is set as a goal.

One of the main goals in the research is to turn the "black gold" wealth into intellectual wealth. Another main goal is to accelerate the stable and sustainable development of the economy, and to achieve an increase in the production of competitive and export-oriented products due to the support of new ideas and ideas with science and innovative projects.

In the article, the achievements achieved in the Nakhchivan economic region in recent years, as well as the existing problems, the future development of the regional economy by increasing

investment attractiveness, ensuring rapid development, meeting the needs of the domestic market and improving the welfare of the population were discussed.

***Keywords:*** *technology, innovation, technological park, competitiveness, sustainable development*

## Giriş

XXI əsr dünya Dördüncü Sənaye İnqilabına ("SƏNAYE 4.0") qədəm qoyur. Müasir şəraitdə davamlı iqtisadi artıma nail olmaq üçün iqtisadiyyatın bütün sahələri modern texnologiyalarla yenilənməlidir. "SƏNAYE 4.0" Rəqəmsal texnologiyaların inkişafı müəssisələrin rəqabət qabiliyyətini artırır, bazarda yeni innovativ məhsul və xidmətlər üçün meydan açır.

Azərbaycan iqtisadiyyatında da dayanıqlı və davamlı iqtisadi artıma və iqtisadi böyüməyə nail olmaq üçün modernləşdirilmiş texnoloji yeniliklərə daha çox zərurət yaranır.

Ölkəmiz müasir dövrün çağırışlarına cavab vermək, iqtisadi inkişafda yeni hədəflərə çatmaq üçün innovativ inkişaf istiqamətində bir sıra addımlar atmışdır. Prezident İlham Əliyevin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında milli innovasiya sisteminin formalaşdırılması ilə bağlı əsas hədəflər müəyyən edilmişdir. Müasir innovativ texnologiyaya əsaslanan sənaye və texnologiya parkları, sənaye məhəllələri, innovasiya layihələri, Elektron hökumət və s. fondlar yaradılmışdır (1).

Azərbaycanın iqtisadi inkişaf strategiyasının əsas məqsədi neft gəlirlərindən daxil olan vəsaitlə qeyri-neft sahələrinin inkişaf etdirilməsi, davamlı iqtisadi artıma nail olunması və iqtisadiyyatın şaxələndirilməsidir .

Dövlətimizin iqtisadi inkişaf strategiyasında qarşıya qoyulan məqsədlərə nail olmaq üçün iqtisadiyyat daxilində innovasiyaların tətbiqini genişləndirmək güclü motivasiya mexanizmlərinin yaradılmasını və inkişaf etdirilməsini nəzərdə tutur. Çünki innovasiyaların tətbiqi iqtisadi prosesə müsbət təsir göstərə bilər. Dünya təcrübəsində innovasiyalar çox vaxt mövcud məhsulların təkmilləşdirilməsi və ya tamamilə yeni bilikləri dəstəkləyən bir məhsul, proses və iş modelidir. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında bildirilir ki, "innovasiya fəallığını artırmaq, yenilik üçün lazımi mexanizmləri yaratmaq, innovasiya potensialının səmərəli istifadəsini və inkişafını təmin etməklə rəqabətqabiliyyətli məhsulların yığılmasını stimullaşdırmaq üçün dövlət dəstəyi tədbirləri həyata keçiriləcəkdir və müvafiq qanunvericilik yaradılacaqdır" (1).

Müasir dünya bazarında əmtəə istehsalçıları arasında kəskin rəqabətin olduğunu nəzərə almaqla, buraxılan milli məhsulun rəqabətqabiliyyətini əhəmiyyətli dərəcədə yüksəltmək, həmçinin ölkə regionlarının yerli müəssisələrin təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəlməsi, elmi-texniki tərəqqinin sürətlənməsini təmin etməlidir. Mövcud sosial-iqtisadi durum nəzərə alınmaqla, dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olmaq üçün açıq milli iqtisadi sistemin formalaşdırılması məqsədəuyğundur. Bu, isə strategiyanın həyata keçirilməsi üsulu kimi, struktur-investisiya və xarici iqtisadi siyasətlərin sintezinə gətirib çıxarmalıdır.

Bazar iqtisadiyyatı şəraitdə milli iqtisadiyyatın tarazlı inkişafa nail olmaq üçün regionların iqtisadi inkişafını təmin edən innovasiya fəaliyyətinin yaradılması və onun səmərəli formalaşması əsas hesab edilir. Regionların iqtisadiyyatının dinamik və davamlı inkişafının təmin edilməsi innovasiya mühitinin formalaşdırılmasından asılıdır (Abbasov, Balayev, İbrahimov, 2023).

İnnovativ iqtisadiyyata keçid, yüksək texnologiya və innovasiyaların tətbiqi bazanın davamlı yenilənməsi məhsul və xidmətlərin rəqabətqabiliyyətini artırmaqla dünya bazarlarına çıxarılmasında innovasiyalar mühüm əhəmiyyətə malikdir. Azərbaycanın iqtisadi siyasətində innovasiya və innovativ iqtisadiyyatın qurulması əsas məsələlər kimi göstərilir. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" haqqında Fərmanı ilə təsdiqlənən strateji sənədlərdə innovasiyalara geniş yer verilir. Qarşıya qoyulan bu mühüm və taleyüklü məsələlərin uğurlu icrasında, regionların iqtisadiyyatına yetərli investisiyaların elmi texniki tərəqqinin son nailiyyətlərinin yönəldilməsi böyük əhəmiyyət daşıyır. Respublikamızın sosial-iqtisadi inkişafında mərkəzlə yanaşı, regionlar da yerli xammaldan texnoloji innovasiyaların təsirlərindən istifadə

etməklə yüksək keyfiyyətli məhsul istehsal edilməsində mühüm rol oynayırlar (3). Bu inkişafda Naxçıvan iqtisadi rayonunun özünəməxsus yeri vardır.

Naxçıvan iqtisadi rayonunun zəngin xammal və resurs potensialının mövcudluğu, iqlim şəraiti, enerji mənbələri, sənayesi, kənd təsərrüfatı, inkişaf etmiş nəqliyyat şəbəkəsi sosial-iqtisadi inkişafında mühüm rol oynamaqla iqtisadiyyatın çoxşaxəli inkişafına səbəb olmuşdur.

Naxçıvan iqtisadi rayonunda icrası uğurla başa çatan dövlət proqramları və ayrılıqda qəbul edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" haqqında sərəncamlar, çoxsaylı proqramlar sənaye və aqrar-emal sahələrinin, sənaye məhəllələrinin yaradılmasına, innovativ sahibkarlığın inkişafına təkan verib, məhsul istehsalı və xidmət infrastrukturları fəaliyyətə başlamışdır. Mövcud istehsal müəssisələrinin modern şəraitdə qurulması istiqamətində aparılan uğurlu və sistemli islahatlar qeyri-neft sahəsinin sürətli inkişafına təkan verməklə iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılmasına və onun coğrafiyasının genişlənməsinə yeni üfüqlər açmışdır (4).

Naxçıvan iqtisadi rayonunda son illərdə müasir elmi bilik və ideyaların, kəşf və ixtiraların nəticəsinə əsaslanan innovasiya sahələrinin genişləndirilməsi, elmi tədqiqat və yeni texnologiya üzrə innovativ layihələrin dəstəklənməsini təmin etmək məqsədi ilə 19.09.2019-cu il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi yanında Elmin İnkişafı Fondu yaradılmışdır (5). İntellektual kapital genişləndikcə yeniliklərin miqyası artır, yeni-yeni sənaye məhəllələrinin və texnoparkların biznes şəbəkələri yaradılır. Açıq iqtisadiyyat şəraitində müştərək müəssisələrin birgə fəaliyyəti ilə innovasiyalı və rəqabətqabiliyyətli məhsullarla ixracı artırmaq mümkündür. Müasir dünya üçün beynəlxalq innovasiya şəbəkələrinin formalaşması, müxtəlif ölkə və korporasiyaların elmi-texniki tədqiqat və innovasiyayönümlü birgə fəaliyyət istiqaməti xarakterikdir (6). Bu istiqamətdə yeni və müasir məhsul növləri ilə dünya bazarına çıxma imkanları artmaqdadır. Regionun iqtisadi inkişafının sürətləndirilməsi, yeni innovasiya və rəqabətqabiliyyətli, ixracyönümlü məhsul istehsalının artırılması təmin edilməkdədir.

Elmin inkişaf strategiyasının əsas istiqamətlərindən biri də Naxçıvan Dövlət Universitetinin nəzdində texnoparkın yaradılmasıdır. Universitet texnoparklarının yaradılmasının 3 əsas məqsədi olur: Elmi biliklərin toplanması, elmi işlərə tələbələrin cəlb edilməsi prosesinin yüksəldilməsi və yeni biliklərin axınının təmin edilməsindən ibarətdir. Ali təhsil müəssisəsinin köməkliyi ilə rəqabətqabiliyyətli kadrlar hazırlamaq mümkün olur. Yüksək elmi potensiala malik kadrlar müxtəlif elmi və biznes ideyalar irəli sürür, texnoparklarda öz ideyalarını praktik olaraq gerçəkləşdirməkdir .

Postindustrial dövrün qeyri-müəyyənliyindən doğan çağırışlara adekvat cavab vermək əsasında bilik iqtisadiyyatı yaranmışdır. Bilik iqtisadiyyatına əsaslanan müasir dövr elm və innovasiya biliklərinin artırılmasını və onun əqli kapitala çevrilməsin nəzərdə tutur. Bu baxımdan muxtar respublikada STEAM (Elm, Texnologiya, Mühəndislik, İncəsənət və Riyaziyyat) Mərkəzi yaradılıb. Naxçıvan iqtisadi rayonunda olan 212 məktəbdən 156-da STEAM kabinetləri yaradılıb, ixtisas təmayüllü məktəblərdə, Heydər Əliyev adına Hərbi Liseydə və digər məktəblərdə də STEAM kabinetlərinin yaradılmasına başlanılıb. Təlimlərin həyata keçirilməsi üçün Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyində150 müəllim, Naxçıvan Təhsil Nazirliyində isə 60 müəllim STEAM hazırlıq kursları keçmişdir. Təlim mərkəzində, yeni rəqəmsal texnologiyalar, innovativ biznes modellərinin, müxtəlif mühəndislik ideyalarının reallaşmasına da dəstək göstərəcək (7).

Naxçıvan iqtisadi rayonunda 2023-cü ilin may ayında vətəndaşlara xidmət və sosial innovasiyalar üzrə Dövlət Agentliyinin nəzdində "ASAN xidmət" mərkəzi region əhalisinin xidmətinə verilib. Naxçıvan "ASAN xidmət" mərkəzi müasir avadanlıqlarla təmin olunmaqla, region əhalisini innovativ yeniliklərə əsaslanan bank, daşınmaz əmlakın qeydiyyatı, sığorta, kommunal və digər xidmətlər də daxil olmaqla "bir pəncərə" prinsipi ilə şəffaf və operativ qaydada 360-dan çox xidmət həyata keçirir (8).

Ölkə prezidentinin 2019-cu il 13 sentyabr tarixli Fərmanı ilə Naxçıvan iqtisadi rayonunda "Şərur Sənaye Məhəlləsi" yaradılmışdır. Fərmanın işlənib hazırlanması Naxçıvan iqtisadi rayonunun imkanlarının səfərbərliyə alınmasını şərtləndirir. Regionun iqtisadi resurslarından səmərəli istifadə etmək üçün Şərur Sənaye Məhəlləsində 3 istehsal korpusu, 3 mərtəbədən ibarət

inzibati bina və həmin inzibati binada 24 istehsal sexi quraşdırılmışdır. İstehsal korpuslarında yeyinti və yüngül sənaye məhsullarının istehsalı üçün müəssisələr yaradılır. İlkin olaraq şirniyyat, polietilen torbalar, tütün, ayaqqabı və müxtəlif məhsulların istehsalı istiqamətində işlər aparılır (9).

Ölkəmizin daxili siyasəti modernləşməyə əsaslanan iqtisadi potensialı, öz xalqına və millətinə sonsuz diqqət və ifadəsi olan meyarlara istiqamətləndirilmişdir. Bunu isə, eyni zamanda yeni məzmunlu informasiya cəmiyyətinə keçid dövrü kimi də dəyərləndirmək mümkündür. Qloballaşan dünyada iqtisadi münasibətlərin dərinləşdiyi və genişləndiyi bir şəraitdə həyata keçirilən modernləşmə prosesi bazar subyektlərinin inkişafının əsas amili kimi çıxış edir. Bununla yanaşı, həmin proses həm milli, həm də transmilli müstəvidə çağdaş bazar münasibətlərinin təkmilləşməsinə təkan verir və elmi-texniki tərəqqi meyillərinin sürətlə artmasında əks olunur.

Naxçıvan MR-də müasir texnologiya və modern avadanlıqlarla təchiz edilmiş müəssisələr, istehsal və qeyri-istehsal infrastrukturları (nəqliyyat, enerji təchizatı, rabitə kommunikasiya, yol, mənzil tikintisi, təhsil, səhiyyə və s.) güclənən rəqabətqabiliyyətli və bu kimi digər üstünlükləri ilə dinamik inkişafı təmin edən bu obyektlərin ardıcıl olaraq istifadəyə verilməsi qururverici inkişaf göstəricisinə çevrilmişdir. Naxçıvan iqtisadi rayonu sosial-iqtisadi inkişafı ilə uzun illərin blokada şəraitini və koronavirusun təsir və təhdidlərini sıfıra endirmiş, özünün dayanıqlı iqtisadiyyatı ilə güclü mövqe ortaya qoymağı bacarmışdır.

Ötən illər ərzində Naxçıvan iqtisadi rayonunda regional dövlət proqramlarının uğurla həyata keçirilməsi makroiqtisadi göstəricilərin daha da yaxşılaşdırılmasına, sahibkarlığın və özəl sektorun inkişafına investisiya qoyuluşlarının artmasına, infrastrukturun yaxşılaşmasına, əhalinin məşğulluq səviyyəsinin atmasına, yoxsulluğun azalmasına, həyat şəraitinin yaxşılaşmasına səbəb olmuşdur. Dövlət Proqramlarının yerinə yetirilməsi öz təsirini ÜDM artım tempində daha aydın göstərdi.

**Cədvəl.**
**Naxçıvan Muxtar Respublikasının 2005-2022-ci illər ərzində sosial-iqtisadi inkişaf göstəriciləri (milyon manatla)**

| İllər / Göstəricilər | 2005 | 2010 | 2015 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|
| Ümumi Daxili Məhsul | 305,7 | 1171,3 | 2467,4 | 2773,0 | 2839,6 | 2907,8 | 3016,3 | 2990.1 |
| Sənaye məhsulu | 41,2 | 318,5 | 916,8 | 990,0 | 1014,9 | 1040,4 | 1069,6 | 1048,5 |
| Əsas kapitala yönəldilən vəsaitlər | 126,0 | 501,1 | 951,2 | 1017,0 | 1029,2 | 1041,0 | 1062,1 | 995,9 |
| Kənd təsərrüfatı məhsulu | 98,2 | 247,1 | 402,9 | 480,0 | 507,66 | 537,5 | 573,3 | 590,6 |
| Nəqliyyat sektorunda yük daşınması (min ton) | 7,0 | 11,1 | 15,9 | 16,6 | 16,9 | 16,7 | 16.9 | 16.9 |
| İnformasiya və rabitə xidmətləri | 9,0 | 36,5 | 46,9 | 51,3 | 52,7 | 55,5 | 59,3 | 60,3 |
| Pərakəndə əmtəə dövriyyəsi | 147,9 | 616,4 | 1276,9 | 1702,0 | 1725,8 | 1737,7 | 1790,4 | 1819,4 |
| Əhaliyə göstərilmiş ödənişli xidmətlər | 26,3 | 107,2 | 195,8 | 239,9 | 242,7 | 243,5 | 249,9 | 253,0 |
| ÜDM hər 1 nəfərə düşən həcmi (manat) | 807.3 | 2882,3 | 5581,1 | 6101,3 | 6201,5 | 6310,4 | 6524,6 | 6440,1 |
| Orta aylıq əmək haqqı (manat) | 86,0 | 302,6 | 399,5 | 433,0 | 484,8 | 535,8 | 553,6 | 611,4 |

Mənbə: ARDSK – https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/

Cədvəlin təhlilindən görünür ki, iqtisadiyyatın əsas sahələrinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini vermişdir. Belə ki, 2010-cu ildə ilk dəfə olaraq ÜDM-in həcmi 1 milyard 171,3 milyon manat olmuşdur. Bu göstərici 2005-ci illə müqayisədə 3,8 dəfə çox, onun hər bir nəfərə düşən həcmi isə 2882,3 manata və ya müqayisə olunan dövrə nisbətən 3,5 dəfə çox artmışdır.

2015-ci ildə ÜDM həcmi 2010-cu illə müqayisədə 2,1 dəfə artaraq 2 milyard 467,4 milyon manat olmuşdur. Onun bir nəfərə düşən həcmi 5581,1 manat təşkil etmişdir ki, bu da 2010-cu ilə nisbətən 1,9 dəfə çoxdur. Dinamikadan da görünür ki, ÜDM həcmi illər üzrə artan ardıcıllıqla davam etməkdədir. 2022-ci ildə ÜDM-in həcmi 2005-ci ilə nisbətən 9,7 dəfə artaraq 2 milyard 990,1 milyon manata çatmışdır. ÜDM adam başına düşən həcmi 2005-ci ilin müvafiq dövrünə nisbətən 7,9 dəfə çox artaraq 6440,1 manata olmuşdur.

İqtisadi təhlil göstərir ki, bütün sahələr üzrə sosial-iqtisadi inkişaf artan templə davam etməkdədir. Əldə olunmuş uğurlu nəticələr sosial-iqtisadi inkişafı xarakterizə edən əsas makroiqtisadi göstəricilərin daha da yaxşılaşdırılmasına zəmin yaratmışdır. Cədvəldən göründüyü kimi, əsas kapitala yönəldilən vəsait 2005-ci ilə nisbətən 7,8 dəfə çox artmaqla 2022-ci ildə 995,9 milyon manata çatmışdır. Pərakəndə əmtəə dövriyyəsi 2005-ci ilə nisbətən 12,3 dəfə çox, 2021-ci ilə nisbətən 1,6 % artaraq 2022-ci ildə 1 milyard 819,4 milyon manata çatmışdır. Əhaliyə göstərilən ödənişli xidmətlərin də səviyyəsi artaraq 2005-ci ilə nisbətən 9,7 dəfə çox, 2021-cu ilə nisbətən 1,6 % artaraq 2022-ci ildə 253,0 milyon manata çatmışdır.

XXI əsrin əvvəllərində muxtar respublikada sənaye potensialının müntəzəm olaraq yeni texnologiya və avadanlıqlarla gücləndirilməsi öz bəhrəsini verməkdədir. Fəaliyyət göstərən sənaye müəssisələrinin istehsalının həcmindəki dəyişiklik sənaye məhsulunun dinamik artım tempində öz əksini tapır.

Naxçıvan iqtisadi rayonunda milli sahibkarlığın təsərrüfat fəaliyyətinin inkişaf üçün lazım olan əlverişli mühitin yaradılması, mövcud təbii ehtiyatlardan və xammaldan səmərəli istifadə olunması qeyri-neft sənayesi sahələrinin dinamik inkişafına şərait yaratmışdır.

Görülən işlərin nəticəsidir ki, muxtar respublikada sənaye məhsulu 2005-ci illə müqayisədə 25,4 dəfə çox, 2015-ci ilə nisbətən 14,3 % çox artmaqla 2022-ci ilə 1 milyard 048,5 milyon manat həcmində istehsal edilmişdir. Qeyd etmək lazımdır ki, muxtar respublikada yeni sənaye müəssisələrinin yaradılması istiqamətində görülən tədbirlər nəticəsində 2022-ci ildə istehsal və sənaye müəssisələrinin sayı 109, çalışanların orta sayı isə 16763 nəfər olmuşdur.

Göründüyü kimi, iqtisadı artımın əsas hərəkətverici qüvvəsi və məcmu tələbin tərkib hissəsi olan investisiya qoyuluşlarında son bir neçə ildə ciddi dəyişikliklər müşahidə edilmişdir. Sahibkarlıq fəaliyyəti üçün investisiya mühitinin yaradılması nəticəsində son illərdə investisiyaların ümumi həcmində daxili investisiyaların həcmi xeyli artmışdır.

Həyata keçirilən məqsədyönlü tədbirlərin uğurla davam etdirilməsi və aparılan tikinti-quraşdırma işləri sayəsində Naxçıvan iqtisadi rayonunun bütün kəndlərinin və onun paytaxtı Naxçıvan şəhərinin simasını tamamilə dəyişmiş, yeni və müasir bir Naxçıvan qurulmuşdur. Naxçıvan Muxtar Respublikasında bu illər ərzində yeni tikilmiş və ya təmir edilmiş obyektlərin sayı 500-ü keçmiş, istifadə edilən obyektlərin 85 %-i sosial xarakterli olmuşdur. Həyata keçirilən işlərin həcminin artması öz növbəsində tikinti sektoruna əsaslı kapital qoyuluşunun həcminin də artmasına səbəb olmuşdur.

Əsas istehsal fondlarının təkrar istehsalına yönəldilən investisiyalar məhsul bolluğu yaradan əsas amildir. Təhlildən də görünür ki, əgər 2005-ci ildə bütün maliyyə mənbələri hesabına 120,4 milyon manatlıq investisiyadan istifadə edilmişsə, 2022-ci ildə 995,9 milyon manat vəsaitdən istifadə olunmuşdur ki, bu da 2005-ci ilin göstəricisindən 8,2 dəfə çoxdur. İnvestisiya qoyuluşunun həcminin artması Naxçıvan iqtisadi rayonunda dayanıqlı və tarazlı inkişafın təmin edilməsi istiqamətində mühüm əhəmiyyətə malikdir.

Tikinti sektorunun fəaliyyəti çoxşaxəli olduğundan bir sıra xarakterik xüsusiyyətlərə malikdir. Bu xüsusiyyət başlıca olaraq tikintinin qəsəbə və kəndlər arasında mütənasib şəkildə aparılmasıdır. 2011-ci ildən kəndlərdə tikilən kənd mərkəzləri ilə yanaşı, xidmət mərkəzi, məktəb binası, feldşer

mama məntəqəsi (ambulatoriya), rabitə, poçt, yol və digər infrastrukturlarla birlikdə kompleks abadlıq işləri aparılmışdir. Əsas kapitala investisiya qoyuluşlarının həcmi 2022-ci ildə bütün maliyyə mənbələri hesabına 995,9 milyon manatı ötmüşdür. Regionlarda quruculuq işlərinin genişləndirilməsi iqtisadiyyatın tarazlı şəkildə inkişafı nəticəsində kəndlə şəhər arasındakı fərqin aradan qaldırılmasını təmin etməkdən ibarət olmuşdur.

Müasir şəraitdə ərzaq təhlükəsizliyinin təmin edilməsinin başlıca şərti kənd təsərrüfatının inkişaf etdirilməsidir. Aqrar-sənaye sektoru insan həyatı üçün zəruri olan istehlak məhsullarına olan tələbatının ödənilməsində mühüm əhəmiyyətə malikdir. Bu baxımdan kənd təsərrüfatı məhsullarının istehsal həcminin ilbəil dinamik şəkildə artması, əhalinin ərzaq məhsullarına, yeyinti sənayesinin isə xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi, dövlət ehtiyatlarının yaradılması nəticəsində taxılı uzun müddət saxlamağa imkan verən anbarların, kənd təsərrüfatı məhsullarının isə təzə halda istehlakçılara çatdırılmasını təmin edən soyuducu anbarların istifadəyə verilməsi muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına əlverişli şərait yaradıb.

Naxçıvan iqtisadi rayonunun iqtisadiyyatının əsas sahəsini təşkil edən kənd təsərrüfatı cəmiyyətin zəruri ehtiyaclarının ödənilməsində strateji əhəmiyyət daşıdığından bu sahədə ardıcıl tədbirlər sisteminin həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə aparılan islahatlar və həyata keçirilən dövlət proqramlarının uğurlu icrası nəticəsində kənd təsərrüfatının mövcud potensialının daha da artırılması və uzunmüddətli dövr ərzində davamlı inkişafı təmin edilmişdir. İqtisadi və ərzaq təhlükəsizliyin əsas sahəsi olan aqrar sektor müasir inkişaf dövründə öz aktuallığını saxlamaqdadır. Naxçıvan MR-də kənd təsərrüfatının inkişafı istiqamətində bir sıra işlər yerinə yetirilməklə, aqrar siyasətin və yeni təsərrüfatçılıq formalarının düzgün qurulması ölkə iqtisadiyyatına öz töhfəsini verməkdədir. Cədvəlin rəqəmlərinə nəzər salsaq görərik ki, 2022-ci ildə kənd təsərrüfatı sahələrindən ümumilikdə 590,6 milyon manat həcmində məhsul istehsal olunmuşdur ki, bu da 2005-ci ildə istehsal olunan məhsuldan 6,0 dəfə çox və ya 492,4 milyon manat çoxdur. ÜDM həcmində isə kənd təsərrüfatı məhsullarının ümumi həcmi artaraq 19,7 % təşkil etmişdir.

Yaşadığımız həyatın artan tələbləri sürətlə inkişaf edən elektron ödəmə sistemlərinin qurulmasını və ondan istifadəni qaçılmaz edir, eyni zamanda bu sahənin yüksələn xətlə inkişafına imkan yaradır. Elektron pul köçürmə sistemləri onlayn ödəməni günün istənilən vaxtında həyata keçirməyə imkan verir.

Son illər muxtar respublika infrastrukturuna yeni nəsil kommunikasiya texnologiyalarının tətbiqi əsasında kommunal xidmətlərlə yanaşı, sosial ödənişlər, pensiyalar, üzvlük haqları, cərimələr, Hökumət Ödəniş Portalının şəbəkəsinə qoşulmaqla bank, kredit, vergi və digər ödənişlər POS terminallar, ATM, Pay Point vasitəsi ilə həyata keçirilir.

Müasir texnologiyaların inkişafı e-imzaların artmasına, fiber-optik kabel xətlərinin yenilənməsi əlaqələrinin tam kəsintisiz həyata keçirilməsində, elektron hökumət, geniş zolaqlı internet, 4-cü nəsil xidmətlərin və digər informasiya-kommunikasiya texnologiyaları layihələrinin mobil rabitə şəbəkəsi uğurla fəaliyyət göstərir.

Naxçıvan Muxtar Respublikasının dayanıqlı və davamlı inkişafında nəqliyyat mühüm rol oynayan amillərdən biridir. Muxtar respublikanın iqtisadiyyatında dəmir yol nəqliyyatının rolu böyükdür. Hazırda Zəngəzur dəhlizinə aid olan dəmir yolunun 47 kilometri ermənilərin işğalı altında olması Naxçıvan mənşəli məhsulların xarici bazarlara çıxışını məhdudlaşdırır, bu da regionun sosial-iqtisadi inkişafa mənfi təsir göstərir. Zəngəzur dəhlizi təkcə siyasi və hərbi cəhətdən deyil, eyni zamanda ticarət baxımından da çox vacibdir. Keçmiş sovetlər birliyi dövründə Bakı-Yerevan dəmir yol xəttinin işləməsi Naxçıvanın iqtisadiyyatının inkişafına səbəb olmaqla pambıqçılığın, üzümçülüyün, meyvəçiliyin, bostan-tərəvəz məhsullarının və şərabçılığın inkişafına müsbət təsir göstərmişdir. Bu dəhlizin açılması ilə Naxçıvan iqtisadi rayonu Azərbaycanın qərb rayonlar ilə quru və dəmir yolu xətti açılacaq, həmçinin dünya bazarına çıxış imkanları əldə etmiş olacaqdır.

Naxçıvan iqtisadi rayonunun bugünkü inkişafı baxımından demək olar ki, qloballaşma meyarlarına və modernləşməyə əsaslanan məqsədyönlü tədbirlər nəticəsində iqtisadiyyat şaxələndiriləcək, innovasiyalı iqtisadiyyata keçid təmin edilməklə iqtisadiyyatın bütün sahələrində dinamik artım əldə olunması üçün geniş imkanlar yaranacaqdır. Onu da bildirmək lazımdır ki, qloballaşmanın

hökm sürdüyü müasir dünyada iqtisadiyyat çox sürətlə istiqamət dəyişdirməkdədir. Bu, ilk növbədə şirkətlərin müştəri məmnuniyyətini artırmaq üçün yol verilən itkilərin və nəqliyyat xərclərinin azaldılması ilə bu uğura nail olmağın tərəfdarıdırlar. Bütün bunlar isə tədarük zəncirinin düzgün qurulmasından xeyli asılıdır.

Naxçıvan iqtisadi rayonunda səmərəli fəaliyyət göstərmək istəyən hər bir iqtisadi subyekt istehsal və xidmət prosesində keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini təmin etməlidir. Bunun üçün yeni texnikaların tətbiq edilməsi innovasiyaların əsas istiqamətlərindən hesab edilir. Regionda yeni biliklərə əsaslanan innovasiyaların inkişafı bütövlükdə milli innovasiya sisteminin formalaşmasından asılıdır. Qlobal rəqabət mühitində inkişaf etməkdə olan qeyri-neft sənayesi ənənəvi sahələrlə yanaşı, yeni məhsul istehsalı üzərində qurulan müasir tipli sahələrin yaranması ilə də xarakterizə olunmalıdır.

İqtisadi sahədə əldə olunmuş uğurlu nəticələr onu göstərir ki, regionda sahibkarlıq fəaliyyəti üçün bütün münbit imkanlar yaradılmış, rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların istehsalı ilə bağlı məsələlərin tənzimlənməsi üzrə qanunvericilik bazası formalaşmışdır. Fikrimizcə, regionun qarşısında duran vəzifələr icra olunduqca, onun gələcək inkişaf üçün yeni imkanlar yaranacaqdır.

Regionda davamlı iqtisadi inkişafın əsası elm-texniki tərəqqinin nailiyyətlərinin tətbiqinə və yeni modern texnologiyalarla silahlanmaya əsaslanır. Qeyd etdiyimiz bu fakt yüksək ixtisaslı, peşəkar kadrların və intellektual qabiliyyətli insanların yetişdirilməsini zəruri edir. Muxtar respublikada ötən dövr ərzində əldə edilmiş sosial-iqtisadi nailiyyətlər qeyri-neft sektorunun davamlı inkişafının bariz nümunəsidir.

There are a lot of resources that shows that learning English allows countries to access the international markets. The British Council consider s that language is like a currency that simplifies trades between countries. A worldwide language undoubtedly helps to make a dialogue, understanding each other, trust and making deals. This is confirmed by The Economist Intelligence Unit survey that around 70 percent of executives all over the world say that English is required for international expansion. This also shows that the 95 percent of executives believe that 50 percent of their employees will need to know English while only 8 percent said Chinese was a requirement. This is the case, because, as the British Council noted, language is like a currency. This shows that language is a tool to access international markets for trade, financing, and knowledge (Graddol, 2008).

**Why is English So Important For Developing?**

1. The English language is a key pillar of global education.

English is necessary for accessing higher education and global knowledge networks. Many of the world's top universities offer courses in English, and scientific researches are mostly published in English-language journals. Knowing English enables students and researchers to get the latest information, developments in science, technology, and academia, driving innovation and intellectual advancement**.** This is not surprising to know that most countries provides their education system with English as a subject. Because, out of the 195 countries of the world that are recognised by the United Nations, the overwhelming majority, which is 70 % or 138 countries have English as part of their core curriculum at school. A further 40 countries offer English as an option. In total, 178 countries either feature English as part of students’ compulsory studies or as an option for study (Elizabeth, 2013).

**Why the Level of English in Your Country is So Important**

English skills matter because they give people access to a wider range of information, a more diverse, international network, and more job opportunities than ever before. They also matter at the national level because they can tell us a lot about a country's level of innovation, competitiveness, and future prospects.

According to EF EPI (Educational First’s English Proficiency Index), there is a ranking of 113 countries and regions based on their English skills. In top 10, we can see countries like Netherlands, Germany, Norway, Sweden and other high developed countries. Our country, Azerbaijan is ranked 83$^{rd}$ which is considered as low proficiency. Although, English is very important for the development of a country, there were some countries like Nigeria or Kenya that had a good ranking which was considered as a high proficiency, they are not developed as much as some countries that had low proficiency. For example, Japan is one of the biggest economies and one of the most developed countries in the world, but Japan was ranked 87$^{th}$ which is very low proficiency. And this proves that sometimes English proficiency isn’t that necessary for a country to develop. Although the proficiency is very low in Japan, they still need English skills to access international markets, diplomacy and international relations (Pennycook, 2017).

**Role of English in Diplomacy and International Relations**

The role of English in international diplomacy cannot be overstated. English has become the principal language of diplomatic discourse, negotiation, and conflict resolution. For example, the United Nations, an emblem of global diplomacy, uses English as one of its six official languages, but it is often the working language during sessions, conferences, and in the drafting of resolutions. It's also same for the other international organizations like the World Bank, International Monetary Fund, and World Health Organization. In diplomatic conflicts, English serves a neutral, fluent negotiation without misunderstanding and simple sense of equality among nations. The ability of communicating fluently in English has become a critical skill for diplomats, makes understanding better, simplifies diplomatic discourse, and enabling the smooth functioning of international relations. English in global communication. In the realm of global communication, English plays a huge role. With the advent of the internet and the digital revolution, English has become the main language of the online world. It is the mostly used and the dominant language of websites, social media platforms, and digital communication tools. This digital spreading of English has confirmed its role as a key language in global communication. Moreover, English is the primary language of academia and research. Most scientific research is published in English, making it the language of innovation, discovery, and global intellectual discourse. Similarly, in global business communication, English is often the default language, facilitating transactions and negotiations across borders (Jenkins, 2007).

**The Impact on Non-English Speaking Cultures**

While the dominance of English makes global communication and diplomacy easier, it also makes some difficulties for non-English speaking cultures. The need to communicate in English can put non-native speakers at a disadvantage, potentially leading to miscommunication or misunderstanding. Additionally, the global focus on English may undermine the value and importance of other languages and cultures by chance. Therefore, learning English is very important.

**The Future of English in International Diplomacy and Global Communication**

Looking to the future, the role of English in international diplomacy and global communication will remain important due to factors such as globalization, digitization and the ongoing influence of English-speaking nations (Rubdy & Saraceni, 2009).

**The Role of English on Education**

The role of English in education is multifaceted. English is often considered as a global language and is widely used in international communication, business, science, and technology. In education, English is commonly used as a medium of instruction in many countries, and proficiency in English is often a requirement for higher education and employment opportunities. Additionally, English language skills are important for accessing a wide range of educational resources, from literature and academic journals to online learning materials. Overall, English plays a crucial role in providing access to knowledge and facilitating communication in the globalized world. What are the reasons why the English language is important in education? What are some examples of this? *(*Phillipson, 2018*)*

1. English may not be the most spoken language in the world, but it is the official language in a large number of countries. It is estimated that the number of people in the world that use in English to communicate on a regular basis is 2 billion!

2. English is the dominant business language and it has become almost a necessity for people to speak English if they are to enter a global workforce, research from all over the world shows that cross-border business communication is most often conducted in English. Its importance in the global market place therefore cannot be understated, learning English really can change your life.

3. Many of the world's top films, books and music are published and produced in English. Therefore, by learning English you will have access to a great wealth of entertainment and will be able to have a greater cultural understanding.

4. Most of the content produced on the internet (50 %) is in English. So knowing English will allow you access to an incredible amount of information which may not be otherwise available! Although learning English can be challenging and time consuming, we can see that it is also very valuable to learn and can create many opportunities.

**The Importance of English on the Technological Industry**

In the world of technology, English has emerged as the most important language. The tech industry, dominated by American companies and characterized by global collaboration, has adopted English as its primary language. This spreading of English is not just a trend, but a necessity in the interconnected world of technology. English is the primary language used in programming, coding, and other tech-related tasks. Most of the popular programming languages, such as Python, Java, and JavaScript, use English-based syntax. This means that keywords, functions, and commands are often written in English, making it necessary for anyone in the tech industry to have a good proficiency of the language. English is also prevalent in tech education. Online courses, boot camps, and university programs are often taught in English to reach a global audience. English proficiency can open up a wide range of learning opportunities for tech professionals, allowing them to stay at the forefront of their field. Beyond coding, English plays an important role in both internal and external communication within tech companies. Whether it’s team collaboration, project management, or client interactions, English is often the default language. Proficiency in English is necessary for understanding and contributing to tech-related discussions, meetings, and documentation. It provides clear and effective communication, reducing misunderstandings and increasing productivity. English also facilitates collaboration between tech professionals across different countries. It’s the bridge that connects diverse teams, enabling them to work together on complex projects. Numerous international tech projects and collaborations have been made possible because of the common understanding of English. It’s the language that breaks down geographical barriers and fosters innovation. English proficiency is a key enabler for tech professionals to fully participate in a lot of global tech communities. These platforms, which are predominantly English-based, serve as important centres for knowledge sharing, problem-solving, and collaboration. Users frequently post questions, share solutions, and contribute to projects, all in English. Being proficient in English allows tech professionals to understand and take part in these discussions, ask their own questions, and contribute their expertise. Moreover, these platforms often host a wealth of resources, such as documentation, tutorials, and discussion threads, which are mostly in English. So, English proficiency not only enables participation but also provides that tech professionals can fully leverage these resources to learn, grow, and collaborate in the global tech community. Proficiency in English provides access to a lot of tech resources. Tutorials, forums, documentation, and research papers are predominantly in English. Being able to read and understand these resources is important for learning new skills, solving problems, and staying updated with the latest tech trends and advancements. English, in this sense, is the key to the huge treasure trove of knowledge in the tech world. English proficiency can significantly enhance career prospects in the tech industry. It opens up job opportunities in tech companies around the world and plays a crucial role in job interviews, networking, and professional development. A strong command of English can set you apart in the competitive tech industry, giving you an edge in your career. In the realm of tech entrepreneurship, English plays a vital role. Start-up founders often find themselves in situations where they need to express their ideas, communicate their vision, and attract investment, and usually, these activities take place in English. This is especially true in the global arena, where English serves as a common language bringing different cultures and nationalities together. Investors, whether they are in Silicon Valley, London, or Beijing, often expect pitches in English, and global start-up events and competitions usually use English as their official language. Moreover, many resources and networks that entrepreneurs rely on, such as start-up incubators, accelerators, and venture capital firms, operate predominantly in English. Therefore, proficiency in English is not just a nice-to-have for tech entrepreneurs; it’s a must-have skill that can significantly influence the success of their start-up journey (Kirkpatrick, 2008).

**The Role of English on Economic Growth and Financial Development of a Country**

The role of English as the language of trade, finance and technology, has become more vital for development strategies in the 21st century. Recognition of English as the language of communication at the international level not only as knowledge of the language but also the ability to communicate effectively.

So, the English language has become a necessity to strengthen relations with other countries in the world, especially in international trade, economic development, and financial development. With this motivation, the main purpose of this study was to look the impact of English proficiency in the relationship between financial development and economic growth. A lot of researches prove that the interaction between English proficiency and financial development has positive impact on economic growth in many countries. The researches say that in achieving high and competitive economic growth in this era of globalization, the role of interaction between financial development and English Language Proficiency is vital to consider a reform that would strengthen the financial development and stimulate economic growth as well as development.

English proficiency opens up a broader range of job opportunities, particularly in sectors like finance, IT, tourism, and international business. Multinational corporations often use English as their official language, and proficiency in English enhances employability and earning potential. This, in turn, contributes to economic development and reduces unemployment rates. As the private sector companies are gaining ground and becoming more competitive due to changed world economy, the employees are always kept on their toes. It is like either you work hard and show your performance or perish for not taking care of your professional growth. The ability to use a language efficiently is very much required to remain employable. What is employability? It is the ability to remain employable as a result of the relevant skills one possesses. Communication skills are very much essential for one’s professional growth. The ability to express fluently in both written as well as oral form of language is very much essential for the career growth. As it is stated above, English being the most commonly used language in the corporate world; the knowledge of English is one of the most important employability skills. Knowledge of English is much sought after in the corporate world. Proper English does not mean only the ability to make grammatically correct sentences. It means other related skills for effective communication like presentation skills, convincing and negotiation skills and interpersonal skills using that language.

## Conclusion

In conclusion, the importance of English as a global language is immense, playing a crucial role in international communication, trade, and diplomacy. Proficiency in English opens doors to global markets, boosts economic growth, and enhances job prospects, particularly in sectors like finance, IT, and international business. It provides access to top-tier education and cutting-edge research, fostering innovation and intellectual advancement.

While there are challenges, such as varying proficiency levels and the potential devaluation of native languages, the advantages of English proficiency are clear. It promotes economic development, enhances employability, and supports technological progress. Investing in English education is essential for nations seeking to compete in the global economy and achieve their development goals.

## References

1. Crystal, D. (2014). English as a Global Language.
2. Graddol, D. (2008). English Next: Why Global English May Mean the End of “English as a Foreign Language”.
3. Elizabeth, J. (2013). Erling and Philip Seargeant English and Development: Policy, Pedagogy and Globalization.
4. Pennycook, A. (2017). The Cultural Politics of English as an International Language.
5. Jenkins, J. (2007). English as a Lingua Franca: Attitude and Identity.

6. Rubdy, R and Saraceni, M. (2009). English in the World: Global Rules, Global Roles.
7. Phillipson, R. (2018). Linguistic Imperialism.
8. Kirkpatrick, A. (2008). World Englishes: The Study of New Linguistic Varieties.

Received: 25.05.2024 Accepted: 09.07.2024

DOI: https://doi.org/10.36719/2706-6185/37/114-121

**Fərrux Muxtarov**
"Çıraqqala-Şabran" Dövlət Tarix-Mədəniyyət Qoruğu
muxtarovferrux68@gmail.com

# QƏDİM ŞABRAN ŞƏHƏRİ

## Xülasə

Azərbaycan ərazisində erkən şəhərlərin yaranması orta tunc dövrünə aid edilsə də, Xəzər dənizinin qərb sahillərində yaşayış yerlərinin şəhərlərə çevrilmə prosesi antik dövrdən başlayır. Respublikamız tərəfindən maddi-mədəni abidələrə ayrılan diqqət və qayğı qədim tarixi abidələrimizdən biri dünya əhəmiyyətli arxeoloji abidə olan qədim Şabran şəhəridir. Bu arxeoloji abidə Abşeron yarımadasından Dərbənd keçidinə aparan karvan yolu üzərində yerləşir. Aparılan araşdırmalar və yazılı mənbələrdə də bu bölgə "Qafqaz", "Alban", "Dərbənd", "Alan" və digər keçid adları ilə yad edilir. Məqalədə Şabran rayon Şahnəzərli kəndində yerləşən beynəlxalq əhəmiyyətli qədim Şabran şəhərinin salınma tarixi, kim tərəfindən salınması, şəhərin yerləşdiyi ərazi və hansı əhəmiyyət kəsb etməsi, Şirvanşahlar dövlətinin mövcudluğunda şəhərin əhəmiyyəti, əhalisinin məşğuliyyəti, hansı hərbi strateji mövqedə yerləşməsi orta əsrlərin ən inkişaf etmiş şəhərləri sırasında olması fikirlərini təsdiqləyir.

***Açar sözlər:*** *şəhər, Sasanilər, orta əsrlər şəhərsalma mədəniyyəti, arxeoloji abidə Şabran şəhəri, maddi mədəniyyət nümunələri*

**Farrukh Mukhtarov**
"Chiraggala-Shabran" State Historical-Cultural Reserve
mukhtarovferrux68@gmail.com

# The ancient city of Shabran

## Abstract

Although the formation of early cities in the territory of Azerbaijan is attributed to the Middle Bronze Age, the process of the transformation of settlements into cities on the western shores of the Caspian Sea begins in antiquity. the monument is located on the caravan road leading from the Absheron peninsula to the crossing. In the researches and written sources, this region is mentioned Derbend with the names of "Caucasus", "Alban", "Derbend", "Alan" and other crossings. In the article, the history of the establishment of the internationally important ancient city of Shabran, located in the village of Shahnazarli, Shabran district, by whom it was founded, the area where the city is located and what its importance is, the importance of the city in the existence of the Shirvanshah state, the occupation of its population, the military strategic position of its location and the ideas that it is one of the most developed cities of the Middle Ages confirms.

***Keywords:*** *city, Sassanids, medieval city-building culture, archaeological monument Shabran city, examples of material culture*

## Giriş

Orta əsrlər Azərbaycanında fərqləndirici xüsusiyyətlərdən biri urbanizasiyanın yüksək dərəcəsidir. Burada Azərbaycan hüdudlarından kənarda da yaxşı tanınan, böyük sayda əhaliyə, inkişaf etmiş sənətkar istehsalatına, digər ölkələrlə geniş ticarət əlaqələrinə və olduqca yaxşı inkişaf etmiş şəhər infrastrukturuna malik bir çox şəhərlər vardır. Azərbaycanın, demək olar ki, bütün orta əsr şəhərləri güclü müdafiə tikililəri sisteminə malik idi, burada çoxlu sayda monumental ictimai binalar, məscidlər, karvansaraylar, mədrəsələr, abadlaşdırılmış bazarlar və sənət istehsalı ocaqları vardı. Azərbaycanın demək olar ki, bütün orta əsr şəhərləri artıq IX-XII əsrlərdə su təchizatı və sanitariya-gigiyena qurğularına malik idi. Onlar təkcə inzibati və ticarət-sənət mərkəzləri deyildi,

həm də təhsilin, elmin, ədəbiyyatın, incəsənətin və digər mədəniyyət sahələrinin başlıca inkişaf ocaqları idi. Belə parlaq şəhərlərdən biri də Şabran idi.

Şəhər müasir Azərbaycan Respublikasının Şabran rayonunun ərazisində yerləşirdi. Bu gün Şabranın tutduğu geniş ərazidə Şahnəzərli, Rəhimli, Mollakamallı, Padar, Ərəblər və Gəndov kəndləri yerləşir. Beləliklə, orta ərslərdə Şabran qərbdə Böyük Qafqazın ətəklərindən, şərqdə Xəzər sahillərinə qədər uzanan Şabrançay çayının hər iki sahili boyunca geniş düzənlik ərazisini tuturdu.

Bu şəhərin yaranması haqqında yazılı mənbələrin məlumatları olduqca ziddiyətlidir. VII-XII əsrlərin demək olar ki, bütün ərəbdilli müəllifləri (İbn Xordadbeh, Əl-Baluzuri, Əl İstahri, Əl Müqəddəsi, Ək İdrisi, İbn Əl Asir və başqaları) ənənəvi olaraq Şabran şəhərinin təməlinin qoyulmasını VI əsr Sasani hökmdarı Xosrov I Anuşiravanın, bəziləri isə onun atası, V əsrin sonu-VI əsrin əvvəllərində hökmranlıq etmiş şahənşah I Qubadın adı ilə əlaqələndirirlər. Görkəmli azərbaycanlı tarixçi, orta əsrlər Bakısının tarixi və Şirvanşahlar dövlətinin tarixi üzrə fundamental elmi əsərlərin müəllifi S. Aşurbəyli ehtimal edirdi ki, çox güman Şabran Klavdiy Ptolomey tərəfindən antik dövr Qafqaz Albaniyasının şəhərləri sırasında adı çəkilən antik şəhər Şapotrenadır (Aşurbəyli, 1983).

Lakin orta əsrlər Şabranının aparıcı tədqiqatçılarından biri arxeoloq T. Dostiyev haqlı olaraq qeyd edirdi ki, bu günə qədər aparılan arxeoloji təqdiqatlar bu ehtimalı tədqiq edəcək maddi faktlar vermədilər (Dostiyev, 2001).

Şabran şəhərinin yerləşdiyi zonada qədim zamanlardan başlayaraq intensiv karvan yolları keçirdi ki, onlar da sonrakı antik və orta əsrlər dövründə Böyük İpək yolunun ən bərəkətli yollarından birinə çevrildilər, bu, heç də az olmayacaq dərəcədə Şabranın inkişafına və onun barəsində bir çox orta əsr müəlliflərində məlumatların ortaya çıxmasına səbəb oldu.

Həmin məlumatları arxeoloji tədqiqatların nəticələri ilə üzləşdirərkən alimlər tədricən, addım-addım bu şəhərin, onun mövcud olduğu müxtəlif dövrlər üzrə tarixini rekonstruksiya edirlər.

Erkən orta əsrlərdə IV-VII əsrlərdə Şimali Qafqazda əsaslı olaraq döyüşkən köçəri türk tayfaları – hunlar, avarlar, sabirlər, xəzərlər və bir çox başqaları yerləşdilər. Onlar özlərinin tayfa ittifaqlarını və erkən feodal dövlətlərini – xaqanlıqları yaratdılar və tez-tez Cənubi Qafqaz və Ön Asiya dövlətlərinin ərazilərinə basqınlar edirdilər. Bu tayfalardan bəziləri sadəcə basqınlar etmir, nadir olmayan hallarda Azərbaycanın qədim dövlətlərindən biri Qafqaz Albaniyasının torpaqlarında oturub qalırdılar. Bununla əlaqədar olaraq bəzi mənbələr, xüsusən XI əsrin görkəmli türk alimi Mahmud Kaşğari Şabran şəhərinin adını bu zonada məskunlaşan türk sabir tayfaları ilə əlaqələndirir və hesab edir ki, şəhərin ilkin adı Saburan kimi səslənirdi, bu da sabirlərin yaşayış yerini bildirirdi. Bundan əlavə, çox böyük ehtimalla güman etmək olar ki, sabirlər özləri də burada artıq mövcud olmuş sonrakı antik dövr məkanının yerində məskunlaşıblar.

Erkən orta əsrlərdə Cənubi Qafqaza güclü Sasani imperiyası nəzarət edirdi. Qafqaz Albaniyası da ondan vassal asılılığında idi. Təsadüfi deyil ki, versiyalardan biri bu şəhərin təməlinin qoyulmasını III əsrdə hökmranlıq etmiş Sasani şahənşahı I Şapur (241-272) ilə əlaqələndirir və ehtimal ki, şəhərin ilk adı Şapuran kimi səslənirdi, bu da orta fars pəhləvi dilində "Şapurun şəhəri" demək idi. Lakin bu versiya Sasani, ərəb, alban və digər orta əsr mənbələrində qeyd olunmur və hələ ki, arxeoloji planda da öz təsdiqini tapmır.

IV-VII əsrlərdə Sasani şahənşahları mütəmadi olaraq Böyük Qafqaz dağları arasından və Xəzər dənizindən sasanilərin torpaqlarına basqınlar edən döyüşkən türk tayfaları ilə mübarizə məqsədilə böyük səylər sərf edirdilər. IV əsrin sonlarından həmin hücumlar artıq o qədər tez-tez baş verirdi ki, bu, Sasani hökmdarlarını onların qarşısını almaq üçün kompleks tədbirlər həyata keçirməyə məcbur etdi. Onlardan biri də şərqdən Xəzər Dənizi və qərbdən Böyük Qafqaz dağları arasındakı, o zamanlarda Albaniya qapıları adlanan həmin keçidə Sasani imperiyasının daxili regionlarından irandilli tayfaların kütləvi köçürülməsi oldu. Həmin köçkünlərin sələfləri bu gün də Dərbənddən Abşerona qədər olan həmin regionda yaşamağa davam edirlər. Bu istiqamətdə ikinci addım "uzun divarların" tikintisi oldu, hansı ki, bu zaman Böyük Qafqazın dağ zirvələrindən Xəzərin sahillərinə qədər bütün keçid qüllələri, qalaları, hərbi şəhərcikləri və digər müdafiə strukturu elementləri ilə olan güclü müdafiə divarı ilə bağlanırdı. Belə ki, göstərilən zonada V-VI əsrlərdə dörd belə müdafiə

divarları ucaldılmışdı. Onlardan ən cənubda olanı Beşbarmaq dağından dənizin sahilinə qədər uzanır, ən şimalda olan isə Dərbənd rayonunda keçidi bağlayırdı. Daha iki analoji "uzun divarlar" dağların zirvəsindən dənizə qədər Gil-gilçay və Samur çaylarının axarı boyunca tikilmişdi. Həmin "uzun divarların" tikintisinə on minlərlə insan səfərbər edilmişdi ki, onları da gündəlik olaraq yatacaq, qidalanma, inşaat materialları, alətlər, nəqliyyat və s. ilə təchiz etmək lazım idi. Buna görə də tikinti zonasında çoxsaylı məskənlər və usta emalatxanaları, sənətkar-ticarət əhalisi ilə olan kiçik qala-şəhərlər yarandı ki, onlar həmin nəhəng tikintini bütün lazım olanlarla təchiz etməli idi. Onlardan biri də Şabran qala-şəhəri oldu. Bütün bunlar IX əsr müəllifi İbn Xordadbehin məlumatları ilə yaxşı səslənir, o, özünün "Yollar və ölkələr" kitabında yazırdı ki, "Xosrov I Anuşirvan aş-Şabran, Bababvab (Dərbənd) şəhərlərini, dağ yollarında isə 360 qala tikdirdi" (İbn Xordadbeh, 1986). Bir tərəfdən Şabranın ən mühüm ticarət yollarından birində, digər tərəfdən isə hərbi nəzər nöqtəsindən, Şimali və Cənubi Qafqazı birləşdirən strateji regionda yerləşməsi özünün mövcud olmasının bütün dövrü ərzində bu şəhərin tarixi taleyinə güclü təsir göstərdi. Şəhər dəfələrlə soyuldu və dağıdıldı, lakin Simurq quşu kimi yenidən doğuldu.

Artıq VII əsrin ortalarında sasanilərin yerinə Cənubi Qafqaza ərəblər gəldilər, onlar da, özlərinin sələfləri kimi, Dərbənddən Abşerona qədər olan regionda özlərinin mövqelərinin möhkəmləndirilməsi məsələsinə xüsusi diqqət yetirirdilər. Əvvəlcə şabranlılar ərəb sərkərdəsi Salman ibn Rabiyə ilə xilafətin tabeliyinə keçmək barədə müqavilə bağladılar, lakin VII əsrin sonundan VIII əsrin sonuna qədər davam edən ərəb-xəzər müharibələri başladı və Şabran bu zonanın bir sıra digər şəhərləri kimi bu mübarizənin mərkəzində qaldı. Ərəb salnaməçisi Əbu Məhəmməd əl-Kufinin yazdığına görə, xilafətin sərkərdəsi Maslam ibn Abdulməlik 731-ci ildə göstərilən müqavimətə cavab olaraq, Şabran qala-şəhərini yerlə-yeksan etdi, əhalisini isə ətraf ərazilərə köçürdü (Əl Kufi Əhməd ibn Asam, 1981). Lakin şəhər çox tez dirçəldi. IX-X əsrlərin ərəbdilli müəllifləri Azərbaycanın böyük olmayan, məhsuldar torpaqlarla əhatə olunan və ərzaq məhsullarının bolluğu ilə fərqlənən abadlaşdırılmış şəhərlər sırasında Şabranı da qeyd edirlər (Dostiyev). X əsrdə yaşamış coğrafiyaçı və səyyah Əl Müqəddəsi Şabran haqqında danışarkən qeyd edir ki, bu şəhərin qala divarları yoxdur. Qeyd etmək lazımdır ki, IX əsrin sonu – X əsrin əvvəlində Şirvanşahlar Cənubi Qafqazda yaranan Sac türk dövlətindən vassal asılılığında idilər ki, onun hökmdarı Yusif ibn Əbu Sac Dərbəndin divarlarını təmir etdi və möhkəmləndirdi. Şabranın yerləşdiyi zonada şərait sabitləşdi. Bütövlükdə VII-VIII əsrlər amansız ərəb-xəzər qarşıdurmasından sonra IX əsrdə beynəlxalq ticarətin sürətli inkişaf dövrü baş verir ki, Şabran şəhərinin dirçəlişi də bununla əlaqədardır. Şimaldan güclü Dərbənd müdafiə sisteminin mühafizəsi altında olmaqla Şabran, həqiqətən də, siyasi sabitliyin hökm sürdüyü X əsrin böyük bir qismində şəhər qala divarları olmadan da keçinə bilərdi ki, əl Müqəddəsi də bunu qeyd etmişdir. Şabran IX-X əsrlərdə sürətlə çiçəklənən ticarət-sənət mərkəzinə və Xəzər dənizinin qərb sahili boyunca uzanan beynəlxalq ticarətin mühüm qovşaq məntəqəsinə çevrildi. Lakin Yaxın və Orta Şərqdə siyasi qeyri-sabitliyin hökm sürdüyü dönəmdə Saclar dövləti uzun müddət mövcud ola bilməzdi. Sacların yerinə Cənubi Qafqaza, o cümlədən Xəzəryanı zonaya nəzarət edən Salarilər gəldi, lakin o da X əsrdə süquta uğradı. Şirvan hökmdarları və Dərbənd əmirləri arasında uzunmüddətli qarşıdurma başladı. Hər iki tərəf Dərbənd keçidi və Xəzər sahilində özünün hakimiyyətini qurmağa çalışırdı ki, bunun da əsas məqsədi burada keçən beynəlxalq ticarət yollarına nəzarət etmək idi. X əsrin 70-ci illərində Şabran Dərbənd əmiri Əhməd ibn Abdulməlik əl Haşiminin basqını nəticəsində növbəti dəfə talandı. Yaranmış vəziyyəti nəzərə alaraq, Şirvanşah Məhəmməd ibn Əhməd Şabran ətrafında güclü müdafiə divarlarının tikilməsi barədə qərar qəbul etdi. Bu zamandan başlayaraq Şabran Şirvanın aparıcı şəhər mərkəzlərindən biri kimi öz yerini tutdu. Əlbəttə, XI-XII əsrlərdə Şabran epizodik olaraq gah dəniz tərəfdən rusların, gah Dərbənd hökmdarlarının hücumlarına məruz qalır, gah da səlcuqların dalğası onlara qədər gəlib çatırdı, lakin bütövlükdə bu şəhərin çiçəkləndiyi bir dövr idi. O, Şirvanşahlar dövlətinin ən iri inzibati mərkəzlərindən birinə çevrildi. "Tarix əl-Bab" kimi mənbənin bildirdiyinə görə XI-XII əsrdə Şirvanşahların xəzinəsinin əsas gəlir mənbələrindən biri Şabran və onun ətraf kəndlərindən yığılan vergilər idi. Şabran özünün parçaları, xüsusən də ipəkləri ilə məşhur idi, o günəş ixrac edilən marena kimi bitki mənşəli boyaların istehsalı mərkəzlərindən

biri idi. Şəhərin özündə və ətraf kəndlərdə möhtəşəm xalçalar hazırlanırdı ki, onların da əhəmiyyətli bir hissəsi ixraca gedirdi. Bir sıra yazılı mənbələrin yazdıqlarına görə, zərgərlərin zinət məmulatlarında xalis qızılın çəkisini müəyyən etmək üçün istifadə etdikləri olduqca nadir olan "sınaq" qara daşını burada çıxarırdılar. Şabranın Şirvanın yüksək bədii tərtibatlı qlazurlu keramika qab-qaşıqların, dəri və şüşədən müxtəlif məmulların, eləcə də dəmirçilik sənəti məhsullarının istehsal edildiyi mühüm mərkəzlərindən biri idi. Şabran həmçinin özünü kənd təsərrüfatı məhsulları ilə şöhrətləndirmişdi. Burada yüksək dad keyfiyyətlərinə malik düyü və taxıl, meyvə və tərəvəzlər yetişdirirdilər. Şabran liman şəhəri sayılırdı, belə ki, onun məhəllələri Böyük Qafqazın dağ ətəklərindən Xəzərin sahillərinə qədər yerləşirdi. Buna görə də şəhər istər quru yolla karvan ticarətində, istərsə də Xəzər dənizi akvatoriyasında dəniz ticarətində fəal iştirak edirdi. Bütün bunlar Şərqin, Avropanın bir çox ölkələrindən, daha sonralar isə Rusiyadan tacirləri buraya cəlb edirdi. Qeyd etmək lazımdır ki, Şabran şəhərinin yerləşdiyi zonanın heyrətamiz əlverişli təbii-iqlim şəraiti Azərbaycanın XIX əsr tanınmış alim və şairi Abbasqulu Ağa Bakıxanova onu "cənnət bağı" (Gülüstani-İrəm) ilə müqayisə etməyə əsas verdi. XI-XII əsrlərdə Şabranın rolu və əhəmiyyəti o dərəcədə əhəmiyyətli idi ki, Şirvanşahların ailə sərdabəsi məhz bu şəhərdə yerləşirdi.

XII-XIV əsrlərdə Şabran, Cənubi və Şimali Azərbaycanın bir çox digər şəhərlərindən fərqli olaraq, baxmayaraq ki, dəfələrlə qısamüddətli olaraq monqolların hücum və soyğunlarına məruz qalmışdı, qlobal sarsıntılardan uzaq qaça bilmiş və Şirvanın aparıcı inzibati və ticarət-sənət mərkəzlərindən biri kimi öz mövqeyini qoruya bilmişdi. Burada XIV-XV əsrlərdə Şirvanşahlar dövlətinin sikkə saraylarından biri yerləşirdi. Praktiki olaraq XIV əsrin bütün orta əsr mənbələri Şirvanın iri şəhərləri arasında dəyişilməz olaraq Şabranın adını çəkirlər. Eyni vəziyyət bütün XV əsr boyunca da qalır. Belə ki, Ağqoyunlu dövlətinin hökmdarı Uzun Həsənin sarayı yanında Venesiyanın səfiri olan, 1475-ci ildə Şirvana səfər edən Kantarini qeyd edirdi ki, "Şamaxı və Dərbənd arasındakı yolun yarımgünlüyündə böyük olmayan, lakin olduqca gözəl şəhərcik yerləşir ki, ona baxdıqca adam gözlərinə inana bilmir" (Heydərov, 1982).

XVI əsrin ortalarında Şirvanın qəti şəkildə Səfəvilər dövlətinə birləşdirilməsindən sonra Şabran iri ticarət-siyasət mərkəz kimi öz mövqeyini qoruyurdu. Bu zaman buraya Rusiya torpaqlarından keçməklə Hindistana yanakı yollar axtaran ingilis "Moskva şirkəti"nin tacir və agentləri gəldilər. Həmin ekspedisiyanın rəhbərlərindən biri Entoni Cenkinson özünün "Gündəliyində" yazır ki, onlar Şabrana 1557-ci ildə gəldilər və gəmidən öz mallarını burada boşaltdılar. Özünün iqtisadi əhəmiyyətinə görə Şabranın Səfəvilər dövlətinin əhəmiyyətli şəhərlərindən biri olmasını Fars Don Juanı adı altında məşhur olan Oruc bəy bayat da xəbər verir.

XVI əsrin sonu – XVII əsrin əvvəlində Səfəvi və Osmanlı imperiyaları arasında bağlanan İstanbul müqaviləsinin şərtlərinə görə, keçmiş Şirvanşahlar dövlətinin bütün əraziləri, o cümlədən Şabranın da yerləşdiyi Xəzəryanı zona Osmanlı imperiyasının nəzarəti altına keçdi. Maraqlarında Xəzər dənizi akvatoriyasının mənimsənilməsi olan Osmanlılar Xəzərin dənizyanı şəhərlərində, o cümlədən də Şabranda gəmiqayırma və ticarətin inkişafına xüsusi diqqət yetirirdilər. Amma tezliklə Səfəvilər İstanbul müqaviləsi ilə itirilmiş bütün Şirvan və digər Azərbaycan torpaqlarına nəzarəti özlərinə geri qaytardılar.

XVII əsrin birinci yarısı Şabranın sonuncu iqtisadi çiçəklənmə dövrüdür. 1647-ci ildə Şabranı ziyarət edən türk səyyahı Övliya Çələbi şəhərin möhtəşəmliyinə heyran qalaraq qeyd edirdi ki, o, Təbrizdən sonra Səfəvilərin ikinci əhəmiyyətli şəhəridir, burada yetmiş məhəllə, bir o qədər də mihrablar var və Takmak xan, Əfşar xan və Uzun Həsən məscidləri kimi gözəllikdə məscidlər heç bir yerdə yoxdur (Dostiyev, 2002).

Orta əsrlər Şabranının fərqli xüsusiyyətlərindən biri də onun əhalisinin polikonfessionallığı idi. Burada on əsrdən də artıq müddət ərzində müsəlman, yəhudi və xristian icmaları birgə sülh şəraitində mövcud olmuş, məscidlər, sinaqoqlar və kilsələr tikilmişdir. Şabran əhalisinin polikonfessional tərkibi haqqında bir çox Şərq və avropalı mənbələr xəbər verir və onlarda bir dəfə olsun bu şəhərdə konfessiyalararası hər hansı bir münaqişə haqqında məlumat verilmir. Görünür şabranlılar həm şadlıqda, həm də kədərdə həyat çətinliklərini bərabər bölməyi bacarır və öz qonşularını dini mənsubiyyətinə görə deyil, real işlərinə və əməllərinə görə qiymətləndirirdilər.

XVII əsrin ikinci yarısından Səfəvilər dövlətini dərin siyasi, iqtisadi və maliyyə böhranı bürüyür. Bütün dövlətdə sənət istehsalı və ticarətin kəskin ixtisara düşməsi bir çox şəhərlərin, o cümlədən Şabranın süquta uğramasına gətirib çıxardı.

XVII əsrin 60-cı illərində şəhər rus quldur-kazakların hücumuna məruz qaldı. Şəhər talan edildi, əhalinin böyük hissəsi isə öldürüldü. XVII əsrin 70-ci illərində Şabrana səfər edən hollandiyalı səyahətçi Yan Streys onu "böyük olmayan şəhərcik" kimi qeyd edir. Şabran özünün keçmiş regional və ticarət-sənət mərkəzi kimi əvvəlki mövqeyini itirdi. XVIII əsrdə Səfəvilər dövlətində mərkəzi hakimiyyətin deqradasiyası və dərin sosial-iqtisadi süqut nəticəsində amansız daxili siyasi mübarizə başladı. Müxtəlif siyasi qüvvələrin xalq üsyanları və qiyamları bir-birini əvəz edirdilər. Bu şəraitdə Şabran qısa müddət ərzində bir neçə dəfə talana və dağıdılmaya məruz qaldı. Əhali şəhəri tərk etməyə və digər yerlərə köçməyə başladı və o, özünün keçmişdə dəfələrlə olduğu kimi regenerasiya qabiliyyətini itirdi. Boşalmış şəhər sürətlə xarabazara çevrildi. Ətraf kəndlərin sakinləri özlərinin təsərrüfat ehtiyacları üçün tədricən yaşayış və ictimai binaların divarlarını, eləcə də qala divarlarını sökdülər. T. Dostiyev ədalətli olaraq qeyd edirdi: "Yandıran cənub günəşi, amansız küləklər, hücuma keçən qumluqlar şəhəri tərk edilmiş xarabalığa çevirdi". Burada belə bir faktı da qeyd etmək lazımdır ki, Şabran şəhəri məhsuldar düzənlik sahəsinin mərkəzində yerləşirdi və şəhər həyatının sona çatmasından sonra onun ərazisi qonşu kəndlərin sakinləri tərəfindən kənd təsərrüfatı əkinləri üçün istifadə edilməyə başladı. Hər il əkin və əkin sahəsi üçün torpaqların istifadəsi sürətlə şəhər strukturunun bütün yerüstü əlamətlərinin yox olmasına gətirib çıxardı. Tezliklə yerli sakinlər hətta bu şəhərin adını belə xatırlamırdı, hesab edirdi ki, burada bir zamanlar əfsanəvi Gülüstani-İrəm olub. İlk dəfə Şahnəzərli kəndi yaxınlığında orta əsrlərin Şabran şəhərinin olması haqqında fikri A. A. Bakıxanov bildirib, bu da sonradan arxeoloji qazıntılarda tam təsdiqini tapıb.

Orta əsrlər Şabranının arxeoloji tədqiqatında ilk addım 1935-ci ildə şəhər ərazisinə o zaman gənc olan tədqiqatçılar Y. E. Poxomov və S. B. Aşurbəylinin səfər etməsi oldu. Şahnəzərli və Rəhimli kəndlərinə bitişik əraziləri nəzərdən keçirib, əhəmiyyətli dərəcədə həcmli material toplayaraq onlar həmin ərazinin ətraflı təsvirini tərtib etdilər (Paxomov). Y. A. Paxomov da, A.A.Bakıxanovun ardınca ehtimal etdi ki, bura məhz orta əsrlər Şabranının olduğu yerdir. 1937-ci ildə Bakıya su kəmərinin ikinci xəttinin tikintisi ilə əlaqədar olan torpaq işləri zamanı şəhərin ərazisində təsadüfən orta əsrlər keramika yandırılma sobası zədələndi. Yenidən buraya göndərilən Y. A. Paxomov yandırılma sobasının mövcudluğu faktını fiksə edərək onun konstruksiya məlumatlarını, ölçüsünü və digər parametrlərini qeyd etdi. Və bu dəfə Y. A. Paxamov əhəmiyyətli həcmdə keramika materialı topladı ki, bu, sonradan V. N. Leviatov tərəfindən ümumiləşdirildi və tədqiq edildi, onun tərəfindən belə bir fikir irəli sürüldü ki, orta əsrlər Şabranında yüksək inkişaf etmiş keramika istehsalı mövcud olub (Leviatov).

Bundan sonra 40 ildən artıq müddət ərzində orta əsrlər Şabranı ərazisində arxeoloji tədqiqatlar aparılmadı. Yalnız 1979-cu ildə "Şimal-şərqi Azərbaycanın arxeoloji abidələrinin icmalı"nın hazırlanması ilə əlaqədar Şabrançay çayının sahilində, Bakı-Xaçmaz yolundan qərbdə sahəsi 50 $m^2$ olan kəşfiyyat sahəsi açıldı. Həmin qazıntılar sayəsində ilk dəfə Şabran şəhərinin mədəni laylarının stratiqrafiyası müəyyən edildi. Həmin qazıntı zonasında mədəni layın gücü 4,6 m çatırdı və üç tikinti üfüqünə malik idi. Müəyyən edildi ki, bu sahədə şəhər VIII əsrdən XVI əsrə qədər fəaliyyət göstərib (Xəlilov, Qoşqarlı, Arazova). Şəhər həyatının inkişaf dinamikasını əks etdirən hər üç üfüqin inşaat texnikası və arxeoloji materialının xüsusiyyətləri öyrənildi (Xəlilov və s., 1993).

Keçən əsrin 80-ci illərindən başlayaraq bu günə qədər, kiçik fasilələrlə şəhərin ərazisində plana uyğun arxeoloji tədqiqatlar aparılır. Nəticədə, yüzlərlə fortifikasiya qurğularının, yaşayış və ictimai binaların, usta emalatxanalarının təməlləri və divarları şəklində yüzlərlə qiymətli tarixi artefaktlar müəyyən edildi. Böyük olmayan sahələrdə yoxlama qazıntıları ilə müəyyən edildi ki, şəhərin maddi mədəniyyət predmetləri və inşaat üfüqləri ilə daha çox zəngin olan mərkəzi hissəsi 40 hektara yaxın bir ərazini əhatə edir. Burada mədəni lay 5 metrə qədər çatır və dörd inşaat üfüqindən ibarətdir. Onlardan ən aşağıda olanı VI-VIII əsrlər erkən orta əsrlərə, ikincisi IX-XII əsrlərə, üçüncüsü XII-

XIV əsrlərə aiddir, sonuncu yuxarı üfüqsə XV-XVIII əsrlər şəhər həyatını xarakterizə edir (Məmmədov, Allahverdiyeva, 2015).

Keçən əsrin sonlarında keçirilən Şabran şəhərinin miqyaslı qazıntıları professor R.B.Göyüşovun rəhbərliyi altında aparılırdı. XXI əsrin əvvəllərində Şabran şəhərinin qazıntıları F.A.Abbasova, sonra isə bu məqalənin müəllifi tərəfindən davam etdirildi. Həmin qazıntılar nəticəsində iki Şabran qalası və XIV-XV əsrlər şəhər qəsri, çoxsaylı yaşayış evləri, təsərrüfat tikililəri, məscidlər, xristian və zoroastrizm məbədləri aşkar və tədqiq edildi. Şəhərin müxtəlif dövrlərdə (XI-XII, XIV-XV əsrlər) çay daşları ilə döşənmiş küçələri qazıldı. Keramika borulardan su kəmərləri sistemi aşkar edildi, onlar vasitəsi ilə dağlardakı bulaqlardan şəhərə su çatdırılırdı. Qazılmış bəzi sahələrdə XI əsrə aid qapalı yeraltı kanalizasiya sistemləri aşkar edildi (Abbasova, 2002)

Memar F. Q. Məmmədov tərəfindən aparılan Şabranın müdafiə qurğularının çoxillik tədqiqatları Şabran qalasının və onun qala divarlarının elmi əsaslandırılmış rekonstruksiyasını yaratmağa imkan verdi. Mütəxəssislərin fikrincə, şəhərin fortifikasiya sistemi öz dövrü üçün yüksək səviyyədə idi və burada bacarıqla seçilən inşaat materialları ilə yanaşı, yerli relyefin xüsusiyyətləri də ustaca diqqətə alınırdı. Qala və qala divarlarının tikintisində eyni zamanda yandırılmış kərpic, çay daşı və əhəngdən istifadə edilirdi. Onların uyğunlaşdırılması təkcə divarların davamlılığını artırmır, həm də bu monumental tikililərə estetik baxımlılıq verirdi. T. Dostiyevin haqlı qeydinə görə, “Qala divarlarının kombinə edilmiş hörgüsü zərbə taranları zamanı davamlılığı və etibarlığı təmin edirdi; belə hörgü amortizasiya xüsusiyyətlərinə malik idi” (Dostiyev).

Qazıntılar nəticəsində şəhərin yaşayış evlərinin strukturunu müəyyənləşdirmək mümkün oldu. Onlar hamısı çay daşlarından bünövrə üzərində bişmiş kərpicdən tikilirdi. İki-üç otaqlı evlər üstünlük təşkil edirdi. Lakin imkan şəhər sakinlərinin çoxotaqlı evləri, eləcə də ictimai binalar, o cümlədən ibadət qurğuları tez-tez plitələrlə və ya kərpiclərlə üzlənirdi ki, onların da fasad hissəsi xüsusi suvarma ilə örtülürdü.

Qazıntılarla şəhərin, demək olar ki, mövcud olduğu bütün dövrlər ərzində ən müxtəlif sənət istehsalatının yüksək inkişaf dərəcəsi elmi sənədləşdirilmişdir. Bunu həm istehsalat qurğularının özlərinin qalıqları, həm də bu və ya digər sənət istehsalı üçün alətlərin, xammal qəliblərinin, yarımfabrikatların, istehsalat zayı və şlakının, nadir hallarda isə hazır məhsulun mövcud olması təsdiq edir. Sənət istehsalının keramika məmulatlarının, kərpic və digər tikinti materiallarının, dəmirçilik işi və s. bu kimi bir sıra sahələrdə istehsalat standartlarının mövcud olması müşahidə edilir ki, bu da şübhəsiz ki, əmtəə dövriyyəsinin xarakterik cəhətidir.

Şabran layiqli olaraq orta əsrlər Azərbaycanında keramika istehsalatının aparıcı mərkəzlərindən biri hesab edilir. Tədqiqatçıların rəyinə görə, Şabranın keramika məmulatları yaxşı keyfiyyətli yandırılması, onların funksional təyinatı ilə əlaqəli olaraq forma və ölçülərinin müxtəlifliyi və parlaq ornament tərtibatı ilə fərqlənir. Xüsusilə də suvarma keramikanı qeyd etmək lazımdır ki, onun dekorativ tərtibatı, mütəxəssislərin fikrincə, Şabran ustalarının təkcə yüksək ustalıq səviyyəsini deyil, həm də yaxşı zövqünün olmasını təsdiq edir (Dostiyev). Şabranın bir çox keramika qablarının dibində ustaların fərdi damğaları vardır. X-XIV əsrlərə aid mədəniyyət layında özlərinin fərqli cizgilərinə malik olan 15 damğa aşkar edilmişdir (Dostiyev). Dulusçuluq işi ustalarının bu sayda fərdi damğaları, şəhər ərazisində aşkar edilən çoxlu sayda keramika yandırma sobaları ilə uyğunlaşdırılmaqla heç bir şübhəyə yer qoymur ki, şəhərdə istehsal edilən keramika məmulatlarının əhəmiyyətli bir hissəsi digər şəhərlərə və ölkələrə daşınması üçün nəzərdə tutulurdu.

Digər yüksək inkişaf etmiş sənət istehsalı sahəsi şüşədən məmulatların hazırlanması idi. Qeyd etmək lazımdır ki, Azərbaycanın bir çox orta əsrlər şəhərlərində qazıntılar zamanı şüşə məmulatların tapılması tez-tez rast gəlinən təzahür deyil. Bu mənada Şabran istisnadır. Burada arxeoloqlar tərəfindən istər məişət təyinatlı, istərsə bəzəklər şəklində olan şüşə məmulatların geniş kolleksiyası toplanmışdır. Şəhər ərazisindən olan şüşə məhsulların kimyəvi-texnoloji tədqiqatı onların hazırlanmasında müxtəlif texnoloji metodların mövcud olmasını göstərir ki, bu da bu məhsulun yaxşı inkişaf etmiş istehsalının olmasını təsdiqləyir. Bununla əlaqədar qeyd etmək lazımdır ki, Şabranda tapılan şüşə qabın fraqmentlərindən birində ərəb əlifbası ilə yerinə yetirilən

və tərcüməsi "Şabranda istehsal edilib" kimi oxunan "Amali Şabran" imzası vardır (Dostiyev). Yaxşı məlumdur ki, belə işarələnmə orta əsrlərdə ixracat üçün nəzərdə tutulan predmetlərə vurulurdu.

Artıq qeyd edildiyi kimi, Şabrandan həmçinin dünya bazarlarında yüksək qiymətləndirilən ipək və yun parçalar, xalçalar, boyalar ixrac edilirdi. Əlbəttə, şəhərdə dəmirçilik-tökmə, mis, zinət və digər bu kimi sənətlər də yaxşı inkişaf etmişdi.

